# DƏRD BİZİ ŞAİRƏ DÖNDƏRDİ…

Ürəyimin dərdi, qəmi tüğyan eləyib daşqın dağ çayına dönmüşdü…Dar otağı dörd dolanırdım, qəlbim aram tapmır, könlüm ovunmurdu…Xəyal köhlənim baş alıb köhnə yurd yerinə, o dağlara uçmuşdu… Təsəlli tapmağa, könül oxşamağa dərd bilən, söz anlayan bir həmdəm axtarırdım…Gözüm qohum-qardaş arayır, dərdimi bölməyə dərddaş gəzirdi…

Televizorun düyməsini açdım…Azərbaycan TV-də cavan bir jurnalist qız xalq şairimiz Bəxtiyar Vahabzadədən müsahibə alırdı…Söhbətləri qaçqınların məskunlaşdığı, Azərbaycanın ən böyük dərdi olan çadır şəhərciyində doğulan, böyüyən, gələcəyimizin bir hissəsi olan qaçqın uşaqlarından gedirdi. Xalq şairimiz qaçqın uşaqların həyat şəraitindən yana-yana danışırdı. Qəflətən gənc jurnalist qız günümüzün aktual suallarından birini şairə ünvanladı:

-Hörmətli Bəxtiyar müəllim, son vaxtlar insanların hamısı şeir yazmağa başlayıb. Neçə-neçə şeir kitabları nəşr olunub. Siz hər kəsin şeir yazmağına necə baxırsınız?

Xalq şairinin qaşları çatıldı, sanki jurnalist qız yaralı yerinə toxunmuşdu.

-Şair kimi tanınmayan adamların, ədəbiyyatı öyrənməyən, qafiyənin, şeirin nə olduğunu bilməyən qeyri-ixtisas sahiblərinin şeir yazmağını qəbahət sayıram. Müəllim müəllimliyini, həkim həkimliyini, mühəndis mühəndisliyini, fəhlə fəhləliyini etsin. Mən

buna çox pis baxıram–deyə, cavab verdi.

Birdən-birə xalq şairindən belə bir söz eşitmək, onun belə bir ittihamına qulaq asmaq qəlbimi sıxdı, dərdini özü də bilmədən sətirlərə düzən didərginlərin, yurd həsrətlilərinin, ata ocağından perikənlərin yerinə özümü təhqir olunmuş hesab etdim. Axı şair olub şeir yazmaq üçün xüsusi məktəb qurtarmaq, filoloq olmaq, ədəbiyyatı oxumaq əsas şərt deyil. Sevimli aşığımız, el sənətkarı, qoşmaları, gəraylıları, divaniləri, cığalı təcnisləri, dodaqdəyməzləri, qıfılbəndləri dillər əzbəri olan Aşıq Ələsgər də deyilənə görə hərif belə tanımayıb, məktəb təhsili almayıb, amma şerləri bu gün də dillər əzbəridir. Aşıq-şair kimi müasir zəmanəmizdə də sevilir. Deməli, şair olmaq üçün xüsusi məktəb keçmək lazım gəlmir, istedadlı doğulmaq gərəkdir. Ulu Tanrım insanı yaradanda ona istedad, yaratmaq qabiliyyəti verib və hər bir insan elə anadangəlmə istedadla doğulur. Ailə, məktəb, ictimai mühit bu istedadın bu və ya digər istiqamətlərdə inkişaf etməsinə şərait yaradır.

Adətən el arasında "ilhamı gəldi", "təbi gəlib", "ilham pərisi" və s. kimi kəlmələri yəqin ki, hamı eşidib…Bəs bu "ilham" nə vaxt gəlir? "Təb" necə olur? "İlham pərisi"ni hansı şair görüb? "Təb", "ilham" haçan, nə vaxt, hansı yaşda gəlir? Necə olur? Yəqin ki, heç bir şair bu suallara konkret bir düzgün cavab verə bilməz.

Mən, ağlım kəsəndən poeziya vurğunu, şeir həvəskarı olmuşam. Xoşuma gələn, könlümə yatan,

ruhumu oxşayan şeirləri əzbərləyib intonasiya ilə söyləməyi sevmişəm. Şeirin kim tərəfindən yazılmağının da mənim üçün heç bir fərqi yox idi. Əsas o idi ki, oxuduğum şeir xoşuma gəlsin, onu elə həmin andaca əzbərləyərdim. Yox, yaxşı şeri əzbərləmirlər, o, elə oxunan zaman yaddaşlara özü həkk olunub qalır. Mən heç zaman şeir yazmağı düşünməmişəm, şair olmaq xəyalımdan da keçməyib. Lakin şair olmağın sirrini, ilhamın, təbin gəlməsini, ilham pərisinin nə  demək olduğunu ilk dəfə qəlbimin dərdi-qəmi tüğyan edib dilimdən süzüləndə anlamışam...

1980-ci il 8 yanvar... Kəlbəcərimin qarlı-şaxtalı bir qış günü idi…Sevdiyim oğlan qapıdan çıxanda:

- Tez qayıt!-dedim. Dönüb mənə baxdı:-Gözlə, qayıdacağam!–dedi və getdi…O gün mənim qəlbimin tüğyan edən, dəlisov dağ çayı kimi çağlayan vaxtına düşdü…

“Geyinib astaca çıxdın qapıdan,
Elə bil başıma dünya dolandı…
Yalvardım:-“tez qayıt!”-söz verdin: - “yaxşı!”
Qəlbimdə bir həsrət atəşi yandı…

Getdin…Qayıtmadın…Harda yubandın?
Axı söz vermişdin tez qayıdasan?
Həsrətə, hicrana necə dayandın?
Gəl ki, bu qəlbimi bir ovudasan!

Geri dön! Getdiyin uzaq ellərdən!
Gəlişinlə yatan bəxtim oyansın.
Geri dön! Hiss edim əsən yellərdən,
Kədər çökmüş qəlbim nura boyansın!

Sən demə təhsilin, yaşın, hətta cinsiyyətin belə fərqi yox imiş. Şeir elə bir anda yaranır ki, qəlbində hisslərin, duyğuların aşıb-daşır, təlatümə gəlib tüğyan edir. İçindən haraylamaq, hayqırmaq, var səsinlə fəryad etmək, nalə çəkmək, ərşə ucalan ün salmaq istəyirsən. Bu zaman köksünün altında təlatümə gələn bu hisslərin, duyğuların sözə, kəlməyə çevrilib dodaqlarından süzülür, özün də bilmədən şeir adlanan formaya çevrilir. O anda yadına nə qafiyə, nə rədif düşür, nə də hecaları saymaq xəyalına gəlir. Sadəcə olaraq o tüğyan edən hiss və duyğularını sözlərin köməyi ilə ifadə edib vərəqə köçürürsən. Təlatümlü ummana dönən qəlbinin dərdini, kədərini ağ vərəqlərə boşaldırsan. Hisslərin hürküb şahə qalxan köhlən at kimi "yüyəni" qırıb sonsuzluğa baş vuranda, dilin qeyri-ixtiyari kəlmələr pıçıldayır. Sözlər sıra-sıra düzülür, düzüldükcə sətirlənir, bəndlərə çevrilir, hecalanır, qafiyələnir və nəhayət sirli-sehirli ilham pərisinin nübar payı, bəhəri, barı, ecazkar ərmağanı olan və şeir adlanan hikməti yaradır.

Sevdiyim anam Kəlbəcərdən perikib, yurd-yuvamızdan didərgin düşmüşdüm…Doğma elimiz üçün burnumun ucu göynəyirdi. Qohum-qardaş həsrəti ac qurd kimi ürəyimi didib-parçalayırdı. Qardaşlarım Hikmətin, Qismətin xəyalı gözlərimin önündən çəkilmək bilmirdi…

Qardaşım, gəl gedək dağlara sarı,
Könlümə bir çoban tütəyi düşüb…
Gicirtkən, əvəlik, pencər yığdığım,

Qonqurun, Qoçdaşın ətəyi düşüb…
Südü quzulara verməyim üstə,
İlmələri yanlıc hörməyim üstə,
İcazəsiz bağa girməyim üstə,
Həcər nənəmizin kötəyi düşüb...
Mirvarini kövrək görüb qınama.
Hana qura, yançı olam anama.
Dadlıydımı bala qatanda xama?
Yadıma arının pətəyi düşüb…

Şeir adlanan bir hikmətin yaranması heç kəsin ixtiyarında deyil. Bu hikmətin sirrini yalnız Yaradan bilir. Heç kəsə “sən şeir yazma” demək olmaz. Heç kəsin qəlbindəki duyğulara hakim kəsilmək, hisslərini susdurmaq olmaz. O hiss və duyğuları elə bir Qüdrət sahibi yaradıb ki, ondan qüdrətli kimsə yoxdur. İnsanı Yaradan belə yaradıb, çünki yaratdığını belə-istedadlı görmək istəyib. Bu istedad isə müxtəlif şəraitdə müxtəlif formada təzahür edir. Kimində qəhrəmanlıq, kimində müğənnilik, kimində memarlıq, kimində də şair kimi üzə çıxır. Yəqin ki, yurdumuzda müharibə olmasaydı Milli Qəhrəmanlarımız da olmazdı!...Yəqin ki, başımızdan aşan dərdimiz-qəmimiz olmasaydı biz də şairə dönməzdik! Dərd-qəm bizi şairə döndərdi bizdən xəbərsiz…Çünki kədər qapını döyəndə, dərd üstünə qoşun çəkəndə, qəm dəryasında boğulanda susmaq olmur, istəsən də susa bilmirsən, dərd səni dilləndirir, qəmin, kədərin səni şairə döndərir…

1994-cü ilin bir qarlı qış günüydü…Kəlbəcər uğrunda qanlı döyüşlər gedirdi…Xəbər gəldi ki, vaxtı ilə 9-cu sinifdə oxuyarkən şagirdim olmuş Ədalət Cəfərov Murov dağında şəhid olub və qar güclü olduğundan meyidini götürmək mümkün olmayıb, atası əliboş geri qayıdıb…Ədalətin siması gəlib durdu gözlərimin önündə…Ana qəlbim fəryad qopardı o gecə…

Bir tənha şəhid var dağ gədiyində…
Üzünə tökülən tellər ağlayır…
Öpür, sığal çəkir yaralarına,
Yaxasını açan yellər ağlayır…

Kəfən olub üstə çən-duman çökür,
Buludlar ana tək göz yaşı tökür,
Qəzəbdən torpağın bağrını sökür,
Qanına bulanan sellər ağlayır…

Mirvari, yanında anası yoxdu,
Saç yolan bacısı, sonası yoxdu,
Demə ki, halına yanası yoxdu,
“Oğul!”- deyib, bizim ellər ağlayır…

O gün mən şeir yazmırdım, yox, heç dəftər-qələm yadıma da düşmürdü…Mən öz şagirdimə balasını itirmiş bir ana kimi yas tuturdum, ağı deyib, şəhid balamı ağlayırdım…

Əziz oxucu! Bu yazılanları şeir kimi qəbul eləmə, bunların hər sözü, hər kəlməsi qəlbimin ünü, ürəyimin fəryadı, könlümün həsrətidir, dodaqlarımdan süzülüb sətirlərdə uyuyur…Mən onları söyləyəndə sızıldamırdım, inləmirdim, yox, mən ağla-

mırdım da, mən bütün dünyanın kar olmuş qulaqlarını batıran fəryad qoparırdım, Tanrıya çatan ün salırdım…Mən hisslərimlə, duyğularımla düşmənə meydan oxuyurdum…Yurd həsrətinə, el dərdinə, qohum-qardaş itkisinə dözmək üçün sözlərimlə mübarizə aparırdım…Bu mənim sözlə döyüşüm, kəlmə ilə vuruşum, sətirlərlə müharibəmdir!..Bu mənim mübarizə üsulumdur!... Bir gün qalib gələcəyimə inanıram!...Çünki, biz dönüb o yurda qayıdacağıq!... Mütləq qatıdacağıq!

Biz dönüb o yurda qayıdacağıq,
Dağlar cığır salsın, duman gözləsin!
Qıvrıla-qıvrıla çıxsın yollara
Çay göz-qulaq olsun, ümman gözləsin!

İgid oğlu-qızı silahlanacaq,
Özünü müsəlləh əsgər sanacaq,
Yollarında məşəl olub yanacaq,
Qəlbinə gəlməsin güman, gözləsin!...

Mirvari, qeydinə qalan gələcək!
Torpağın qisasın alan gələcək!
O dağlarda zəfər çalan gələcək!
Bizdən Vətən borcun uman gözləsin!...

**MİRVARİ ELSEVƏR**

## OYAN, AZƏRBAYCAN, OYAN.

Sübh çağı atəş səsindən oyan, Azərbaycan oyan!
İgidlərin al qanına boyan, Azərbaycan boyan!

Bu haqq səsi boğa bilməz yüz namərd əl uzansa da,
Düşmən qarşısında məğrur dayan, Azərbaycan
dayan!

Car çək bütün yer üzünə, Odlar yurdu od içində,
Çağır gəlsin şəhidlərin sayan, Azərbaycan sayan!

Ölər, övladların verməz: “Vətəndən pay olmaz!”-
deyə,
Candan da əzizdir daşın, qayan, Azərbaycan qayan!

Geyər matəm libasını, haray səsinə səs verər,
Müsəlman dünyası olar hayan, Azərbaycan hayan!

20 yanvar 1990

## BASILMASIN AZƏRBAYCAN TORPAĞI

Haydı, cəsur qızlar, igid oğullar,
Çırmayın azadlıq naminə qollar,
Birləşsin amallar,birləşsin yollar,
Hər kəndə, şəhərə salaq sorağı,
Basılmasın Azərbaycan torpağı!
Tanınsın günahkar olanlar kimdi,
Araya qırğınlar salanlar kimdi,
Xalqların qeydinə qalanlar kimdi,
Dünya özü seçsin qaradan ağı.
Basılmasın Azərbaycan torpağı!
Bakı haraylasın, Gəncə “ hay” desin,
Göylərə səs düşsün ulduz, ay desin,
Xəzər ləpələnsin, axar çay desin:

-Nə gözəldir ana yurdun bu çağı!
Basılmasın Azərbaycan torpağı!
Naxçıvan, Gədəbəy, Laçın dərdini,
Şuşanın dünyaya açın dərdini,
Kərkiyə köməyə qaçın, dərdini
Ellər desin, qoşsun bayatı, ağı,
Basılmasım Azərbaycan torpağı!
Qubadlı, Zəngilan, məğrur Sədərək,
Köməksiz qalmasın Nüvədi gərək!
Vətənə azadlıq çələngi hörək,
Çiçəyə bürünsün baxçası, bağı,
Basılmasın Azərbaycan torpağı!
Atlansın Qazağın mərd oğulları,
Kəssin gədikləri, tutsun yolları,
Bir quş da səkməsin ölkəmə sarı,
Gözü tək qorusun dərəni, dağı,
Basılmasın Azərbaycan torpağı!
Oğlu, qızı tapsın çarəsi nədən,
Çıxsın Kəlbəcərim mühasirədən.
Neçə əl dəyməmiş xəzinə, mədən
Açılsın, nur saçsın cənnət qucağı.
Basılmasın Azərbaycan torpağı!
Hər meyvə ləzizdi tamı, dadıyla,
Alim hörmətlidir öz savadıyla,
Çağrılsın Ağdərə, Xankənd adıyla,
Odlar yurdum olsun sülhün dayağı,
Basılmasın Azərbaycan torpağı!
Ölkəsi tapmayıb çarə dilindən,
Xalqları gətirib zara dilindən,

Çəkin Balayanı[1] dara dilindən,
Silin ürəklərdən düyünü, dağı,
Basılmasın Azərbaycan torpağı!
Silaha sarılsın Xoylu qardaşım,
Ərdəbil həmdəmim, Mərənd sirdaşım,
Təbrizlim döyüşdə səngər yoldaşım,
Döşümüzə sipər edək yarağı,
Basılmasın Azərbaycan torpağı!
Ətdən qala çəkək sərhəd yerinə,
Əbədi son qoyaq qonşu şərinə,
Şahidimiz olsun tarix, qərinə,
Göz aça bilməsin bir namərd yağı,
Basılmasın Azərbaycan torpağı!
Dayanaq keşikdə çiyin- çiyinə,
Baxıb övladıyla yurdum öyünə,
Didərginlər dönsün doğma köyünə,
Ucalsın dağlarda Vətən bayrağı,
Basılmasın Azərbaycan torpağı!
Xoş günümüz ötsün ildən- illərə,
Azadlıq nəğməmiz düşsün dillərə,
Qızlar gəlin köçsün eldən- ellərə,
Analar bəzəsin gəlin otağı,
Basılmasın Azərbaycan torpağı! Yanvar 1990

1.Zori Balayan – erməni yazıçısı ("Ocaq"əsərinin müəllifi).

## BİZİ GÖZLƏYİR...

Yığılın başıma kəlbəcərlilər!
İşğal olan torpaq bizi gözləyir!
Yağılar talayıb bağçanı, bağı,

Xəzəl olmuş yarpaq bizi gözləyir!
Həsrətdən düşübdü tanınmaz hala,
Sanki çatlayacaq bağrı az qala,
Gözün yola dikib cüyürlü tala,
Darıxıbdı, ovlaq bizi gözləyir!
Köhnə yurd yerlərin çən-duman almış,
Örüş səssiz-küysüz, xaraba qalmış,
Ot basmış cığırlar sükuta dalmış,
Alaçıqsız yaylaq bizi gözləyir!
Boylanır dörd yana qəm yeyə-yeyə,
Yamyaşıl meşələr həsrətdi neyə,
Yağılar suyundan içməsin deyə,
Buz bağlayıb bulaq, bizi gözləyir!
Otu biçilməyən göy biçənəklər,
Güldən-gülə qonan zər kəpənəklər,
Kəlbəcər səmtindən əsən küləklər
Gətiribdi soraq, bizi gözləyir!
Çiskinə bürünən Qonqur, Keytimi?
Duyar, "Cəngi" çalsa sazımın simi.
Bağrına basmağa bir ana kimi
Açaçaqdır qucaq, bizi gözləyir!
Savaşa atılan ər nərəsinə,
Əks-səda verər Qoçdaş səsinə,
Sərhəddə ucalan dağ zirvəsinə
Sancılacaq bayraq bizi gözləyir!
Köç edib yurduma qardaşım gəlsə,
Şəhərlər salmağa yoldaşım gəlsə,
Toy-düyün qurmağa sirdaşım gəlsə,
Xoş keçəcək növraq bizi gözləyir!

Xoşbəxt yaşayarıq ellərimizlə,
Şən nəğmə qoşarıq dillərimizlə,
Ata yurdumuzda əllərimizlə
Yanmalıdır ocaq, bizi gözləyir!
Bükülüb, dizləri taqətdən düşüb,
İşgəncədən telə bəyaz dən düşüb,
Girov qız-gəlinlər ismətdən düşüb,
Silahlanın! Yaraq bizi gözləyir!
Mirvari, hayqırıb oyat cahanı,
Qanla yumalıyıq tökülən qanı!
Tarixə "Qələbə!" adlı dastanı
Yazmalıyıq, varaq bizi gözləyir!

Aprel, 1994

## QOYMARIQ

Goranboylu Şahmalı əmiyə məktub

Zəng edib deyirsən: -"Dağ əmanəti!"
Bu dağları elsiz qala, qoymarıq!
Keşiyində ayıq-sayıq durmuşuq,
Yağı gələ məskən sala, qoymarıq!
Yadellilər, yadlar olsa qonağı,
Bağışlamaz bizi Ceyran bulağı.
Əsir düşə Keyti, ya Dəli dağı,
Tapdana Armudlu tala, qoymarıq!
İgidlər bu yolda canından keçib,
Müqəddəs Vətənə, elə and içib.
Torpaq üçün şəhid olmağı seçib,
Kəlbəcəri qeylü-qala qoymarıq!

Avqust 1990

## QİSAS AL, DEYİR

Xocalının harayına tələsən qardaşım Hikmətə

Həqiqətdir, yoxsa yalan Xocalı?!
Növrağı dağılan, talan Xocalı,
Ayaqlar altında qalan Xocalı:
- Mənim faciəmi yada sal-deyir,
Qardaş, qurban olum, qisas al! –deyir.
Mərd igidi sevib-seçən bir gəlin,
Səadət şərbətin içən bir gəlin,
Toyundan səkkiz ay keçən bir gəlin:
-Geymişəm başıma qara şal-deyir,
Qardaş, qurban olum, qisas al! –deyir.
Pərişan telləri tökülüb yana,
Gör neçə balası şəhiddir, sana!
Əlləri qoynunda ağbirçək ana:
- Mənim bu dərdimi neydə çal!- deyir,
Qardaş qurban olum, qisas al! –deyir.
Əlləri urzalı, sayalı qızın,
Namuslu, qeyrətli, həyalı qızın,
Özü girov getdi, xəyalı qızın:
-Bizi düşmən edib şikəst, lal- deyir.
Qardaş qurban olum, qisas al! –deyir.
-Deyəsən yetişib axır zamanım,
Bir gün sağlığıma yoxdur gumanın.
Beləcə düşünən növrəst cavanın:
- Əsirlik saçımı etdi çal –deyir.
Qardaş qurban olum, qisas al! –deyir.
İti xəncər ilə oyulan gözlər,
Ağrıdan bərəlib soyulan gözlər,
Tökülüb ovuca qoyulan gözlər:

-Bizi düşmən edib şikəst, lal- deyir.
Qardaş qurban olum, qisas al! –deyir.
Silahlar önündə gedənimiz var,
Tikə, parça, başsız bədənimiz var,
Vətən adlı fəryad edənimiz var:
- Olsun oğullarım Rüstəm Zal! –deyir.
Qardaş qurban olum, qisas al! –deyir.
Qüvvət qollarına, vur, yorulmasın!
Alınmaz bir sərhəd qur, yorulmasın!
Sayıq keşiyində dur, yorulmasın!
Mirvari, Kəlbəcər:- Burda qal!-deyir.
Silaha sarılıb qisas al!–deyir.

26 fevral 1992

## AYAĞA QALXMALIYIQ

Basılan Vətənin haray səsindən,
Yurdumu dağıdan top nərəsindən,
Girov qız-gəlinin ah-naləsindən
Qəflət yuxusundan oyanmalıyıq!
Fürsət vermə düşmən özünü öyə,
Üç rəngli bayrağı ucaldıb göyə,
"Ölkəmə azadlıq, istiqlal"-deyə,
Yağıyla üz-üzə dayanmalıyıq!
Birgə qarşılayaq hər fəlakəti,
Anam Azərbaycan yaşasın təki!
Azad etmək üçün bu məmləkəti,
Şəhid qanımıza boyanmalıyıq!

1992 Kəlbəcər

## VƏTƏNİN HARAYI

“Şəbi-hicran...”-M.Füzuli

Ərşə qalxan ah-naləmdən övladlarım oyanmazmı?
Böyüdüb ərsə yetirdim, keşiyimdə dayanmazmı?!

❖

Torpağım od tutub yanır, girov gedir igidlərim,
Ana qəlbim qisas günün gözləməkdən usanmazmı?!

❖

Bəs deyilmi qucağımda saysız şəhid dəfn etdiyim?
Yol kəsib qan içən yağı, öz qanına boyanmazmı?!

❖

İxtiyar sahibi olub, doğma Vətən qarşısında,
Övladlıq borcun verməyən oğlum, qızım
utanmazmı?!

❖

Qalx ayağa, oğlum, qızım! Qanı qanla yuyam gərək!
Mirvari, bu dünya mənim haqq işimə inanmazmı?!

Avqust 1991

## HAQQIN YOXDUR

Neçə ki, torpağımız inləyir yad əllərdə,
Ağı, bayatı gəzir dodaqlarda, dillərdə,
Taleyimiz həll olur bizdən uzaq ellərdə...
Ahu –zarla qəlbləri dağlamağa haqqın yox!
Qisasını sabaha saxlamağa haqqın yox!
Səfərbər et özünü nizami ordu kimi!
Təpil düşmən səfinə türkün boz qurdu kimi!
Viranə qoy yurdunu elimin yurdu kimi!
Yas tutub başa qara bağlamağa haqqın yox!

Qisasını sabaha saxlamağa haqqın yox!
Ayağa qalx! Yağını yandırıb – yaxmalısan!
İldırıma çevrilib başında çaxmalısan!
Vətənin bayrağını Xankəndə taxmalısan!
Ayağa qalx millətim! Ağlamağa haqqın yox!
Qisasını sabaha saxlamağa haqqın yox!
Ayağa qalx millətim!
Sona yetsin zillətim!

3 dekabr 1996, Lissabon Sammiti keçirilərkən

## ƏDALƏT DİVANI

Girmişdi yuxuma anam Kəlbəcər!...
Sal qayalar əzəmətlə dururdu...
Çən-duman bürünən vüqarlı dağlar
Üzüdönüklüyü üzə vururdu...
Lal-dinməz axırdı Ceyran bulağı,
Üzümə baxmırdı Qoçdaş yaylağı,
Dartıb ətəyimdən ardıc budağı:
-"Ayrılığa səbəb nədir?" –sorurdu...
Bağışlamaz! Olsa hər kim Kəlbəcər!
Öz cəzamdır gərək çəkim, Kəlbəcər!
Mirvari müttəhim, hakim Kəlbəcər!
Övladına haqq divanı qururdu...

6 sentyabr 1998

## ƏSİRLİKDƏ DOĞULAN UŞAQ

Kəlbəcərdən girov getmiş hamilə bir gəlinin Xankəndində oğlu oldu...Adını Murad qoydu...

Əsir tək doğuldu, qismətinə bax!

Göz açdı, gördüyü yağılar oldu.
Hərbi düşərgələr, məhbəs beşiyi,
Laylası qəlb didən ağılar oldu.
Uyuya bilmədi, tez-tez yuxudan
Oyandı, diksindi güllə səsinə,
Gözləri anasın axtaran zaman
Nəfəsi toxundu yad nəfəsinə.
Təhlükəli sanıb türk balasının,
Keşiyin çəkirlər körpə yaşında.
Silahlı əsgərin yerində indi,
Ata durmalıydı beşik başında.
Onun bu dünyaya gəlişi üçün,
O gün, muştuluğa gedəsiydilər,
Gözaydınlığına gəlib qonşular,
Bir qoçu qurbanlıq kəsəsiydilər.
Təbiət əzəldən belə yaranıb...
Ay axşamlar, Günəş səhər doğulur...
Tanrının hökmüdür, bilir yağılar,
Türk oğlu anadan əsgər doğulur!

Avqust 1993, Bakı ş.

## BU GÜN QEYRƏT DƏMİDİR

Vətən haray çəkmir, niyə karsınız?
Ölü canlarmısız, yoxsa varsınız?
Oyanın, ölkəni paralarsınız,
Azərbaycan suda batan gəmidi.
Ər igidlər, bu gün qeyrət dəmidi!
Toplar guruldayır, tanklar dillənir,
Açılan güllələr qəlbə millənir,

Şəhərlərə raket gözlər zillənir.
Qarabağım dolu döymüş zəmidi.
Ər igidlər, bu gün qeyrət dəmidi!
Namus tapdalanır, gözlər oyulur,
Qürur alçaldılır, bədən soyulur,
Satılır, hərraca sərvət qoyulur,
Dil açan qəlbimin ağır qəmidi.
Ər igidlər, bu gün qeyrət dəmidi!
Hanı ölkəmizin ər oğulları!
Düşmənlə çarpışan nər oğulları!
Qanun kimin bilsin hər oğuları!
Qeyri yol yox, qisas almaq çəmidi!
Ər igidlər, bu gün qeyrət dəmidi!
Vuran oğul qeyri kömək gəzləməz!
Vuruş vaxtı dil lal olar, söz deməz!
Şəhid xalqa rəhbər oğlu:- ”döz” -deməz!
Deyər: -“Haydı, səfərbərlik dəmidi!”
Ər igidlər, bu gün qeyrət dəmidi!

May 1992

## ƏSİRLƏRİN HARAYI

Əsirlik yamanmış, ağardı tellər,
Növcavan yaşında əyildi belllər,
Aparsın səsimi bu əsən yellər,
Silahlan anamın hünərvər oğlu!
Gəl, ey xilaskarım Kəlbəcər oğlu!
Rəhm üçün uzanan ələ yetişin!
Neçə ki, can qalıb hələ, yetişin!
Artıq son nəfəsə dilə yetişin!

Elimin, obamın kişi ər oğlu!
Gəl, ey xilaskarım Kəlbəcər oğlu!
Gəl qardaş! İnləyən qız-gəlinə bax!
Yağının başında ildırım ol, çax!
Xankəndə Vətənin bayrağını tax!
Görsünlər xalqımın var əsgər oğlu!
Gəl, ey xilaskarım Kəlbəcər oğlu!

Dekabr 1993

## KƏLBƏCƏRİN HARAYI

Ehey, igidlərim! Qarı düşmənə
Yalqız sinə gərrəm. eşidirsiniz?..
Yadların başına dağlarda çaxan,
İldırımdır nərəm, eşidirsiniz?.
Gəlin, xilas edin dərəni, dağı!
Qovun, qucağımda qalmasın yağı.
İndi arxanızca salıb sorağı,
Yellərdən göndərrəm, eşidirsiniz?..
Ey oğlum! Ey qızım! Silaha sarın!
Azğın düşmənlərin səddini yarın!
Satılan torpağı geri qaytarın,
Qalmsın bir zərrəm, eşidirsiniz?..

May 1993

## GƏLİNLƏR OĞUL DOĞURDU

1990-cı ilin 20 yanvar gecəsi Bakıdakı doğum evində doğulan uşaqların hamisi oğlan idi.

Hayqırıb qəflətdən oyanan xalqın,

Silahsız önündə dayanan xalqın,
Şəhidlər qanına boyanan xalqın,
İmperiya haqq səsini boğurdu...
O gecə gəlinlər oğul doğurdu!
Əliyalın yolda dayananları,
Səs-küyə yuxudan oyananları,
Küçələrdə qana boyananları
Zirehlər torpağa qatıb yoğurdu...
O gecə gəlinlər oğul doğurdu!
İgidləri oda yaxdilar, Allah!
Nizəyə, süngüyə taxdılar, Allah!
Xəzər sularında axdılar, Allah!
Bu təcavüz qəzəb, nifrət doğurdu...
O gecə gəlinlər oğul doğurdu!
Azadlıq dil açdı, diləyimizdə,
Müstəqillik sevən ürəyimizdə,
Aslan gücü duyduq biləyimizdə,
Qazanılmış bu ilk zəfər, uğurdu...
O gecə gəlinlər oğul doğurdu!

20 avqust 1990, Kəlbəcər ş.

## HAYDI, BAYRAQ ALTINA

Azad gələcəyə yürüyə bilsək,
Mətin addımlarla yeriyə bilsək,
Müstəqilliyini qoruya bilsək,
Vətən şübhə etməz, olmaz gumanı,
Bir bayraq altında birləşsə hamı!
Hayqırıb qəflətdən ayağa dursaq,
Zərbəni birlikdə hədəfə vursaq,

Sərhəddə yenilməz qalalar qursaq,
Dağılar yurdumun çəni, dumanı,
Bir bayraq altında birləşsə hamı!
Tufanları yarar ellər bir olsa,
Dünyanı mat qoyar dillər bir olsa,
Silaha sarılan əllər bir olsa
Təslim olub yağı istər amanı,
Bir bayraq altında birləşsə hamı!
Torpaq çiçəklənər, bağlar gül açar,
Taxıl zəmiləri tər sünbül açar,
Körpəmiz böyüyər ayaq, dil açar,
Xalqımın xoş geçər ili, zamanı,
Bir bayraq altında birləşsə hamı!
O gün al-qırmızı geyinər Vətən!
Oğlu, qızı ilə öyünər Vətən!
Qəlblər iftixarla döyünər, Vətən!
Dinər telli sazı, tarı, kamanı,
Bir bayraq altında birləşsə hamı!

1 dekabr 1994

## GƏLİN

Haydi, igidlərim! Ana torpağı
Yağının əlindən almağa gəlin!
Ceyran bulağında, Alagöllərdə
Qələbə marşını çalmağa gəlin!
Təbiət oyansın gəlişinizdən,
Obalar canlansın şən səsinizdən,
Ocaqlar od alsın nəfəsinizdən,
Bu dilbər guşədə qalmağa gəlin!
Mirvari, didərgin elləri çağır!

Hay salıb nəğməkar dilləri çağır!
Saraylar ucaldan əlləri çağır!
Kəlbəcərdə şəhər salmağa gəlin!

Aprel 1994

## İLLƏR UZANDI

Ermənilərin Qarakənddə vurduqları vertalyotda ölkəmizin dövlər rəhbərləri həlak oldu...

Qalx Babək! Sıyrılsın qılıncın qından!
Ölkəmizə namərd əllər uzandı.
Səfərbərlik etsin oğuz elləri,
Üstümüzə hərzə dillər uzandı.
Fərmanlar tapdandı, qanun pozuldu,
Dəlillər gizləndi, faktlar yozuldu,
Düşmənimiz artdı, biri yüz oldu,
Cığır saldı qanlı sellər uzandı.
Xalqı xilas edən sərkərdəmiz yox,
Torpağını satan namərdimiz çox,
Qeyrətli igidlər itirildi, ox!
Haqq görən gözlərə millər uzandı.
Qara geydi Vətən adlı anam, oy!
Dərd əlindən korun-korun yanam, oy!
Söhbət açıb hansı birin anam, oy!
Şəhid qəbirlərə güllər uzandı.
İgidləri əsir aldı, qoyma gəl!
Elimizi dərdə saldı, qoyma gəl!
Yağılarda qisas qaldı, qoyma gəl!
Qara geymiş aylar, illər uzandı.

21 noyabar 1991, Kəlbəcər ş.

## VAR MƏNİM

Qari düşmən, talasan da varımı,
Vətən eşqim, məhəbbətim var mənim.
Qaçqın düşüb ayrılsam da dağlardan,
O torpağa sədaqətim var mənim.
Sən ey ağlım, gücüm, duyğum irəli!
Səfərbər et silah götürən əli!
Qoy olsun bu ilim qələbə ili,
Qoparacaq qiyamətim var mənim.
Dönəcək Mirvari yurdda qalmağa,
Dəli dağda şanlı zəfər çalmağa,
"Qana-qan!" – hayqırıb, qisas almağa,
Yenilməyən cəsarətim var mənim.

Aprel 1997

## YENƏ O DAĞ OLAYDI

"Yenə o bağ olaydı..."-M.Müşfiqə nəzirə

Yenə o dağ olaydı...
Nərgiz, bənövşə ətri
Köksümüzə dolaydı...
Yenə bir yaz səhəri
Yəhərləyib köhləni,
Haray-həçir salaydıq,
Köçmək üçün yaylağa
Eli haraylayaydıq...
Yenə o dağ olaydı...
Dəli dağdan əsən meh
Saçımızı yolaydı...
Yenə bir axşam çağı

Dağdan enən sürünün
Qayğısına qalaydıq,
Gəzib qumral quzunu,
Kəndi soraqlayaydıq...
Yenə o dağ olaydı...
Telli saz ixtiyarı
Əlimizdən alaydı...
Yenə dastan gecəsi
Aşıq Qəmkeşlə birgə
Xəyallara dalaydıq,
Dindirib ürəkləri,
Könül varaqlayaydıq...
Yenə o dağ olaydı...
Yarın görüb şaşıran
Qız örpəyin salaydı...
Yenə bir payız günü
Yığışıb iməcliyə
Şaqraq ninni çalaydıq,
Bir qız cehizi üçün
Yunu daraqlayaydıq...
Yenə o dağ olaydı...
Biçinçilər Tozluqda
Vərdən naxış salaydı...
Yenə verib səs-səsə
Atla xotma çəkənlər
Bir-birdən güc alaydı,
Taya quran gənclərin
Şən səsi ucalaydı...
Yenə o dağ olaydı...

Pencər yığan qızların
Ətəkləri dolaydı...
Yenə yaylaq vədəsi
Qazxannıya, Kurqana
Köçhaköç başlayaydı,
Qız seçən oğlan yolun
Uzunyaldan salaydı...
Yenə o dağ olaydı...
Atam doğma yurduma
Şirin nəğmə qoşaydı...
Yenə ilk bahar günü
Gendərəyə səs salan
Sellər coşub-daşaydı,
Fərəhlənib Tərtərçay
Məcrasını aşaydı...
Yenə o dağ olaydı...
Bir sabah gözümüzü
Kəlbəcərdə açaydıq...
Zəfər günü sevincdən
Ayaqyalın, başaçıq
Kənddən-kəndə qaçaydıq,
Yurda dönən qonşunu,
Qohumları qucaydıq...
Arzular yığın-yığın...
Ürəyimdə yeri var
Hər qayanın, hər dağın.
Yurdumuzda Mirvari
Dalğalanan görəydim
Azərbaycan bayrağın!

Deyəydim: - Nə gözəldir,
Kəlbəcərim, bu çağın!

Noyabr 1995

## İNDİ

Övladlaım, harayıma
Silahlanıb gəlin indi!
Tük ürpərdən nərənizlə
Dağı-daşı dəlin indi!

Yada salın fəryad səsin,
Girovların ah-naləsin,
Rəhm etməyib kökdən kəsin
Yağıların əlin indi!

Əsir yurdam qarlı dağlı,
Sizə gələn yolum bağlı,
Qəlbim yara, sinəm dağlı,
Nə çəkirəm bilin indi!

Ər igidləri soraqla,
Silahlanın hər yaraqla,
Gəlib üç rəngli bayraqla
Göz yaşımı silin indi!

Yurda dönən köç düzülsün,
Gözlərdən sevinc süzülsün,
Kəlbəcərdə üzü gülsün
Ayın, günün, ilin indi!

## ARZU

Qəlb yaman atlandı, bahar fəslidir,
Durub o dağlara getməyim gəlir.
Səs verib quşların nəğmə səsinə

Güllü baxçamızda ötməyim gəlir.
Tozluqda bələnib gülə, çiçəyə,
Çökəkdə düşəydim çənə, çisəyə,
Dönüb boynubükük qan bənövşəyə,
Girib kol dibində itməyim gəlir.
Mirvari, azaydım qatı dümanda,
Bir cığır tapmağım şəkdə, gümanda,
Dağlardan uzaqda olan zamanda
Belə bir arzuya yetməyim gəlir. Mart 1996

## GÖZÜMDƏ

Dikpilləkən, Sarıbulaq, Alagöl,
Adlanan bir nağıl qalıb sözümdə...
Kəhər atla yarışa çıxdığım çöl
Çəkilməyir, heykəl olub gözümdə...
Adlandığım gündən qaçqın, didərgin,
Ürəyimdə tüğyan edir nalə-ün,
Elə tablaşıram dərdimə bu gün
Qəlbim sanki Dəlidağdı dözümdə.
Yaşayıram baxça-bağlardan ayrı,
Saz-söhbətli ötən çağlardan ayrı,
Mirvari, düşsəm də dağlardan ayrı,
Kəlbəcərim yaşar mənim özümdə.
Dekabr, 1995

## BACI NİYƏ AĞLAMASIN

Şair M.Arazın:-“Ağlama, bacım, ağlama!”-şerini dinləyərkən.

Qardaş əgər qorumursa,
Bacı niyə ağlamasın?!
Qırğınlara göz yumursa,

Bacı niyə ağlamasın?!
Talan olsa elin varı,
Yadlar yesə ilk nübarı,
Qəfil itkin düşsə yarı,
Bacı niyə ağlamasın?!
Sağ-solunu düşmən alsa,
Körpəsini yolda salsa,
Namərd əldə girov qalsa,
Bacı niyə ağlamasın?!
Divan tutduqca qansızlar,
İşgəncədən ürək sızlar.
Ağlayarlar arxasızlar,
Bacı niyə ağlamasın?!
Yağıların səddin yarar,
Cəsur qardaş bacı arar,
Sevincdən də göz yaşarar,
Bacı niyə ağlamasın?!

## ALLAHDAN ARZUM

Kaş yolum düşəydi yenə dağlara...
Çiçək dənizində itəydim, Allah!
Moruqlu dərədən, Çatımdan keçib,
Cüyürlü meşədən ötəydim, Allah!
Təbiət qoynunda yalqız olaydım,
Keytinin başında sal buz olaydım,
Təzəcə göyərən yarpız olaydım,
Göylü bulaq üstə bitəydim, Allah!
Mirvari, Tərtərçay nəğmə deyəndə,

Zirinc kolu bardan başın əyəndə,
Bağırxan güllərdən libas geyəndə
Mən də tamaşaya yetəydim, Allah!

Mart 1996

## GÖZLƏSİN

Biz dönüb o yurda qayıdacağıq,
Dağlar cığır salsın, duman gözləsin!
Qıvrıla-qıvrıla çıxsın yollara
Çay göz-qulaq olsun, ümman gözləsin!
İgid oğlu-qızı silahlanacaq,
Özünü müsəlləh əsgər sanacaq,
Yollarında məşəl olub yanacaq,
Qəlbinə gəlməsin güman, gözləsin!...
Mirvari, qeydinə qalan gələcək!
Torpağın qisasın alan gələcək!
O dağlarda zəfər çalan gələcək!
Bizdən Vətən borcun uman gözləsin!...

Avqust 1996

## SƏNİN DEYİLMİ

Yad elə üz tutan ay Vətən oğlu!
Talanan kənd, şəhər, sənin deyilmi?!
Qanlı faciələr görən xalqımın
Qəlbindəki qəhər sənin deyilmi?!
Ağı, bayatılar gəzir dillərdə,
Ağ rəngə boyanıb qara tellər də.
Xaraba, viranə qalan ellərdə
Zülmət çökən səhər sənin deyilmi?!
Əlimiz üzülüb arandan, dağdan,

Hər il çal-çağırlı keçən növrağdan,
Cəfa çəkdiyimiz bağçadan, bağdan
Dərilən bar, bəhər sənin deyilmi?!

Bükülüb, qalmayıb taqət dizində,
Göz yaşları cığır salıb üzündə,
Qaçqınlar çadırda, çölün düzündə
Dolanır birtəhər, sənin deyilmi?!

Vətənlə şəkməsən harayı, ünü,
Necə çevirərsən yurda üzünü?
Dağlıq Qarabağda qələbə günü
Çalınacaq zəfər sənin deyilmi?!

Sentyabr 1996

## DURURMU

Murovdağa növbəti əməliyyata gedən qardaşım Qismətə

Qardaşım, gedirsən Murov dağına,
Boylan Kəlbəcərə sarı, dururmu?
Üzümüzə həsrət qalan dağların
Dumanı, çiskini, qarı dururmu?

Çiçək məskəniydi Aralıq üzü,
Qonaqpərvər idi Taxtanın düzü,
Yüzbulaq adlanan bulağın yüzü,
Güldən-gülə qonan arı dururmu?

Yaşadığı kəndi yağılar alan,
Qocalıq, xəstəlik taqətdən salan,
Arxasız, oğulsuz obada qalan
Nağıyla Sitarə qarı dururmu?

Ağı, bayatıyla hörüb köksünü,
Ərşə ucalmışdı naləsi, ünü,
Tarpağından elim ayrılan günü

Yadındamı ahu-zarı, dururmu?
Yol düşə, Mirvari quca dağların,
Vurğunu olduğu uca dağların,
Müsibətlər çəkmiş qoca dağların
Sarsılmaz vüqarı barı, dururmu?

May 1996

## GİROVLARIN SORAĞI

Hardasan vətən oğlu?
Yolunda gözlər qalıb.
Son anda deyiləsi
Dodaqda sözlər qalıb.
Ayrılıb doğma eldən,
Kəməri düşüb beldən,
Soraq göndərdik yeldən,
Taqətsiz dizlər qalıb.
Qırışıb gül buxaqlar,
Çatlayıb bal dodaqlar,
Bozarıb al yanaqlar,
Soluxmuş üzlər qalıb.
Girovlar gözü nəmli,
Çöhrəsi dərdli-qəmli,
Ürəkləri sitəmli
Elə hey sızlar, qalıb.
Silahlan! Haraya qaç!
Nura çevril, işıq saç!
Qarabağa gəl, yol aç!
Ot basmış izlər qalıb.

Noyabr 1996

## NƏ GÖZƏL İMİŞ

Dəlidağda, çən-dumanda
Azmağım nə gözəl imiş...
İlham alıb təbiətdən
Yazmağım nə gözəl imiş...

Daşa ilişən tilovum,
Əli incidən cilovum,
Anam bişirən plovum,
Qazmağım nə gözəl imiş...

Mirvarinin bal alması,
Barmağın arı çalması,
Bel götürüb yeralması
Qazmağım nə gözəl imiş...

Mart 1997

## İMTAHAN

Dayanmışam möhtəşəm
Bir binanın önündə,
Mənim üçün önəmli,
Məsuliyyətli gündə.
Hissim, duyğum səfərbər,
Qəlbim həyacandadır,
İndi bu an, bu saat
Oğlum imtahandadır...

On il aldığı dərsə
Bu gün yekun vurulur,
Sual-sual, testbətest
Cavabları sorulur...
Hər bir fəndən ayrıca
Hesabat verir bu an,

Necə mənimsədiyin
Göstərəcəkdir zaman...

Məni də ana kimi
Bir imtahan gözləyir
Həm şərəfli, həm çətin
İlk sınağa səsləyir.
Sanki qəlbim duracaq
Duyduğu həyəcandan,
Böyütdüyüm oğulçün
Keçəcəm imtahandan...

Gözü dostu düşməndən
Asanca seçməlidir,
Yurd üçün, Vətən üçün
Canından keçməlidir.
Qeyrətli olduğuna
Əmin olsa Vətənim,
Qisas aldığın görsə
Deyəcək: - Oğlum mənim!

Ana, oğul...İkimiz
Zamanın sınağında,
O müəllimin, mən isə
Vətənin qabağında...
Bu qarışıq zamanda
Keçə biləcəyikmi
Həyat burulğanından?!
Alnı açıq, üzü ağ
Çıxa biləcəyikmi
Bu çətin imtahandan?!...

12 avqust 1997

## GERİ DÖNÜN

Gedənləri Murov, çağır, harayla!
Qaçqın elim geri dönsün, amandı!
Yağılar tapdayan yurd yerlərində,
Qoymayın ocaqlar sönsün, amandı!
Arayıram bala gəzən ana tək,
Viranə məhlələr mənə göz dağı,
Nə qədər dağ gəzsən yerini verməz,
Hər bir kəsə əziz olur öz dağı.
Arxanızca fəryad edən Kəlbəcər,
Qucağını geniş açıb: - Gəl!-deyir,
- Övlad olan ana haqqın itirməz,
Geri dönüb göz yaşımı sil!–deyir. 09- 1997

## OXU GÖZƏL

Kəlbəcərli Aşıq Gözəl "Satıtel" verilişində oxuyurdu...

Oxu Gözəl! Yellər alıb aparsın,
Əsir düşmüş bizim elə səsini.
Ucaldıqca pərdə-pərdə "Sarıtel"
Qovuşdursun daşqın selə səsini.
Aşsın Murov dağı yamac boyunca,
Dolansın dağları könlü doyunca.
Mehlə birgə doğma nəfəs duyunca
Kəlbəcər tanıya, bilə səsini.
Avazın quşları göydə əyləsin,
Şad xəbəri bülbül gülə söyləsin,
Durna qatarını yoldan eyləsin,
Sən çəkdikcə bəmdən zilə səsini.
Çıxsın kol dibindən bənövşə, gülsün,

Yaylaq cana gəlsin, göy meşə gülsün,
Nərgizlər yaraşır o döşə, gülsün,
Şeh tək gül-çiçəyə çilə səsini.
“Cəngi” çal! Didərgin el yaraqlansın!
Silaha sarılsın, əl yaraqlansın!
Zəfər ili olsun il yaraqlansın!
Mirvari dil qatsın dilə, səsini.

7 mart 1998

## QİSAS ALINCA

Qisas qalıb yağılarda,
İl ötüşür il dalınca.
Yuxu getmir gözlərimə,
Baş qoymuram ki, balınca.
O keçən xoş günü anır,
Fikrim dağ-daşı dolanır,
Qəlb sızlayır, ürək yanır,
Xəyallara hey dalınca.
Ot basdıqca izimizi,
Qəribsəyir dağ nərgizi.
Bağışlamaz Vətən bizi,
Əsirlikdə yurd qalınca.
Sevinc, şadlıq nədir bilməz,
Gözdən axan yaşın silməz,
Kəlbəcərin üzü gülməz,
Biz dağlara yol salınca.
Mirvari, bitəcək nalan,
Silahlansa doğma balan,
Düşmən yurdun edib talan,
Qisasa qisas alınca.

9 sentyabr 1998

## DANIŞ BACIM

İstedadlı jurnalist Kifayət Umud qızı Kəlbəcər radiosu ilə danışarkən...

Danış bacım! Səsin gəlsin efirdən!
Hər gün bizə xeyir xəbər söylə sən!
Gün o gün olsun ki, bu dalğalardan,
Qələbə soraqlı müjdə verəsən.
İgidlər səfərbər olduğu gündən,
Mərdliklə sərhəddə durduğun danış!
Dağlarda keşikçi məntəqələrin
Alınmaz qala tək qurduğun danış!
"Danışır Kəlbəcər!"- Danış, qoy səsin
İstiqlal marşı tək qəlbimə axsın!
Gülləyə, mərmiyə dönüb yağının
Qəfil ildırım tək başında çaxsın! 1992

## DAĞLAR

İlk Beynəlxalq Muğam müabiqəsinin qalibi Babək Niftəliyevə

Məhəbbət nəğməsi oxu, qoy bəlkə
Eşidə Murovdan o yana dağlar.
Kədərli üzündən duman dağıla,
Möhnət yuxusundan oyana dağlar.
Buz bağlayan Göylü bulaq çağlaya,
Sevincdən Bədirbəy, Keyti ağlaya,
Təzə-tər güllərdən dəstə bağlaya,
Əzəlki rənginə boyana dağlar.
Mirvari, inanıb məhəbbətinə,
Qızınsın qəlbinin hərarətinə.

Arxalanıb övlad sədaqətinə
Düşmənin önündə dayana dağlar.

17 yanvar 1999

## YALVARIM

Dönə-dönə əsir düşmüş kəndinə baş çəkən igid kəşfiyatçı Dilqəm Əsgərovun dilindən...

Bağışlar, dağların dağ ürəyi var!
Diz çöküb önündə belə, yalvarım...
Könlünü almağa tər çiçəklərin
Üz tutub çəmənə, çölə yalvarım...
Eytiyatla gəzim dərəni, dağı,
Dindirim astaca gülü, yarpağı,
Qucaqlayıb öpüm ana torpağı,
Axan daşqın çaya, selə yalvarım...
Qonağı gəlməyən çaşqın bulağa,
Sürəkçisi susmuş tanış ovlağa,
Alaçıqsız, elsiz qalan yaylağa,
Sonası perikən gölə yalvarım...
İsladım özümü çəndə bir hovur,
Həsrət gözlərimdə yaş-yaşı qovur...
-Alıb çiçəkləri başıma sovur!-
Deyib küləklərə, yelə yalvarım...
Əsir düşübsə də, qəddin əyməyib,
Yenə laləzardı, qara geyməyib.
Dağlar pay saxlayıb, qara dəyməyib,
Dilqəm, xəbərin ver elə, yalvarım.

Avqust 1999

## NƏ GÜNAHI VAR

Ayrılıq, həsrət ağladır,
Gözümün nə günahı var?!
Yaş qarsıdıb saraldıbdı,
Üzümün nə günahı var?!
Dərdim dağlardan ağırdı,
Könlüm həmdəmin çağırdı,
Harayımdan qəm yağırdı,
Sözümün nə günahı var?!
İtib əzmim, dəyanətim,
Sarsılıbdı mətanətim,
Bitib, tükənib taqətim,
Dözümün nə günahı var?!
Ömür mülkümdü sökülür,
Xəzələ dönüb tökülür,
Artıq qəddim də bükülür,
Dizimin nə günahı var?!
Mirvari, nə qiyamətdi?
Ömür ki, var əmanətdi.
Tanrı verdiyi qismətdi,
Özümün nə günahı var?!

21 mart 1999

## ƏDALƏT "KƏRƏMİ" ÇALDI

Ədalət Dəlidağlıya...

Səs aldı ruhumu, uçdu dağlara.
Bir anlıq qaytardı əzəl çağlara,
Məni mehman etdi güllü bağlara,
Hər tərəf elə bil Cənnət qoxudu...
Nə vaxt ki, Ədalət çaldı, oxudu...
Sazlı-sözlü qonaq gəldi bulağa,

Alaçıqlar bəzək vurdu yaylağa,
Sürəkçinin səsi düşdü ovlağa,
Gördüyüm mənzərə şirin yuxudu?
Yox, dəsən Ədalət çaldı, oxudu...
Mirvari, qəlbimi hicran dağladı,
Həsrət gözlərimdən sellər çağladı,
Kəlbəcərim fəryad edib ağladı,
Elə ki, mizrabı simə toxudu...
Ədalət "Kərəmi" çaldı, oxudu...

26 aprel 2000

## KƏLBƏCƏR

Dağlardan arana endiyim gündən,
Didərgin adlandım özüm, Kəlbəcər!
İsti yuvasından perikmiş quşam,
Sənsiz qan ağlayır gözüm, Kəlbəcər!
Məlhəm etsin dərdə Çiçəkli dağım,
Yanıram, su versin Ceyran bulağım,
Ayrı düşən gündən Qoçdaş yaylağım,
Tükənib qəlbimdə dözüm, Kəlbəcər!
Fəryad et, ayağa qaldır aləmi!
Coşsun Dəli dağın dumanı, çəni,
Tərtəri göndərib soraqla məni,
Qoyma ümidimi üzüm, Kəlbəcər!
Ölsəm, məzar üçün yer əsirgəmə!
Cənnət qucağından ver, əsirgəmə!
Mirvariyə rəva gör, əsirgəmə!
Düşsün torpağına üzüm, Kəlbəcər!
A dağ yeli, al məni!
Dərd əlindən çal məni!

Ana yurda sal məni!
Çevrilim boz qurda mən,
Həyan olum yurda mən.

9 may 2000

## ELLİ ÇAĞLARI

Qardaşım Hikmətə

Qardaşım, yadına düşürmü hərdən,
Dağların ətirli, güllü çağları?
Səs-küyü dərənin bağrını yaran
Çayların daşqınlı, selli çağları?
Yaylağın çiskinə büründüyü an,
Dumanın ayağa süründüyü an,
Qartalın zirvədə göründüyü an,
Gədiyin dəlisov yelli çağları?
Lilpar gizlətdiyi bulaq gözəldi!
Marığa yatdığın ovlaq gözəldi!
Mirvari, yurd yeri, yaylaq gözəldi!
Anam Kəlbəcərin elli çağları.

27 yanvar 2001

## GÖZÜN AYDIN, AZƏRBAYCAN

Dünya Azərbaycanlılarının I qurultayı ərəfəsində

Təyyarələr bir-birinin
Ardınca enir limana...
Niskilli ürəklər dönür
Təlatümlü bir ümmana.
Qucaq açıb Odlar yurdu
Övladına həsrət ana,

Qəlbində sevgi, həyəcan...
Gözün aydın, Azərbaycan!
Qəribləri Vətəninə
Qovuşduran ilə alqış!
Bir bayrağın kölgəsində
Verirlər əl-ələ, alqış!
Yadellilər tərcümansız
Danışırlar, dilə alqış!
Can söyləyən eşidir can...
Gözün aydın, Azərbaycan!
Dar günündə harayına
İgid oğlun, qızın gəlib.
Hər beynəlxalq təşkilatda
Keçəcək düz sözün, gəlib.
Problemləri bir yerdə
Həll eyləyib çözün, gəlib.
Çox gözlədin bu çağacan...
Gözün aydın, Azərbaycan!
İlk qurultayın mübarək!
Gedişi uğurlu olsun!
Vətənimdə zəmanənin
Gərdişi uğurlu olsun!
Azəri diasporunun
Hər işi uğurlu olsun!
Yaşasın dünya durduqcan!
Gözün aydın, Azərbaycan!
Ölkəmə arxa gəlibdi,
Torpaqdan yağı çəkilsin!
Azadlığa çıxsın yurdun

Dərəsi, dağı, çəkilsin!
Şən nəğmələr oxuyacaq,
Dilimdən ağı çəkilsin!
Sən hay de, Mirvarin, haycan,
Gözün aydın, Azərbaycan! 9 -11- 2001

## ALİ BAŞ KOMANDANA SALAM

Heydər baba! Vətən haray salanda,
Göylərini qara bulud alanda,
Yurdumuz rəhbərsiz, başsız qalanda,
El silkindi, igid ərlər doğurdu,
Mayasın qeyrətdən tutdu, yoğurdu.
Heydər baba! Meydanlara atıldıq,
Qoca-gəncə, qız-oğlana qatıldıq,
Əllər-ələ, qollar-qola çatıldıq,
Dağlarda keşikçi postu qurmuşduq,
Yağılara sipər olub durmuşduq.
Coşan cəsarəti silah eyləyib,
Eşqi, məhəbbəti silah eyləyib,
Yurda sədaqəti silah eyləyib
Çiynimizə odlu yaraq salmışdıq.
Hər kəndə, şəhərə soraq salmışdıq.
Şuşa Qarabağda mayağa döndü,
Laçın Kəlbəcərə dayağa döndü,
Şəhidlərin qanı bayrağa döndü,
Sən demə hər igid bir boz qurduymuş.
Canımızdan əziz olan yurduymuş.
Əskipara kimi yandı qəlbimiz,

Gah Kərki, Nüvədi andı qəlbimiz,
Sədərəyi arxa sandı qəlbimiz,
Gədəbəydən tutmuş Zəngilanacan
Hamı can söylədi, can Azərbaycan!
Yolumuz bağlandı, təzə yol saldıq,
Sönən ocaqlara qəlbdən od aldıq,
Ac qalanda dağın otunu çaldıq,
Yaramıza torpaq qoyub bağladıq.
Mətin durduq, düşmən gözü dağladıq.
Xocalının dərdi dağdan ağırdı,
Dolu tək üstünə mərmi yağırdı,
Oğuz ellərini haya çağırdı,
Ərşə ucalanda amanlar, ahlar,
Rəhbər vicdanı tək susdu silahlar.
Tərlan oylağında sar nə gəzirdi?
Bəy oldu gədələr, ar nə gəzirdi?
Talanmışdı dövlət, var nə gəzirdi?
El malını yeyib satqın çıxdılar.
Yaman yerdə evimizi yıxdılar.
Təklənmişdik, tanklar gəldi güc oldu,
Bir qan üçün yüz qan aldıq, öc oldu.
Siyasətdən baş çıxartmaq gec oldu.
Ər igidlər qalxan üstə döndülər,
Viran qaldı neçə ocaq, söndülər.
İgidlərin adı dillərdə qaldı,
Şəhid cəsədləri çöllərdə qaldı,
Həyalı gözəllər əllərdə qaldı,
“Əsgər ol, gəl məni əldən al!”-dedi,
-Qarabağa yol aç, zəfər çal!”-dedi.

Laçın getdi, ruh qalmadı bədəndə,
Füzuli, Qubadlı əldən gedəndə,
Yağılar Şuşada bayram edəndə,
Nər igidlər dərd şəhidi oldular.
Dözmədilər, xəcalətdən öldülər.
Uzun illər zəhmət çəkdik, heç oldu,
Doğrulmadı, ümidimiz puç oldu,
Xəyanətdən qürbət elə köç oldu,
Dağ idik, aranda təpələnmişik,
Bir elik, yüz elə səpələnmişik.
"Kimə üz çevirək?"-düşündü hərə!
Ölçdülər, biçdilər azı yüz kərə.
Ümidlər bağlandı yalnız Heydərə!
Onu Yaradanım bəxş edib bizə
Ki, Vətən gecədən çıxsın gündüzə.
Bayraqlar səfində bayrağı dursun!
İmzalar yanında imzasın vursun!
Demokratik ruhda dövləti qursun!
Yox olsun şübhələr, ötsün həyacan,
Şərqdən doğsun günəş tək Azərbaycan!
Acizlikdən gözlər yaşla dolmasın,
İşsiz qalan əllər saçın yolmasın,
Vətənimdə dərd şəhidi olmasın,
Yurd şəhidi olmaq daha yaxşıdı.
İgid üçün bu ad ömrün naxşıdı.
Heydər baba! Dərdlər yara bağladı,
Cavan qız-gəlinlər qara bağladı.
Vətənin nicatı Qarabağladı,
"Səfərbərlik" adlı fərmana qol çək!

Xoşbəxt gələcəyə körpü sal, yol çək!
"Hay!" denən! milyonlar "Bəli" deyərik!
Uzanar silaha əli, deyərik!
Hər kəsə Koroğlu, dəli deyərik!
Ali Baş Komandan! Atəş əmri ver!
Tükənibdir xalqımızın səbri, ver!
Ali Baş Komandan! Atəş əmri ver!

12 mart 2001

## BAYATILAR

Əy olmaz...
Şah budağı əy olmaz.
Qoysan icra başçısı
Gədələrdən bəy olmaz!

Gündüzmü, gecə, oğlan?!
Ötüşür necə oğlan?
Qız-gəlin yad əllərdə,
Almırsan vecə, oğlan!

Tutqun olar...
Daşqın çay tutqun olar.
Əsgərdən rüşvət alan
Komandir satqın olar...

Gözlərim yaşdı, qardaş!
Ağlım da çaşdı, qardaş!
Harayım sənə çatmır,
Ürəyin daşdı, qardaş?

Murovdan bir ov gedər,
Sürək elə, qov, gedər.
Qorxaq oğul böyüdən
Analar girov gedər.

Hamı işdən yan ötər,
Dərd varmı bundan betər?
Parlamentdə vəkillər,
Çəkişdiyiniz yetər!

Gedirəm, yoldaş gəlsin!
Dərdim var, sirdaş gəlsin!
Yağılar əlindəyəm,
Xilaskar qardaş gəlsin!

Kəndlər işğal olmasın!
Tanklar yollar salmasın!
Şəhidlərin qisası,
Qiyamətə qalmasın!

27 fevral 1992

## BAYATILAR

Kəlbəcərə...
Yol düşmür Kəlbəcərə.
Yurd azad olmalıdır,
Gəl dönəlim Həcərə!

Murova...
Qar yağıbdır Murova.
Yağı ovdur, biz ovçu,
Qalxın çıxaq bir ova!

Tərtərim...
Haraylayır Tərtərim...
Səfərbər et gücünü,
Gəl, ey igidim, ərim!

Aydoğanda...
Görüşək Aydoğanda!
Gəl düşmən səddin yaraq,
Gün batıb, Ay doğanda!

Mansıra...
Lilparı sıra-sıra.
Dağlar əsir düşəndən,
Bağlayıbdır sırsıra.

Çiçəkliyə...
Çən gələ, çisəkliyə.
Yurdumuz azad ola,
Çəmən, çöl çiçəkliyə.

Kasagələn...
Yurd yerim Kasagələn.
Eisizliyə tablaşmır
Şişqaya, Kasagələn.

Sarı bulaq...
Sarı yer, Sarı bulaq,
Susuzluqdan təşnəyəm,
Ax bizə sarı, bulaq!

Dəli dağa...
Meh gəlibdi sorağa,
Deyir:- El geri dönsə
Gün doğar Dəli dağa.

Bədirbəyə...
Gəl, köçək Bədirbəyə!
Könlün arzuladığı
Yaylaq yeri, bir dəyə...

Yaşıl tala...
Çən gələ ala-tala,
Mən yatam alaçıqda,
Laylamı yağış çala...

Gəlinqayasına...

Daş çatlaya, qaya sına,
Kəlbəcərin hər qayası
Döndü Gəlinqayasına...

Yaralı...
Yar könlünü yar alı.
“Qaçqın” deyib, incitmə,
Qəlb sənsiz də yaralı...

Gilə-gilə...
Salxımı gilə-gilə.
Dərddi süzülüb gedir,
Gözümdən gilə-gilə.

Azan gəlsin...
Minbərdən azan gəlsin!
Bəxtim qara yazılıb,
Təzədən yazan gəlsin!

Yuvasızlar...
Boş qalmış yuva sızlar...
Qaçqınlar Vətənində
Qəriblər, yuvasızlar.

Girovdan soraq verin!
Yazmağa varaq verin!
Yurdun xilas etməyə,
Qaçqına yaraq verin!

Qaçqın atın əyləməz,
Dərdin yada söyləməz.
Yardım şəkər də olsa,
Ağız şirin eyləməz!

May 1999

## “SARITEL” MƏNİ

Radioda “Sarıtel” verilişini dinləyərkən...

Yurdundan didərgin dağlar qızıyam,
Hər həftə yoxlayır “Sarıtel” məni.
Torpaq həsrətindən ölə bilərdim,
Ovudub saxlayır “Sarıtel” məni.

Dinlədikcə könül sazdan doymur ki,
Gözlərimi axan yaşlar oymur ki,
Keçənləri unutmağa qoymur ki,
Qəlbimdən oxlayır “Sarıtel” məni.

Mirvari efirdən gələn saz səsi,
Coşdurdu ürəkdə yaylaq həvəsi.
Dağlara dönməyə ümid şöləsi
Yandırıb bax, yayır “Sarıtel” məni.

Dekabr 2002

## GÜL ƏKİLƏCƏK

Torpaq həsrətinə dözməyən anam Məleykəyə...

Qəhərlənib fəryad etmə hər gecə!
Bir səhər müjdəylə dan söküləcək!
Azadlıq günəşi doğan göylərdə,
Durna qatarlanıb tel töküləcək!

Yollar birləşdirər aranı, dağı,
Sübh şehə bürüyər gülü, yarpağı,
Sevdiyin müqəddəs ana torpağı
Əyilib öpməyə diz büküləcək.

Yarıl ey qaranlıq! Aç ey sabahlar!
Susun yer üzündə nalələr, ahlar!
Toplanın muzeyə qorxunc silahlar!
Minalanmış yerdə gül əkiləcək!

2003

## TƏBRİZƏ

Səkkiz milyon azərinin
Dikilib gözü Təbrizə.
Qibləgah bilib namazı
Qılırıq üzü Təbrizə.
Hürriyət andını içər,
Qəhrəman oğullar seçər,
Xan Arazın üstən keçər,
Ötürər izi Təbrizə.
Taxar azadlıq bayrağı,
Gələr istiqlal sorağı,
Öpəndə ana torpağı,
Qoyarıq dizi Təbrizə.
Birləşəndə sağlar, sollar,
Qovuşar həsrətli qollar.
İnşəllah, açılan yollar
Aparar bizi Təbrizə.
Bakı-Təbriz şahlıq tacın,
Ötüşəcək ağrın, acın.
Mirvari Təbrizli bacın
Çağırar sizi Təbrizə.

13 iyun 2004

## ƏDALƏT ZƏFƏR ÇALACAQ

Vətənini canından çox sevən sabiq DİN İskəndər Həmidova

İgid odur atdan düşə, atlana,
Gözləyirik atlanasan, İskəndər!
Sevdiyin Vətənin hər cəfasına

Məhbəsdə də qatlanasan, İsgəndər!
Beş il yolu bağlı Kəlbəcərimin
Arxası, köməyi, dayağıydın sən.
Elimiz arxayın yuxu yatanda,
Sərhəddə, keşikdə oyağıydın sən.
Başına yığılan dəliqanlılar
O vaxtlardan səni sərkərdə seçdi.
Hücum eyləyəndə düşmən üstünə
Döyüşdə bəyəndi, səngərdə seçdi.
Gözü yolda qalıb Xanım dərəsi,
Sənin isti nəfəsinə həsrətdi.
Keyti dağı yetim uşağa dönüb,
Bir ər oğlu ər səsinə həsrətdi.
Mərd ol! Mətin dayan! Qardaş darıxma!
Bir gün olar, dərdə çarə tapılar.
Zəfər çalar haqq-ədalət divanı,
Açılar üzünə bağlı qapılar!

Avqust 1998

## MƏN AZƏRİ GƏNCİYƏM

Sülh istəsən, sülhə gələ bilərəm,
Böl desən, tikəmi bölə bilərəm,
Vətənim uğrunda ölə bilərəm,
Döyüşlərdə ər savaşı, cəngiyəm!
Tanı dünya, mən azəri gənciyəm!

Elim, obam ey hünərvərim dedi,
Atam, anam igidim, ərim dedi,
Hər sözündə ulu öndərim dedi:
-Dövlətimin arxası, güvənciyəm!
Tanı dünya, mən azəri gənciyəm!

Diz qoyub torpaqdan güc almağım var,
Qarı düşmənimdən bac almağım var,
“Qana-qan!” hayqırıb öc almağım var,
Xalqın iftixarı, həm sevinciyəm,
Tanı dünya, mən azəri gənciyəm!

Elmin yollarında cığır varımdı,
Yenilməz zəfərim, uğur varımdı,
Əl tutan əlimi çağır, varımdı,
Yer üzünün əşrəfiyəm, inciyəm!
Tanı dünya, mən azəri gənciyəm!

İldırıma dönüb çaxsam, qorxarsan!
Coşqun selə dönüb axsam, qorxarsan!
Od olub yandırıb-yaxsam, qorxarsan!
Dinc yaşasan, insanın ən dinciyəm!
Tanı dünya, mən azəri gənciyəm!

28 may 2011

## QALACAQ

Qəm, kədər çəkil yolundan!
Könlümə sevinc dolacaq!
Ruhum ehtizaza gəlib,
Qəlbimdə bayram olacaq.

Duyğularım aşıb-daşıb,
Çağlayıb həddini aşıb,
Zili bəmlə qucaqlaşıb,
Həyat nəğməsi çalacaq!

Şəkər dadan sözüm olsa,
Sevgi süzən gözüm olsa,
Gülüş yağan üzüm olsa,

Mirvari dərdsiz qalcaq! 18 iyun 2011

## HİMN

"Qala" qurduq, gəlin iziniz olsun!
Danışın, meydanda sözünüz olsun!
Həqiqəti görən gözünüz olsun!
Savaşlarda Tanrı bizə yar olsun!
Torpağa diz qoyaq, ər tək güc alaq,
Yenilməz orduya dönək, öc alaq,
Yağılarla cəngə girək, bac alaq,
Əməlimiz Yer üzünə car olsun!
Şəhidlər keçdiyi canın eşqinə!
Tökülən günahsız qanın eşqinə!
Candan keçək bu Vətənin eşqinə!
Anam Azərbaycan bəxtiyar olsun!

## ANA LAYLAM TELLİ SAZ

"Sarı tel"...
Gözlər qara, sarı tel.
Çalıb-oxu telli saz!
Qəlb ovudur "Sarı tel".
"Dilqəmi"...
Söz dərd qovur, dil qəmi.
Sığal çəkir könlümə
Dil açanda "Dilqəmi".
"Göyçəgülü"...
Yazda açır göyçəgülü.
Ürəyimin yurd dərdinin

Məlhəmidir "Göyçəgülü".
"Ruhani"...
Sazın ovsun zamanı.
Tanrısına qovuşan
Ruhumun pərvaz anı.
"Cəlili"...
Ruh oxşar bəmi, zili.
Dillənsə hər kəs anlar,
Sanki bilir hər dili.
"Kərəmi"...
Qoyma, yandı Kərəmi!
Mən yanıb kül oluram,
Çalınanda "Kərəmi".

## ÇAĞIRIŞ VƏRƏQİ

Yığılın başıma qohum-qonşular!

Vətən məni igid anası bilib.
Nə xoşbəxt günümdür, gözlərim aydın!
Oğluma “çağırış vərəqi” gəlib.
Adicə bir kağız parçası deyil,
Tanrımın verdiyi nemətidir bu!
İgid sınağına, ər meydanına
Baş Komandanımın dəvətidir bu!
Adıma şərəfli adda qoşuldu,
Özümü yenilməz sanasıyam mən.
“Oğul, ya şəhid ola, ya qazi!”-deyən,
Bu gündən bir əsgər anasıyam mən!

## HƏRBİ AND

Dar gündə silaha sarılanların
Vətənə verdiyi sözdü “hərbi and”.
Öpüb and içməyə dövlət bayrağın,
Torpağa qoyulan dizdi “hərbi and”.
Qızmış aslan olar savaş anında,
Verər yurd uğrunda şirin canın da.
Qızğın döyüşlərdə, hərb meydanında
Yağını yandıran közdü “hərbi and”.
Ordum arxa çıxıb, ruh gəlib cana,
Düşüb sevincindən qəlb həyəcana,
Əsir düşən yurdu Azərbaycana
Qovuşduran yoldu, izdi “hərbi and”.

## AND İÇİRƏM

Oğlum Aqşinin andiçmə mərasimi...

Azəri xalqının faciələri,
Canlanaraq gözü önündən keçir...
Diz çöküb üç rəngli bayraq önündə,
Vətən qarşısında oğlum and içir...
Vətən! Cəbhəyədir yolum, gəlmişəm!
Güclüdür biləyim, qolum, gəlmişəm!
Ya şəhid, ya qazi olum, gəlmişəm!
Bu gündən silaha sarılır əlim,
And içdim:- "Qana-qan, ölümə-ölüm!"
Müsibətlər görə-görə böyüdüm,
Vətənə sədaqət oldu öyüdüm.
Xoşbəxt gələcəyə olan ümidim,
Hayqırır, qisasa çağırır gülüm.
And içdim:- "Qana-qan, ölümə-ölüm!"
Əsirdir yurdumun dərəsi, dağı,
Çadır şəhərləri mənə göz dağı.
Girirəm savaşa, çəkilsin yağı!
Məzarında rahat uyusun ulum.
And içdim:- "Qana-qan, ölümə-ölüm!"
Namusu tapdanmış bakirə qızlar,
Yağı pəncəsində inləyər, sızlar,
Əylənər baxdıqca ona qansızlar.
Qoyarammı yerdə qalsın bu zülüm!
And içdim:- "Qana-qan, ölümə-ölüm!"
Bacı qatilinə çevrildi qardaş,
Ana fəryadından diksindi dağ-daş,
Bir-birindən ayrı düşdü yar-yoldaş,
Gəldim ki, onlara xilaskar olum.
And içdim:- "Qana-qan, ölümə-ölüm!"

Bıçaqla oyulan gözə and olsun!
Xaç dağı çəkilən üzə and olsun!
Nakam qəlbdə qalan sözə and olsun!
Çəkilmərəm, çıxsa qarşıma ölüm.
And içdim:- "Qana-qan, ölümə-ölüm!"
İldırıma dönüb çaxmağa gəldim!
Düşmənimi oda yaxmağa gəldim!
Zirvələrə bayraq taxmağa gəldim
Ki, dönüb yurduma köç etsin elim.
And içdim:- "Qana-qan, ölümə-ölüm!"
Dönmərəm, qələbə çalana qədər!
Qafqazda bir düşmən qalana qədər!
Torpağımız azad olana qədər,
Bir an da dincəlməz, yorulmaz qolum.
And içdim:- "Qana-qan, ölümə-ölüm!"
Əl verin igidlər! Əlbir olaq biz!
Qarabağ uğrunda dilbir olaq biz!
Bir bayraq altında elbir olaq biz,
Düşsün İrəvana, Təbrizə yolum.
And içək:- "Qana-qan, ölümə-ölüm!"

12 avqust 2001. Gəncə ş. Üçtəpə poliqonu.

## NƏ GÖZƏL YARAŞIR ƏSGƏR PALTARI

Necə dəyişmisən, ay anan qurban!
Baxdıqca doymuram, qalmışam heyran.
Yaradan qorusun deyirəm hər an.
Enli kürəyinə, uca boyuna,
Nə gözəl yaraşır əsgər paltarı!
Addımların yaman mətinləşibdi,

Qolunu qatlamaq çətinləşibdi,
Atan deyir oğlum kişiləşibdi,
Geniş sinəsinə, düz qamətinə
Nə gözəl yaraşır əsgər paltarı!
Danışığın ötkəm, hərəkətin mərd,
Duruşun əzmkar, baxışların sərt,
Əhdinə vəfalı, sözünə comərd
Olmusan, qəlb açan bu görkəminə
Nə gözəl yaraşır əsgər paltarı!
Oda gah üzərlik, gah duz atıram,
Duaları bir-birinə qatıram,
Sən keşik çəkəndən rahat yatıram,
Yuxumda da görsəm, ay oğul, sənə
Nə gözəl yaraşır əsgər paltarı!
Dəmir intizamlı çastına qurban!
Hissədə hər igid dostuna qurban!
O keşik çəkdiyin postuna qurban!
Cərgəyə duranda hər birinizə
Nə gözəl yaraşır əsgər paltarı!

8 yanvar 2002

## GƏLİR

Çağirib müjdələr verdilər mənə,
Dedilər:-"Bir əsgər qonağın gəlir!"
Gözümə nur səpdi, qəlbimə işıq,
Səndən əvvəl gözəl sorağın gəlir.
Könlümə xoş gələn il sığal çəkər,
"Anacan!" –deyəndə, dil sığal çəkər,
Ağarmış saçıma əl sığal çəkər,
Sevin, bəyaz tellər, darağın gəlir.

Mirvari, sözümə söz deyən olmaz,
Varındı qaş altda göz, deyən olmaz,
Səbr elə, bir az da döz, deyən olmaz,
Oğul toxmağı tək yarağın gəlir.

5 iyul 2002

## GÜCÜNÜ TORPAQDAN AL

İlan kimi qıvrılaraq
Sürünürsən torpaq üstə,
Puçur-puçur tər süzülür
Tökülür hər yarpaq üstə.
Dilin ağzında quruyur
Toz qonduqca dodağına,
Sağa-sola buruldıqca
Çör-çöp dəyir yanağına.
İrəliyə dartınmaqdan
Qançır olub dirsəklərin,
Dözməyir ağırlığına
Yorulubdu biləklərin.
Əzələsi tarım duran
Belində taqət tükənir,
Qolların hər büküldükcə
Sinən torpağa söykənir.
Kol-kos üstən sürünməkdən
Yaman sıyrılıb dizlərin,
"Qalx!" -əmrini almaq üçün
Komandirdədi gözlərin.
İnsaf yoxmu komandirdə,
Nədən görmür yorulmusan?!
Sürünməyə taqətin yox,

Artıq dirənib durmusan...
Baxıb yorğun görkəminə
Qəlbdə gülür komandirin...
Çünki oğul, bir hikməti
Yaxşı bilir komandirin...
İgid oğul güc-qüvvəti
Ana torpağından alır,
Cəbhələrdə, düşmən üstə
Şanlı qələbələr çalır.
Sürün! Sürün! O vaxtacan
Qüvvət gəlsin qollarına,
Əsir düşən ana yurdum
Göz dikibdi yollarına.
Bu zəhmətinin bəhrəsi
Savaşanda görünəcək,
Döyüş günü qarı düşmən
Ayağına sürünəcək! 30 dekabr 2001

## ƏSGƏR ANASININ DƏRDİ

Bu gecə Bakıya güclü qar yağmışdı.

Külək əsir şaxtalı,
Lopa-lopa qar yağır,
Bu gün əsgər anasının
Fikri dağlardan ağır...
Gah küçəyə boylanır,
Gan isti evə baxır,
Başdan aşan qayğılar
Qəlbini oda yaxır...
Xəyalları quş olub,

Ruhu bədəndən uçur,
Keşik çəkən oğlunun
Birbaş yanına qaçır...

Bəlkə, oğlu bu səhər
Sübh tezdən oyanıbdı,
Qarlı-şaxtalı gündə
Keşikdə dayanıbdı?!...
Bəlkə, nazik geyinib,
Əlcək yoxdur əlində,
Şaxta kəsir, sulu qar
Buz bağlayır telində?!...
Bəlkə, donur vücudu,
Əldən düşür yarağı,
Keyiyib, sözə baxmır
Tətik çəkən barmağı?!...
Bəlkə, indi ətrafı
Sıx dumana bürünür,
Görə bilmir, yağılar
Yaxınına sürünür?!...
Bəlkə, yatıb keşikdə,
Ətrafın düşmən sarır,
Fürsət axtaran yağı
Ordumun səddin yarır?!..

Fikir, xəyal yorğunu,
Ana diksinir birdən.
Qovur pis fikirləri,
Qalxır durduğu yerdən.

Əlin açır göylərə,
Üzün tutur yuxarı.
Qəlbində güclü inam,
Dilində duaları...
-Fikrimə gələn Allah!
Gəlsin düşmən başına,
Amandı, qıyma Rəbbim!
Oğlumun gənc yaşına.
Sən ey bizi Yaradan!
Könlüm sənə əyandı.
Nəzərini oğlumdan
Yayındırma, amandı!
Keşik çəkən oğlumun
Yuxusunu ərşə çək!
Tanrısına güvənsin,
Özünü sanmasın tək.
Duysun torpaqda yatan
Şəhidlərin nəfəsin,
Namusu tapdalanmış
Qızların fəryad səsin.
Talanan kənd, şəhərlər
Çəkilməsin gözündən,
Ansın qaçqın elini,
Nifrət yağsın sözündən.
Coşub-daşsın içində
Qoy qəzəbi, nifrəti,
Hirsi vursun beyninə,
Nərə çəksin qeyrəti.
Qızdırsın vücudunu

Torpağa məhəbbəti,
Donan qanın isitsin,
Vətənə sədaqəti.
Səbr, dözüm, iradə,
Cəsarət ver özünə!
Qəhrəmalıq əta et,
Nur bəxş elə gözünə!
Qoy qaranlıq gecələr
Yağını seçə bilsin!
Yurd üçün, Vətən üçün
Canından keçə bilsin.
Canlı sipərə dönsün
Qarı düşmən önündə!
Alnı açıq, üzü ağ
Geri dönsün o gün də!

5 Mart 2007

## BU GECƏ

Ağdamda keşikdə dayanan oğlum Şaiqə:

-"Lay-lay beşiyim, lay-lay...
Evim, eşiyim lay-lay...
Sən get şirin yuxuya,
Çəkim keşiyin lay-lay..."

Əsgər keşikdədir...Anası evdə...
Arzuya, diləyə çatdı bu gecə.
Əl açıb şükr etdi uca Tanrıya,
Qorxunu qəlbindən atdı bu gecə.
Keşikdə dayanmaq çətindi -dedi,
Oğlum dözümlüdü, mətindi- dedi,
Yaman arxayınam mən indi- dedi,

Yuxusuna şəkər qatdı bu gecə.
Ehmalca büküldü ipək yorğana,
Yorunluq qolları sürüşdü yana,
Oğul göz qırpmadı sübhəcən...Ana
Arxayın uyuyub yatdı bu gecə...

4 fevral 2006

## SƏNGƏR

Durmuşam düşmənlə burda üzbəüz,
Baxıram sağımdı, solumdu səngər...
Bütün cəbhə boyu uzanıb gedən
Daldalanacağım, yolumdu səngər!
Yenilməz igidəm, yurda dayağam,
Göz qırpmıram, gecə-gündüz oyağam.
Bilir qəsbkarlar neçə ki, sağam
Yaxın düşmək olmaz, ölümdü səngər!
Qoruyan oğlunam dərəni, dağı,
Canımdan əzizdi gülü, yarpağı,
Müqəddəs sandığım Vətən torpağı,
Boynuna dolanan qolumdu səngər!

18 mart 2006

## ƏSGƏR ANASI

Əsgər oğlum Aqşinə məktub

Oğul! Əsgər paltarın
Alıb geydiyin gündən,
Dünya sanki gözümdə
Başqalaşdı kökündən.
Dəyişdi birdən-birə

Həyatımın mənası,
Hamı mənə hörmətlə
Deyir: -“Əsgər anası!”

Xalq önündə qürurdan
Başım da dikəlibdi,
Bükük qəddim düzəlib,
Boyum da yekəlibdi.
Sevinirəm ki, oğlum
Vətənə çəpər gəlib
O gündən gözümə nur,
Dizimə təpər gəlib.
Sən silah götürəndən
Atan arxalanıbdı,
Səndən sonra növbəyə
Qardaşın dayanıbdı...

Bilirəm, sən gedəndən
Sayı artıb ordunun.
Azadlığa inamı
Vardır Odlar yurdunun!
Əminəm igidlərin
Cərgəsi mətinləşib,
Yəqin ki, düşmənin də
Həmləsi çətinləşib.
İnanıram ki, zəfər
Marşı da çalınacaq,
Şəhidlərin qisası
Tezliklə alınacaq!
Azərbaycan ordusu!

Artan sayına qurban!
Mətin, polad gücünün
Oğul payına qurban!
Göndərmişəm Vətənin
Harayına havadar,
Ana kimi mənim də,
Öyünməyə haqqım var!

1 sentyabr 2001

## QARDAŞIM ƏSGƏR GEDİR

Qardaşım Qismətə

Geyinir əyninə əsgər paltarın,
Xeyir-dua verir ağbirçək ana.
Sevinclə çırpınır ata ürəyi,
Bacılar su səpir qardaş yoluna.
Qəlbində Kəlbəcər, Xocalı dərdi,
Torpağın qisasın almağa gedir...
Üç rəngli bayrağı taxıb Xankəndə,
Qələbə marşını çalmağa gedir...
Get! Uğur yoluna! Qisas al, qayıt!
Gözümüzün yaşı qurusun qardaş!
Bir əlin düşmənə zərbələr vursun,
Bir əlin özünü qorusun qardaş!

## ARXAMCA ELƏ BAXMA

Döyüşə gedən qardaşım Qismətə

Arxamca elə baxma!...
Baxışların ox kimi
Sancılır kürəyimə,
Bu niskilli görkəmin

Od qoyur ürəyimə.
Qurban olum, anacan!
Gücsüzləşir qollarım
Yaşlı görsəm gözünü.
Necə gedim, eşitsəm
“Getmə oğul!” – sözünü.
Necə dözüm, durum mən?!..
Kəndlər bir-bir boşalıb,
Şəhərlər əldən gedir.
Yurdumun var-dövlətin
Yağılar talan edir.
Yol verərmi qeyrətim?!...
Düşmənlərin əlində
Girov qalsın gəlin, qız,
Hər işgəncəyə dözən
Cəsur türk oğlu yalqız.
Onu bil ki, getməsəm,
Döyüş vaxtı səngərdə
Mənim yerim boş qalar.
Ordumuzun o yerdən,
Polad səddi yarılar.
Ayağım yer tutandan
Diləyiniydi: - nə vaxt
Oğlum əsgər gedəcək!
Vətəni yağılardan
Müdafiə edəcək?!
İndi oğlun əsgərdir!...
Xeyir-dua ver ana!
Qüvvət gəlsin qoluma,

“Vətəni qoru!” - sözün
Nur çiləsin yoluma!..

May 1993

## TƏLƏS OĞLUM, TEZ BÖYÜ

Aqşinin ad günü- 14 mart 1997

Tələs oğlum, amandır!
Qisas qalıb yağıda...
İl keçir, zaman ötür,
Xilas et əsir düşən
Aranı da, dağı da,
Vaxt, fürsət, aman ötür...
Bu gün ləng böyüməyə
Nə macalın, nə vaxtın,
İxtiyarın, haqqın yox!
Öz yurdunda, yuvanda,
Vətənində qaçqınsan,
Didərginsən, dərdin çox...
Silaha sarılaraq,
Yağıların önündə
Durmağını istərəm!
Qız-gəlinə uzanan
Yad əlləri kökündən,
Vurmağını istərəm!
Hayqır, bağır, nərəndən
Quduzlaşmış yağının
Bağrı yarılsın gərək!
Bir anlıq aman üçün
Qapanıb ayağına
Öpüb, sarılsın gərək!

Öz əlinlə düşmənin
Daşa dönmüş ürəyin,
Qəlbin talamalısan!
Dişlərinlə didərək
Sel tək axıb tökülən
Qanın yalamalısan!
“Qisasa –qisas!”- deyib,
Sal kəndlərin Narışdar,
Ağdaban tək hala sən!
Abad şəhərlərini
Yerlə yeksan eləyib,
Yurdunda od qala sən!
İndi oğullarımız
Doğulduqları gündən
Əsgər olsunlar gərək!
Gün, ay, il gözləməyib
Saniyəbəsaniyə
Yaşa dolsunlar gərək!
Əsgər olsunlar gərək!

14 mart 1997

## “QƏLƏBƏ” MARŞI OXU

Əsgər oğlum Aqşinə

Başına döndüyüm ay əsgər oğlum!
Adımdan dağlara bir namə göndər!
Silib ürəyimin yurd həsrətini,
Xoşbəxt günlərimi geriyə döndər!
Mən əvəzdən öpüb Vətən torpağın,
Üzünü daşlara toxuyarmısan?
Bu didərgin anan ovunsun deyə,

Bir "Qələbə" marşı oxuyarmısan?
Girin Qarabağa! Biz arxanızca...
Xaraba şəhərlər abadan olsun!
Sonra da geyinin bəy paltarını,
Seçdiyiniz qızlar obadan olsun!

## MARŞ OXUYACAĞIQ

Əsgər oğlum Aqşinin dilindən...

Arxayın ol, ana! Tapşırığına
Hərbin qanunları sayaq hazırıq!
Qələmə çevirib süngünün ucun,
Naməni mərminin üstə yazırıq.
Torpağa sevgini, məhəbbətini
Sayrışan gülləyə döndərəcəyik.
"Alazana" qoyub yurd həsrətini
Raket qurğusuyla göndərəcəyik.
Səmadan təyyarə qanadlarıyla
Alovlu salamlar yurda səpərik.
Bombalarla silib düşmənin izin,
Sonra da diz çöküb yeri öpərik.
Sizi yuvanıza qaytarmaq üçün
Tankla, beteerlə yol çəkəcəyik.
Girib Qarabağa cəbhədaşlarla
Yağının başında turp əkəcəyik.
"Qələbə" marşını oxuyacağıq!
Dinlə Azərbaycan! Yaşa bəxtiyar!
Geyməyə gələrik bəy paltarını,
El gözəllərinə salamımız var!

20 yanvar 2002

## XOŞ GƏLDİN

"Sapyor" komandiri qardaşım Qismətin:
-...İnsaf elə, qarşılama yağışla,
Sən Qismətə baxma belə baxışla,
Tapşırıq var, Murov, məni bağışla,
Keçidlərə mina düzməyə gəldim..."  - şeirinə cavab.

Doğma nəfəsinə həsrət qalmışdım,
Gəlişinə qurban olum, xoş gəldin!
Arxası olmasa dağ da basılar,
Gücündən güc aldı qolum, xoş gəldin!
Xatırlaram sizlə keçən növrağı,
Ayaq izləriniz mənə göz dağı,
İndi savaşımı qoy görsün yağı,
Açılsın cığırım, yolum, xoş gəldin!
Nur saçıb yoluna şimşək baxışla,
Salamlayıram ildırım çaxışla.
Qoruyuram mən də səni yağışla,
Çiçək açdı sağım, solum, xoş gəldin!
Murovdağa əsgər oğlum, xoş gəldin!

May 1996

## MƏN SƏRHƏD XİDMƏTÇİSİYƏM

Bura dövlət sərhəddidir,
Mən sərhədçi bir əsgərəm.
Anam igid doğmuş məni,
Qorxmaz, cəsur, hünərvərəm.
Qolumda aslan gücü var,
Dağı-daşı dəlir nərəm.
Günəş dağlarda doğmamış,

Bax! Yuxudan oyanmışam.
Rahat yaşa Azərbaycan!
Sərhəddində dayanmışam.

Gözlərim şahin gözüdür,
Nə bir cığır, iz yayınmaz.
Qulaqlarım darı dəlir,
Nə bir səda, söz yayınmaz.
Nə hiyləgər qaçaqmalçı,
Nə bir cəsus üz yayınmaz.
Arxam Vətən torpağıdır,
Önümdəki qarı düşmən,
Yuxun şirin Odlar yurdu!
Keşiyindəki mənəm, mən!

Bir həyəcan siqnalıma
Neçə min əsgər oyanar.
Başdan-başa silahlanıb,
Çiyin-çiyinə dayanar.
İcazəsiz sərhəd pozan
Olsa, qanına boyanar.
Yorğanım ana torpağım,
Yastığım Vətən daşımdır,
Sirdaşım sərhəd dirəyi,
Silahım yol yoldaşımdır.

Sərhədçi adlanan gündən
Hərbi andı içməyim var.
Müqəddəs amal uğrunda
Şirin candan keçməyim var.
Kol-kosda ləpir arayıb,
Tükü-tükdən seçməyim var.

Ali Baş Komandanımın
Hər əmrinə müntəzirəm.
Gecə-gündüz sərhəd boyu
Yorulmadan iz gəzirəm.
Qurudan, dənizdən keçən,
Sərhəddimin yolçusuyam.
İcazəsiz keçmək olmaz,
Çünki mən qoruqçusuyam.
Gülləm hədəfdən yayınmaz,
Mahir casus ovçusuyam.
Çox şərəfli adım da var,
Dövlətimin haqq səsiyəm.
Mən silahlı qüvvələrdə
Bir sərhəd keşikçisiyəm.

5 may 2012

## AMAN KARVAN, ƏYLƏN

Dərə vahiməli, dağlar pərişan,
Yollar səngər-səngər, ürəyi şan-şan,
Quldurlar tor qurub, alıbdı nişan,
Namərd əl uzanar, cərgən dağılar,
Aman karvan, əylən, yolda yağı var!
Bir əsgər papağı yollarda qalar,
Şahların anası saçını yolar,
Çimnazım vədəsiz saralar, solar,
Ərşə bülənd olar ahlar, ağılar,
Aman karvan, əylən, yolda yağı var!
Saxlasın karvanı dağların yeli,
Səd çəksin araya Tərtərin seli,
Hələ dözür, susur Kəlbəcər eli,
Qisasın almamış neçə dağı var,
Aman karvan, əylən, yolda yağı var!

11 iyul 1990

## İNDİ

Köməyəmi gəlib qar boranıyla?
Təbiət yolları bağlayır indi.
Topa buludları verib baş-başa,
Yoxsa dərdimizə ağlayır indi.
"Qəlbimin qalmayıb taqəti, halı,
Ay ana, kim saldı bu qeyli-qalı?"-
Körpəmin cavabsız qalmış sualı
Didir, ürəyimi dağlayır indi.

Mirvari, silahlan haya getməyə,
Dara düşənlərə dada yetməyə,
Girov qız-gəlini xilas etməyə,
Köksümdə bir haray çağlayır indi.

Dekabr 1990

## BİLMİRƏM

Azərbaycanın Milli Qəhrəmanı S.Səfərovun atası Mədədin dilindən...

Gəlişinə qurban kəsdiyim gəlin,
Gedişinə necə dözüm, bilmirəm.
Nə tapşırım indi, nə deyim sənə,
Dolaşır dilimdə sözüm, bilmirəm.

Ayrılığı qəmli görkəm andırır,
Məzlum halın ürəyimi yandırır.
Lal duruşun mənə nəyi qandırır?
Kəsilirmi yoldan gözüm, bilmirəm.

Ayaq saxla! Dayan bircə hovur sən!
Qəmli baxma, ata qəlbin oyursan.
Gedişinlə dərd üstə dərd qoyursan,
Bükülür qəddimmi, dizim, bilmirəm.

26.09.1992

## BİR İGİD İTİRSƏK, ÜÇ İGİD BİTƏR

Ağdamda şəhid olan mayor Mirzə dayımın xatirəsinə

Bir igidin qırıldı, ömrü qaldı yarıda...
Neçə gəlinlər kimi qara geydi yarı da.
Saçın yoldu bacısı, qardaş deyib ağladı,
Dörd körpənin naləsi ürəkləri dağladı.
Bu itki qəddin əydi yeganə qardaşının,
Dərdi başından aşdı dostunun, sirdaşının.

Oğlu tək böyütmüşdü, yeznə ona ataydı,
Kaş əcəl haxlayanda son nəfəsə çataydı...
İgid şəhid dərdini heç vaxt unutmaq olmaz!
Bacoğlular and içdi:-Qisasın yerdə qalmaz!
Bayrağımız əyildi şəhid məzarı üstə,
Cəsur əsgərlərimiz düzüldü dəstə-dəstə,
Atəş sədalarıyla Vətən şəhidin aldı,
Yaraların oxşayıb torpaq qoynuna saldı...
Yağılar! Sevinməyin ki, igid itiririk,
Bir igidin yerində üç igid bitiririk.
Bu itkinin hesabı sizlərdən sorulacaq,
Qan tökən namərd əllər kökündən vurulacaq!
İşğalçılar birbəbir yurdumdan qovulacaq,
Ölkəmizdə yenilməz bir dövlət qurulacaq!

29 iyun 1992

## AÇILMA SƏHƏR! AÇILMA!

Ağdaban faciəsində iki körpəsi ilə girov getmiş Sevinc müəllimənin dilindən...

Kəndi oda qalayarlar,
Varımızı talayarlar,
Qanımızı yalayarlar,
Açılma səhər! Açılma!

Mərmi göydə çələng olar,
Hay salarıq, çox ləng olar,
Körpələrim bələng olar,
Açılma səhər! Açılma!

Dərd atamın belin bükər,
Yazıq anam nalə çəkər,
Qohum-qardaş qan-yaş tökər,

Açilma səhər! Açılma!
Yağı ovçu, mən ov ollam,
Su üzündə bir qov ollam,
Cüt balamla girov ollam,
Açilma səhər! Açılma!
Ləngi! Gecik! Ey səhərim!
Xəbər tutsun Kəlbəcərim.
Qarşıdadır xeyrim, şərim,
Açilma səhər! Açılma!

8 aprel 1992

## AY DƏDƏ ŞƏMŞİR

Sənə agahmıdır, doğma kəndini
Düşmən alan oldu, ay Dədə Şəmşir!
Seçildi var-dövlət, güllü xalçalar,
Yaman talan oldu, ay Dədə Şəmşir!
Oyandı yuxudan mərmi səsiylə,
Muhasirələndi top haləsiylə,
Yiyəsiz Ağdaban faciəsiylə
Yadda qalan oldu, ay Dədə Şəmşir!
Demişdilər:-Bənd-bərəni vurmuşuq,
Əvəzsiz alınmaz qala qurmuşuq,
Keşiyində hər an sayıq durmuşuq,
Sözlər yalan oldu, ay Dədə Şəmşir!
Yaddan silinməz o dəhşətli anlar,
Şəhid oldu neçə toysuz cavanlar.
Torpaqda gül açdı tökülən qanlar,
Bitən lalan oldu, ay Dədə Şəmşir!
Qəlb necə unutsun bu dərd yükünü?
Düşmən hiss etmədi qorxu-hürkünü.

Yağı nə bilirdi, Qurban mülkünü
Yada salan oldu, ay Dədə Şəmşir! 8. 04. 1992

## VİCDANLAR SUSANDA, TANRI DA SUSUR

O gecə susmuşdu bütün kainat...
Bu qırğına gözün yumurdu Tanrım...
O gecə axardan dönmüşdü həyat,
Vəhşidən insanlıq umurdu Tanrım...
O gecə almışdı:- “Qırmaq!”-əmrini,
Təpədən dırnağa zirehli dəstə,
Xalqımın inamın sındırmaq üçün
Tanklar yeriyirdi Xocalı üstə...
O gecə Vətənin Xocalı boyda
Köksünə çarpaz dağ çəkirdi yağı...
O gecə zirehlər, tırtıllar altda
Od tutub yanırdı ana qucağı...
İldırımı raket, şimşəyi mərmi,
Göylərdən yağırdı güllə yağışı.
Soy kökü danmışdıq, ona görəmi,
Tanrımız qarğıdı belə qarğışı?
Zirehli tırtıllar əzib, yoğurub
Qatırdı torpağa tər çiçəkləri...
Nənənin, babanın ixtiyar çağı,
Qana bulanırdı ağ birçəkləri...
Şirin canlarından keçən igidlər,
Köksündən alırdı güllə yarasın.
O gecə namusun qorumaq üçün,
Gəlinlər boğurdu ciyərparasın...
Dil açıb yalvarır bakirə qızlar:

-Özün öldür qardaş, düşmənə vermə,
Silahlar önündə girov getməyə,
Əllərə düşməyə heç rəva görmə.
Anasından ayrı düşən körpənin,
Yarılırdı bağrı mərmi səsindən.
Görüb bu dəhşəti bərələn gözlər,
Pırtlayıb çıxırdı hədəqəsindən...
O qarlı-şaxtalı çölün düzündə,
Atılıb qalırdı başsız bədənlər.
Ayaqyalın, üryan, yesir kökündə,
Sayamı gəlirdi girov gedənlər?!...
Coşqun sellər kimi axan qanlara,
Sən də şahid idin o gecə, Allah!
Bu faciələrə, müsübətlərə
Dözürdün, susurdun, de, necə, Allah!
O gecə susmuşdu əmrə müntəzir,
Vəzifəsin xalqdan üstün tutanlar.
Qarnını qardaşdan irəli bilib,
İzzət-nəfsi üçün torpaq satanlar...
O gecə yorulmaq, susmaq bilməyən,
Hayqıran, ün salan Xocalım oldu.
Köməksiz, nicatsız şəhidləriylə,
Meydanda tək qalan Xocalım oldu...
O gecə zəng oldu sabaha qədər...
-Hay ver harayıma, Bakı, ay Bakı!
Ağdam, kömək göndər, xilaskarı ol,
Məsum körpələrin qucağımdakı...
Toplar dilə gəldi...Atəş açıldı...
Xəttin o başında susdu telefon...

Üç yüz altmış altı irəllədikcə,
Xocalım geyindi al qırmızı don...
O gecə susmuşdu...Susdurulmuşdu...
Xədbəxt bir millətin, bədbəxt rəhbəri.
Şahid olmaq üçün bu vəhşiliyə,
Tarix dirigözlü açdı səhəri...

26 fevral 1992

## XOCALIM

Yiyəsizlik qəddin əyib, inləyir...
Ölüm təbilini çalıb Xocalım.
Köksünə güllələr dəyib, inləyir...
Ayaqlar altında qalıb Xocalım...
Yad əllər toxunan dağlar viranə,
Naz-nemət bitirən bağlar viranə,
Dönüb toy-büsatlı çağlar viranə,
Kim səni bu hala salıb, Xocalım?
Qələbəmiz uzaq deyil, gələcək!
Mirvari göz yaşın onda siləcək.
Gəlib önündə diz çöküb deyəcək:
-İgidlər qisasın alıb, Xocalım!

30 fevral 1992

## QIYMA

Yuxarı Ayrım kəndində sellərə şəhid olan Nazimin xatirəsinə

Kükrəyib məcrasın aşan dağ çayı,
Qoynuna aldığın cavana qıyma!
Daşlara toxudun güləş üzünü,
Ləpələr bulandı al-qana, qıyma!
Amandı, qum dolar qara gözünə,

Qızı həsrət qalar şirin sözünə.
Saç yolar, qəsd edər yarı özünə,
Dəli nalə çəkər bir ana, qıyma!
Sular! Gizlətməyin çinar qamətin!
Bu itkiyə dözmək çətindir, çətin.
Didib parçalasa qayalar ətin,
Tanrı şərik deyil bu qana, qıyma! May 1992

## İNDİ

Düşüb yurd-yuvadan, torpaqdan ayrı,
Olub məskənimiz haralar indi?!
Qaçqınlıq həyatı, didərgin sözü,
Vurar qəlbimizə yaralar indi.
Ürəyi dərd-qəmlə dolan kəslərin,
Məhləsi viranə qalan kəslərin,
Vətəndə vətənsiz olan kəslərin
Rəngi, ruhu belə saralar indi.
Ovçusun gözləyən bir ovu qalan,
Qoçdaşı, Keytisi, Murovu qalan,
Yağılar əlində girovu qalan,
Geyinər əyninə qaralar indi.
Rastlaşar laqeyid üzlərlə qaçqın,
Soyuq, iztehzalı gözlərlə qaçqın,
Çağrılar tikanlı sözlərlə qaçqın,
Gen dünya başına daralar indi.
Mirvari, Vətənin indi hər oğlu,
Silaha sarılsın hünərvər oğlu!
Kolanı Məcidin İsgəndər oğlu,
Tapsın dərdimizə çaralar indi.

30 aprel 1993

## DOLAŞIR

Gecəli-gündüzlü dinclik bilməyən
Xəyalım dərəni, dağı dolaşır.
Yaddaşıma nağıl kimi həkk olan,
Xatirələr ötən çağı dolaşır.
Gəzirəm, bir şana tel itirmişəm,
Deyirlər aparıb sel, itirmişəm,
Bir Kəlbəcər adlı el itirmişəm,
Dilimdə bayatı, ağı dolaşır.
Mirvari düşübdü qardaşdan ayrı,
Qohumdan, qonşudan, yoldaşdan ayrı,
Tab etməz Murovdan, Qoçdaşdan ayrı,
Sevdiyi dağlarda yağı dolaşır.

Avqust 1993

## QALDI

Qucağından ayrılanda
Dəlidağda gözüm qaldı.
O dəhşətli vida günü
Söyləmədim, sözüm qaldı.
Yağılardan qisas almaq,
Torpağında ölüb qalmaq,
Şərəf idi şəhid olmaq,
Günahkaram özüm, qaldı.
Gətirmişəm dərd çarəsiz,
Xəstə ürək, taqətsiz diz,
Yaşamağa Kəlbəcərsiz

Mirvaridə dözüm qaldı?

## MƏKTUB

Müəllimim M.Aslana

Şair qardaş, qırğın düşdü dağlara…
O dağlardan əhval soran, bilən yox.
Qoşa bulaq bir cüt ağlar gözüdür,
Əl uzadıb o göz yaşın silən yox.

Bu yaz özgə yazdır, təbiət çaşıb,
Yağışı güllədir, dolusu mərmi.
Alovdan, tüstüdən baş açmaq olmur,
Ötüşən gecəmi, açan səhərmi?!

Bir gündə düşmənə təslim edildi,
"Qüdrətdən səngərli, qalalı dağlar".
Məskəni olduğu dağ zirvəsindən
Qartal itkin düşüb, kəklik qan ağlar.

Qəflətən aldığı top zərbəsindən,
Dəlidağın köksü paralanıbdı,
Alagöllər, Ceyran bulağım əsir,
Qonqurum, Qoçdaşım yaralanıbdı.

Göyərib torpaqda günahsız qanlar,
Ləçəyi qan rəngdə bitən lalədi.
Dərələrdə haray salan qasırğa,
Sinəsindən qopan ahdı, nalədi.

Satqınlıq ucundan basıldı Vətən,
Neçə evin şəmü-çırağı söndü,

Mahiri igidlik mücəssəməsi,
Ülfəti, Natiqi nağıla döndü.
Çarpışdı sursatı qurtaranacan,
Sabir çəkilmədi Dikyurddan geri.
Var-dövlətin atıb üryan qaçanın,
Naləsi sarsıtdı səmanı, yeri.
Gözəllər qərq oldu daşqın çaylara…
Ləpələr günahkar, sellər xəcalət.
Körpələr şəhiddir Vətən yolunda,
Xəbərin aparan yellər xəcalət.
Gəlinlər atlandı sal qayalardan,
Arxasınca yağı heyrətlə baxdı…
Hesaba gəlmədi girov gedənlər,
Yiyəsizlik bizi yandırdı, yaxdı.
Bir vaxtı nərgizli, tər bənövşəli,
İndi şəhid məzarıdır hər dərə.
Ölümü diləyən bakirə qızlar,
Əl açıb yalvardı ulu göylərə.
Sərt aşırımlarda, dağ gədiyində
Bilən yoxdu kimlər düşdü borana…
Azmışdımı, nədi, yaz açılan vaxt,
Kəlbəcər köçürdü dağdan arana…
Köçə bax!...Körpəsin basıb bağrına,
Ana ayaqyalın, örpəksiz gedir…
Gözü nurdan, dizi taqətdən düşən,
Nənə kənd yolunda nə fəryad edir?!
Səhəngi bulağın başında qalan,
Qız ata mülkündən ayrıla bilmir…
Oğul dəfn etməyə macal tapmayan,

Ata göz yaşını bir kərə silmir…
Şenlikdə quzuya qarışıb qoyun,
Aparmır, sürünün çobanı yoxdur…
Alov ərşə qalxır yanan evlərdən,
Bir gəlib söndürən obanı yoxdur…
Həvəslə saldığı bağı tərk edən,
Anam satqın çıxan bəyləri söyür…
Atamda son dəfə mülkünə baxıb
Qabarlı əliylə dizinə döyür…
Qaçırdıq!...Yeganə nicat yoluyla…
Murov qar, qız-gəlin ayağı yalın…
Anasın itirib yollarda qalan,
Donan uşaqların soruşma halın…
Çığırtı, bağırtı, güllə səsləri
Qarışıb əks oldu sal qayalarda…
Kimi:- "Ana!"-dedi, kimi:-"Vay balam!"
Kimi itkin düşdü dumanda, qarda…
Bölükləndi neçə elə elimiz?!
Hansımızın yönü hayana düşdü?!
Bacı Abşerona gəlib sığındı,
Qardaşı Talışda o yana düşdü…
Qaçqınlıq yazıldı taleyimizə…
Yazan ulu Tanrım, yoxsa zamanmış?!
Deyərdim:- "Dünyada bütün dərdlərdən,
Vətəndə vətənsiz olmaq yamanmış!"
Kimimiz çadırda, qarın içində…
Kimimiz bir qarın çörəyə möhtac,..
Kimimiz bir şirin söz həsrətində…
Kimimiz saf qəlbə, ürəyə möhtac…

İllərlə yığılan problemlərə,
Nədənsə sayırlar bizi günahkar.
Biri qaçqın deyir, biri didərgin,
Kimi gizli söylər, kimisi aşkar.
Oturub dərdimi ağ vərəqlərə,
Yazıram…Sözlərim nizam düzülmür…
Əllərim üzülüb var-dövlətindən,
Yaxşı ki, qəlbimdən ümid üzülmür…
Vaxt gələr…Mirvari o yollar ilə,
Dönüb Kəlbəcərə qayıdacaqdır…
Naləsin, fəryadın ucaldıb göyə,
Yatan vicdanları oyadacaqdır!...

7 aprel 1993

## BİZİM ELDƏ TALAN VAR

Qarı düşmən hər an yolları kəsir,
Qız-gəlinlər düşmən əlində əsir,
Dəhşətdən ürəklər yarpaq tək əsir,
Körpəsini yol üstündə salan var.
Haray dünya, bizim eldə talan var!
Qətlə yetirilir növcavanları,
Axıb selə dönür nahaq qanları,
Atılır yan-yana başsız canları,
Öz evində şəhid olub qalan var.
Haray dünya, bizim eldə talan var!
Ana bala ağlar, bacı qardaşı,
Burda ayrı düşür könül sirdaşı,
Didərgin, qaçqındır yarı-yoldaşı,
Dərd əlindən qəm neyini çalan var.

Haray dünya, bizim eldə talan var!
Varımız daşınır uzaq ellərə,
Gözəllər qərq olur daşqın sellərə,
Sorağın veririk əsən yellərə,
Gəlib baxın! Hansı sözdə yalan var?!
Haray dünya, bizim eldə talan var!
Kimsəyə yetişmir ah-amanımız,
Yanır, viran qalır xanimanımız,
Mirvari, varmıdır bir gümanımız,
Deyək indi bu qisası alan var.
Haray dünya, bizim eldə talan var!

May 1993

## BİR DİYAR QALDI

İstedadlı jurnalist Hidayət Elvüsalın "Orda bir diyar var" məqaləsini oxuyarkən...

Ay Elvüsal, susma qardaş, amandı!
Haray salmaq təkcə sənə gümandı,
Kəlbəcərdə bu nə dövran, zamandı?
Gördüyün dağları duman, çən aldı.
Orda, uzaqlarda bir diyar qaldı...
Od-alov yağırdı sökülməmiş dan,
Dəhşətlə körpələr qalxdı yuxudan,
Qorxunc silahlardan yağan qorxudan
Dodaqlar çatladı, rənglər saraldı.
Orda, uzaqlarda bir diyar qaldı...
Cənnət məkan yaman ucuz satıldı,
Uşaq, qoca, gəlin qıza qatıldı,
Dal gərdəndə qulac qollar çatıldı,
Diz taqətdən düşdü, gözlər qaraldı.

Orda, uzaqlarda bir diyar qaldı...
Qabarlı əllərin varı talandı,
Qan selindən ayna sular bulandı.
Vətənində əsir olmaq yamandı,
Çaşıb ismətli qız örpəyi saldı.
Orda, uzaqlarda bir diyar qaldı...
Oğulsuzmuş yəni elə Kəlbəcər?
Bölükləndi neçə elə Kəlbəcər?
Yol gözləyir indən belə Kəlbəcər,
Desin: - "Oğlum, qızım qələbə çaldı!"
Orda, uzaqlarda bir diyar qaldı...

## BU NƏ SƏSDİ...

Külək əsdi...Bir səs duydum səsində...
Kəlbəcərdən gələn sorağıydımı?!
Üz tutub arana "gəl!" haraylayan,
Çiskinə bürünən yaylağıydımı?!
Sonası perikən gölmü sızladı?!
Dağmı fəryad etdi, çölmü sızladı?!
Ətrafda didərgin elmi sızladı,
Ya orda çağlayan bulağıydımı?!
Dərd əlindən dinən telli sazdımı?!
Taleh yazan bəxti qara yazdımı?!
Ovmu qaçdı, ovçu yolun azdımı?
Ardınca çağıran ovlağıydımı?!
Dağlanıbdı köksüm şəhid dağıyla,
Qəlbim dolub bayatıyla, ağıyla...
Ehmal sığal çəkib bir budağıyla

Telimi oxşayan qovağıydımı?!
Ötən gənclik yüyrək gedən çapardı,
Xoş günləri əldən alıb apardı...
Mirvari, birbəbir illər qopardı,
Ömür kitabımdan varağıydımı?!

## DEDİLƏR

“Mövzumu başına qəhətdir sənin?
Dağlardan yazdığın bəsdi!” –dedilər.
Sanki doğma yurda dönən yolumu,
Qəlbdən ümüdimi kəsdi, dedilər.
Gözümdə viranə dağlar ağladı,
Qəzəbindən Tərtər coşub-çağladı,
Təklənən zirvələr sal buz bağladı,
Titrədi, ürəyim əsdi, dedilər.
Bənövşənin boynu bükülü qaldı,
Şəhid qanı axıb tökülü qaldı,
Xaraba məhlələr sökülü qaldı,
“Ağlamaq, sızlamaq nəsdi!” –dedilər.
“Dağda nə görmüsən daşdan savayı,
Doqquz ay ötüşən qışdan savayı,
Heç nə görmür gözün yaşdan savayı,
Özünə etdiyin qəsdi.” –dedilər.
O kimdi? -“Mirvari gəlin!” –çağırdı?!
“Silaha sarılsın əlin!” –çağırdı?!
“Cəngi”, “misri” çalsın dilin!”-çağırdı?!
“Kəlbəcərdən gələn səsdi!” –dedilər.

2 mart 2001

## ÖZ EVİMƏ OĞURLUĞA GEDİRƏM

Kəlbəcərin işğalından sonra 5 ay Zar kəndinin yaxınlığındakı mağarada arvadı Tamaşa, qonşusunun qızı və qonşunun gəlini ilə yaşayan, sonra ordunun gəlmədiyini görüb onları sağ-salamat Murov dağlarına gətirib Azərbaycan əsgərlərinin postuna çıxardan Ədil kişinin dilindən.

Aman Allah! Dəhşətə bax, dərdə bax!
Mənim kimi ad çıxartmış mərdə bax!
Görünübmü belə zülüm harda, bax!
Öz evimə oğurluğa gedirəm...

Kahada bir qadın, gəlin, qız qoyub,
Ümidsiz baxışlar, ağlar göz qoyub,
Arxasız, köməksiz, çox yalqız qoyub
Öz evimə oğurluğa gedirəm...

Eldən xəbər tutub, söz gətirməyə,
Qızınmağa odun, köz gətirməyə,
Bir az un, bir çimdik duz gətirməyə
Öz evimə oğurluğa gedirəm...

Qaranlıqda sürünürəm yol üstən,
Gah daş üstən, gah tikanlı kol üstən,
Yolu qoyub gah sağ, gah da sol üstən,
Öz evimə oğurluğa gedirəm...

Qəlbim səksəkəli, hər tərəf yağı,
Aşıram hasarı, keçirəm bağı,
Boylana-boylana oğru sayağı,
Öz evimə oğurluğa gedirəm...

Düşür saçlarıma dən qorxa-qorxa,
Qopsa boran, yağış, çən qorxa-qorxa,
Zülmət gecələrdə mən qorxa-qorxa
Öz evimə oğurluğa gedirəm...

Ölüb-dirilirəm azı min kərə,

Hənirti eşidib çökürəm yerə,
Hər saat ölümü mən görə-görə,
Öz evimə oğurluğa gedirəm...
Xəcalətdən, həm qorxudan əsirəm,
Geriyə dönməyə çox tələsirəm,
Əllərimlə öz cəftəmi kəsirəm,
Öz evimə oğurluğa gedirəm...
Kənd yanır...Köksümə dağ götürməyə,
Yaramıza məlhəm, bağ götürməyə,
Külüng, bel, kəfənlik ağ götürməyə
Öz evimə oğurluğa gedirəm...

Sentyabr 1993

## KAŞ GÖRMƏYƏYDİM

"İçəri şəhər" metrosunun yaxınlığında bir kamançaçı kaman çalırdı, yoldan keçənlər yerə qoyduğu papağının içinə pul qoyurdu...

Oturub yol üstə kamança çalan,
Əyilmişdi önə baş, görməyəydim.
Zəmanəyə bir bax, Allah amandı!
Kaman dilənirdi, kaş görməyəydim.
Kamanə toxunur, kaman inləyir,
Simlər nalə çəkib aman diləyir.
Kimi yan ötüşür, kimi dinləyir,
Ürəkləri belə daş görməyəydim.
Musiqi fəryadın duyub görən yox!
Sənətkarın könül mülkün hörən yox!
Mirvari, sənətə qiymət verən yox!
Doldu gözlərimə yaş, görməyəydim. 25.08.1996

## VERƏRSƏNMİ

Xəstə könlüm təbib istər, a dağlar!
Məlhəm eyləməyə gül verərsənmi?
Danışa bilmirəm, dilim dolaşır,
Dərdimi deməyə dil verərsənmi?
Xatirələr birər-birər oyanır,
Göz önündə qarlı zirvən dayanır,
Təşnədi, Bakıda ürəyim yanır,
Odu söndürməyə sel verərsənmi?
Mirvari yaylaqda quraydı dəyə,
Qulaq kəsiləydi tütəyə, neyə,
Aranı dağlara səsləsin deyə,
Müjdə gətirməyə yel verərsənmi? 3.08.1998

## BİR-BİR

Zaman bizi çəkib Haqq divanına,
Həyat sınağından keçirik bir-bir.
Baxıb reallığı dərk elədikcə,
Yaxşını yamandan seçirik bir-bir.
Xəyanət planı çızılan gündən,
Şəhid qəbirləri qazılan gündən,
Yardım siyahısı yazılan gündən,
Yığışıb dünyadan köçürük bir-bir.
Mirvari, Vətəndən düşdük aralı,
Qəlbimizin yoxdur səbrü-qaralı,
Dağlarsız olmuşuq xəstə, yaralı,
Ölüm şərbətini işirik bir-bir. 28.09.1998

## YAZ GƏLİBDİMİ

Xəyal qanadlanıb uçur dağlara...
Görən Kəlbəcərə yaz gəlibdimi?!
Yolun dəyişibmi durna qatarı,
Yoxsa eytiyatla az gəlibdimi?!
Göy bulaq yenə də gur çağlayırmı?!
Lilpardan döşünə gül bağlayırmı?!
Kimsəsiz qalaraq qan ağlayırmı?!
Ya göllərə ördək, qaz gəlibdimi?!
Mirvari, kaş yolum dağlara düşə,
Ruhumu oxşaya nərgiz, bənövşə,
Həsrətli ürəyim bir sınıq şüşə,
Dərdimi deməyə saz gəlibdimi?! 18.04.1998

## QORXA-QORXA

Növrağı pozulan əsir dağlara
İndi gəlir bahar, yaz qorxa-qorxa.
Qar altdan boylanan ilk qar çiçəyi,
Ehtiyatla bitir az, qorxa-qorxa.
Əlik koldan çıxıb yem sorağına,
Gah hürkür, boylanır solu-sağına,
Orda, Alagöldə, göl qırağına
Uçub qonur ördək, qaz qorxa-qorxa.
Mirvari dəyişib əsən yellər də,
Yolunu səhv salıb axan sellər də.
Kəlbəcərdən uzaq qərib ellərdə,
Sızıldayır telli saz qorxa-qorxa. 18.04.1998

## YALVARIRAM

Perikəndən uca Tanrım!
Sənə elə yalvarıram...
Gələn yolu geri döndər! –
Deyib, belə yalvarıram.
Gözlərimdən çəkilmə nur,
Titəsində qal, yuva qur.
Qamətimi əyməyib dur,
Bükmə!- belə yalvarıram.
Həsrət, hicran məni üzdü,
Tənhalıqdan könül bezdi.
Ağarmayın hələ tezdi!-
Deyb, telə yalvarıram.
Dil bayatı, ağı yığır,
Dağ boyda dərd qəlbə sığır.
Üz aşağı qoşa cığır
Salan selə yalvarıram.
Mirvari bir səda dinlər...
Yurddu sızlar, torpaq inlər...
- Silahlanın, didərginlər!
Dönək elə! – yalvarıram... Dekabr 1998

## GÜNƏŞLİ YURDUMDA GÜNƏŞ BATIBMIŞ

Kəlbəcər, dövrəni düşmən alanda,
Oğlun xəbərsizmiş, qızın yatıbmış?
Etibar eyləyib "bəy" dediyimiz,
Demə torpağını yada satıbmış.
Kamana dönübdü sənsiz belimiz,

Ağarıb vədəsiz siyah telimiz,
Atlanıb yurdundan köçən elimiz,
Qəm yükündən qəflə-qatır çatıbmış.
Yardım paltarını geyə bilmirik,
Hal-əhval soruşub deyə bilmirik,
Bölüb tikəmizi yeyə bilmirik,
Zaman aşımıza zəhər qatıbmış.
Çağrışdan yayınıb, uzaq diyarda
Qum, kərpic daşıyır boranda, qarda.
Anası girovdu, oğlu gör harda,
Milliyyətin danıb, adın atıbmış.
Mirvari, hay salıb qüvvətlə bağır!
Yerləri, göyləri köməyə çağır.
Dözülməz dərdin var dağlardan ağır,
Günəşli yurdumda günəş batıbmış. May 1993

## AY ALLAH

Daşıya bilmirəm didərgin yükün,
Atəşsiz, alovsuz yanıram, Allah!
Daş qəlbli insanlar, nadan yanında,
Qaçqın olduğumu danıram, Allah!
"Haralısız?" –deyib, sorur yetən də,
İztezayla baxır yoldan ötən də.
Yaşasam da indi doğma Vətəndə,
Özümü qürbətdə sanıram, Allah!
Mirvari, heyrətdən qalmışam çaş-baş,
Bizi eldən ayrı saldı bu savaş.
Siyasət oynunun mən yavaş-yavaş,
Gizli mətləblərin qanıram, Allah!

## AY ƏNVƏR RZA

Xatirəsi qəlbimizdə daima yaşayan istedadlı şairimiz Ənvər Rzaya xitabən...

Görsəydin dağılan Vətən mülkünü,
Göylərə ucalan naləni, ünü,
Fəryadımız ərşə ucalan günü,
Qəlbinin dərdini töküb kağıza,
Görən nə yazardın, ay Ənvər Rza?!

Ata mülkü, qardaş evi talandı,
Ayrım kəndi, Binə oda qalandı,
Yanımızda məhşər günü yalandı,
Oğulsuz obada qalan yalqıza,
Baxıb nə yazardın, ay Ənvər Rza?!

Öz yurdundan düşüb qardaş didərgin,
Qohum, qonşu, övlad, yoldaş didərgin,
Tay-tuşlar, dost-tanış, sirdaş didərgin,
Götürüb Pərvizə, oğlun Araza,
Görən nə yazardın, ay Ənvər Rza?!

Hələ bir igidə könül verməmiş,
Təlaşından siyah zülfün hörməmiş,
Şıxıb sərt qayaya, nəfəs dərməmiş
Özünə qəsd edən ismətli qıza,
Baxıb nə yazardın, ay Ənvər Rza?!

Qazandığı vardan əllər üzüldü,
Göz yaşları selə döndü, süzüldü,
Köç karvanı Göyçə səmtə düzüldü,
Evlərdən daşınan xalça, palaza
Baxıb nə yazardın, ay Ənvər Rza?!

Yağılara qaldı dolu bucağım,

Özgəyə qismətmiş qabım-qacağım,
Viran qaldı məhləm, sondü ocağım,
Yiyəsiz maşına, toyuğa, qaza
Baxıb nə yazardın, ay Ənvər Rza?!

Mərmilər dağların köksünü yardı,
Məzar daşın yağı söküb apardı,
Pələsəng ruhlar da fəryad qopardı,
Ürək parçalayan bu etiraza
Baxıb nə yazardın, ay Ənvər Rza?!

Danışa bilmirəm, dilimmi laldı,
Ürəyim tablaşmır, qəlbim bihaldı.
Düşmən üstümüzü çox qəfil aldı,
Karıxıb divarda qoyduğum saza
Baxıb nə yazardın, ay Ənvər Rza?!

Ürəyin təsəlli, məhəbbət umsa,
Səni eytiyacda görüb göz yumsa,
Dar günündə üzü dönən qohumsa,
Demək, cəfaların gedib güdaza.
Onda nə yazardın, ya Ənvər Rza?!

Qələbə müjdəli olsa ilimiz,
Azadlıq nəğməsi qoşsa dilimiz,
Bir gün Kəlbəcərə dönsə elimiz,
İlham coşsa, gəlsə qəlb ehtizaza,
Onda nə yazardın, ay Ənvər Rza?!

Avqust 1994

## QURUSUN ANAMIN AXAN GÖZ YAŞI

42 dustağı xilas edib şəhid olan Mirzə Atakişiyevin xatirəsinə

Anam şəklin yerə qoymur əlindən.
Öpür üz-gözündən, öpür telindən,

Gecə-gündüz ağı düşmür dilindən,
Səyriyir dodağı, çatılır qaşı,
Qurumur anamın axan göz yaşı.

Qardaşın itirib qırx üç yaşında,
Saç yolub, yaş töküb tabut başında,
Təsəlli axtarıb məzar daşında,
Fikir, dərd çəkməkdən ağarıb başı.
Qurumur anamın axan göz yaşı.

Hər dərddən varıdır, desən nə qədər,
Üzündən oxunur qəm, qüssə, kədər,
Nə çəkdiyi zəhmət gedibdi hədər,
Açsalar şan-şandır bağrının başı.
Qurumur anamın axan göz yaşı.

Haraymı, ün çatar didərgin elə,
Ata-ana yoxdu dərdini bölə,
Göz yaşları axıb qarışır selə,
Anlamaz dərdini hər nadan, naşı.
Qurumur anamın axan göz yaşı.

Gün gəlsin, yağıdan qisas alınsın,
Yurdumuzda zəfər marşı çalınsın,
Mirzəmizin adı yada salınsın,
Ziyarətgah olsun o məzar daşı,
Qurusun anamın axan göz yaşı.

11 oktyabr 1994

## SALAMATDIMI

Salamat qal deyə bilmədim, ya Rəbb!
Sevdiyim o dağlar salamatdımı?!
Qövr edib köksümdə Vətən həsrəti
Ürəyimi dağlar, salamatdımı?!

Bulaq üstə kölgə salan qovaqlar,
Saz məclisi, şeir sevən qonaqlar,
Könlüm o günləri yaman soraqlar,
Xəyalda bu çağlar salamatdımı?!
Əkdikcə torpaqdan biz güc alardıq,
Fidanları cərgə-cərgə salardıq,
Qayğısına körpə kimi qalardıq,
O bağçalar, bağlar salamatdımı?!
Tanrımı göndərdi belə rüzgarı,
Elin nə vaxt yurda dönər güzarı,
Gözlər yer üzündən itən məzarı
Görüncə qan ağlar, salamatdımı?!
Mirvari, qəm yüklü cəfalı dağlar,
Cənnət misalıydı səfalı dağlar,
Haçan geri dönsək, vəfalı dağlar
Güldən dəstə bağlar, salamatdımı?!

## XƏYAL YAŞADIR MƏNİ

Uzaqlardan bir səs haraylar bizi,
Arxamızca fəryad edən dağlarmı?!
Dərd çözələndikcə sətirbəsətir,
Qafiyələr nalə çəkib ağlarmı?!
Yad çəkmələr altda qalıb sürünən,
Qəzəbindən duman, çiskin bürünən,
Cəfakeş əllərsiz yetim görünən,
Sönən ocaq, viran qalan bağlarmı?
Qaçqın düşüb ana yurdun yazında,
Yurd salıbdı kədər, qəm avazında,

Didərgin atamın telli sazında
Dil açıb "Kərəmi" könül dağlarmı?!
Dağların həsrəti bükür belimi,
Ağardır intizar, qüssə telimi,
Haraylasam uzaq düşən elimi,
Yara qəlbə məlhəm qoyub bağlarmı?!
Ürəyim açılmır, nədən gülmürəm,
Leysana dönür göz yaşım, silmirəm.
Mirvari, yaşadan məni bilmirəm
Əlçatmaz xəyala dönən çağlarmı?!

## BİLƏYDİM

Qəm üstə köklənmiş sazım olaydı,
"Yanıq Kərəmi"ni çala biləydim.
Keçən günü anıb "Dilqəmi" üstə
Sınıq könülləri ala biləydim.
Böləydim dərdini yarın, yoldaşın,
Həmdəmi olaydım dostun, sirdaşın,
Yurdundan didərgin qohum-qardaşın
Gedib qol boynuna sala biləydim.
Mirvari, əsir tək qalan yurdumun,
Yağı nəfəsindən solan yurdumun,
Cənnətə bənzəri olan yurdumun
Ölüb qucağında qala biləydim.

5 yanvar 1995

## ELLƏRƏ BAX

Aman Allah, ağaran
Tellərə bax, tellərə!

Didərgin yükü əymiş
Bellərə bax, bellərə!
Yalqız fəryad qoparan
Murov geyib çən, duman,
Bəd xəbərin aparan
Yellərə bax, yellərə!
Ay Mirvari, danış, din,
Tək sən deyilsən qəmqin.
Öz yurdundan didərgin
Ellərə bax, ellərə!

20 yanvar 1995

## KƏLBƏCƏR

Füsunkar görkəmin gözüm önündə,
Ürəyim hey səni anır, Kəlbəcər!
Uzaqda olsa da, özün dağların
Hər an qucağında sanır, Kəlbəcər!
Kürsüyə Vətəni satan görənlər,
Şaşırıb fürsəti əldən verənlər,
Silaha sarılan igid ərənlər
Səhvin yalnız indi qanır, Kəlbəcər!
Mirvariyə dözüm, düz ilqar göndər!
Qəlbinə dəyanət, etibar göndər!
Susamışıq, Dəli dağdan qar göndər!
Ciyərimiz yaman yanır, Kəlbəcər!

20 avqust 1993

## ƏZİZ ATA

Şəhidlik zirvəsinə ucalmağıyla sevimli İlahəsini atasız qoydu mənim Mirzə dayım...

Ruhların məskəni səmalardan en,

Necədir əhvalım bil, əziz ata!
Arxam, dayağım ol, öz əllərinlə
Gözümün yaşını sil, əziz ata!
Arxayınlaşmışıq, yola qaçılmır,
Qapımız hay-küylə, ərklə açılmır,
Könül mülkümüzə işiq saçılmır,
Ay ötür, dolanır il, əziz ata!
Ürək səksəkəli, baxışlar hürkək,
Pərişan tellərə gəl bir sığal çək!
İlahən görəndə yoxluğun gerçək,
Ağılar söyləyir dil, əziz ata!

Noyabr 1994

## DÜŞDÜ

Qaçqınlıq yükünün ağır cəfası
Vədəsiz ağaran tellərə düşdü.
Başımızdan qohum-qardaş dağıldı,
Bilmirik kim, hansı ellərə düşdü...
Təsvir etmək olmaz, desəm dillərlə,
Bağ becərdik, məhlə saldıq illərlə,
Ətrafına çəpər çəkdik güllərlə,
Zəhməti qabarlı əllərə düşdü.
Yük əydi, qürbətə düşdü yönümüz,
Sanki yetişmişdi məhşər günümüz,
Tük ürpərdən nalə çəkdik, ünümüz
Dəli dağdan əsən yellərə düşdü.
Satılmışdı, bəlli oldu əməllər,
Boşaldı silaha sarılan əllər,
Hövlanak yurdundan qaçan gözəllər

Axdı daşqın çaya, sellərə düşdü.
Qohumdan ayrıldıq, yoldaş itirdik,
Yardan əl üzüldü, sirdaş itirdik,
Şəhid oldu əziz qardaş, itirdik,
Ağılar ağıza, dillərə düşdü.
Yurdsuz, elsiz ömür, ömür deyil ki,
Könül qəm oylağı, ürək dərd mülkü,
Qaçqınlıq, girovluq, didərgin yükü,
Əyilən qamətə, bellərə düşdü.
Qələbə soraqlı xəbər gətirmək,
Yurd həsrətli hər bir kəsə yetirmək,
Mirvari, didərgin ömrü bitirmək
Günlərə, aylara, illərə düşdü.

## ƏNVƏRSİZ KƏNDİM

Kəlbəcərin istedadlı alim-şair oğlu Ə.Rzaya

Qiyamətmi qopub, bu gün nə gündü?
Bu nə görkəm, bu nə fəryad, nə ündü?
Şairsiz dağların yetim göründü,
Dözülməz qüsəyə, qəmə bələndim.
A mənim şairsiz, Ənvərsiz kəndim!
Yas tutan Şişqaya, o göy dərəmi?
Nalə çəkən dağmı, yoxsa bərəmi?
Yandırıb qəlbləri "Yanıq Kərəmi",
Saralıb çöl-çəmən, uçulub bəndim.
A mənim şairsiz, Ənvərsiz kəndim!
Gözlərində kədər, qəlbində dağlar,
Qaralar geyinib bir gəlin ağlar.
Hər an yada düşür bəxtəvər çağlar

Deyir ki, bihuşam, korşalıb zəndim,
Qalmışam şairsiz, Ənvərsiz kəndim!
Yal-yamacda tanış izini gəzdim,
Dodaqlarda şirin sözünü gəzdim,
Ürəyimdə dərdə dözümü gəzdim,
Təsəlli aldığım elə güvəndim.
A mənim şairsiz, Ənvərsiz kəndim!
Nəvəyə ad qoyar qocalar, Ənvər!
Döşündən süd əmər, güc alar Ənvər.
Onlarla yaşayar, ucalar Ənvər.
Demə zəhər dadır şəkərim, qəndim,
Ənvərləri böyüt, Ənvərsiz kəndim!

Avqust 1989

## SAĞALMAZ

Dərgahına əl açmışam, ya Rəbbim!
Ürəyimin yarası var, sağalmaz.
Paralanıb, yarı qalıb Vətəndə,
Köksümdə də parası var, sağalmaz.
Yaşaya bilmirəm bu sürgün ömrü,
Çapıb-talayır dərd, qəm hər gün ömrü.
Nə bitib-tükənir didərgin ömrü,
Nə bir qeyri çarəsi var, sağalmaz.
Qaçqın varmı bəxti qaralanmamış,
Qohum-qardaşından aralnmamış,
Mirvari, görəsən yaralanmamış
Ürəyimin harası var, sağalmaz.

15 may 1997

## BU NƏ SƏSDİ

Külək əsdi, bir səs duydum səsində...
Kəlbəcərdən gələn sorağıydımı?!
Üz tutub arana -“Gəl!”- haraylayan,
Çiskinə bürünən yaylağıydımı?!
Sonası perikən gölmü sızladı?
Dağmı fəryad etdi, çölmü sızladı?
Ətrafda didərgin elmi sızladı?
Ya orda çağlayan bulağıydımı?!
Dərd əlindən dinən telli sazdımı?
Taleh yazan bəxti qara yazdımı?
Ovmu qaçdı, ovçu yolun azdımı?
Ardınca çağıran ovlağıydımı?
Dağlanıbdı köksüm şəhid dağıyla,
Qəlbim dolub bayatıyla, ağıyla,
Ehmal sığal çəkib bir budağıyla
Telimi oxşayan qovağıydımı?!
Ötən gənclik yüyrək gedən çapardı,
Xoş günləri əldən alıb apardı.
Mirvari, birbəbir illər qopardı,
Ömür kitabımdan varağıydımı?! 25 sentyabr 1998

## DOLANA-DOLANA

Didərgin olandan qalıb
Anam dolana-dolana.
Perikib, gölündə üzmür
Sonam dolana-dolana.
Tanrım yetmədi dadıma,
Qaçqınlıq yazdı adıma,
Pərvanə tək öz oduma

Yanam dolana-dolana.
Hikmətin dərk etmək çətin,
Oğulsansa dayan mətin,
Bu dünyanın siyasətin
Qanam dolana-dolana.
Hansı yolla getdiyimi,
Nə mənzilə yetdiyimi,
Harada səhv etdiyimi
Anam dolana-dolana.
Mirvari verər canın da,
Mərdanəlik var qanında.
Vətən dərdin yad yanında
Danam dolana-dolana. 30 yanvar 1998

## TANRIM

Qarşında keçilməz günahımmı var?
Ya mənə etdiyin qəsdimi, Tanrım?
Qurtula bilmirəm məşəqqətlərdən,
Taleyim əzəldən nəsdimi, Tanrım?
Güldürməmiş gözüm yaşın tökürsən,
Qalxıb dirçəlməmiş qəddim bükürsən,
İmtahana, sınağamı çəkirsən?
Ya ömrümə bəd yel əsdimi, Tanrım?
Seyr etdikcə yeri, göyü göz deyir:
-Oğulsansa sirri gəl aç, çöz deyir.
Mirvari, bir az da hələ döz, deyir,
Bu qeyibdən gələn səsdimi, Tanrım!
21.04.1998

## MƏNİM

Dərd üstən dərd gəldi dərdimin üstə,
Bəxtim əzəlindən qaradır mənim.
Kəlbəcər ki, köçdü dağdan arana,
Ürəyim o vaxtdan yaradır mənim.
Abşeron olandan aranım, dağım,
Həsrətdən saralıb-solur yanağım,
Buz bulaqla öpüşməyən dodağım
Susuzluqdan para-paradır mənim.
Dağlar qızı düzdə yaşıya bilmir,
Didərgin yükünü daşıya bilmir,
Tökür gözlərindən yaş, guya bilmir,
Desin elim-obam haradır mənim.    3 avqust 1998

## KAŞ RAYONDA ÖLƏYDİ

İsaq babasının ölümünə dözməyən bacım qızı Jalənin dilindən

"Kaş rayonda öləydi!"
Bu üç kəlmə sözlərin
Mənasın söylə mənə,
İsaq babanın burda,
Yada ki, Kəlbəcərdə
Ölməyinin fərqi nə?
De, danış, Gülgəz nənə!

- El aralı düşüb, harayım çatmır,
Ətrafda bir qohum-qardaşım yoxdur.
Qızıma, oğluma: - "toxdaq ol!"-deyən,
Həmdəm olan, dostum, yoldaşım yoxdur.
Döysəydi qapımı dərd Kəlbəcərdə,
Təsəlli verməyə el yeriyərdi.

Dərdi misqal-misqal bölüşdürməyə
Ağılar söyləyən dil yeriyərdi.
Qonşular bölərdi işi, bilməzdim,
Gələn qonağıma qulluq edən kim...
Ehsanı hörmətlə süfrəyə verib,
Dükana, bazara, suya gedən kim...
Torpağın qoynunda məzar yerini,
Qazmağa dörd yandan bel uzanardı.
Tabutu çiyninə götürmək üçün
Bir anda yüzlərlə əl uzanardı...
El dərdidir gözümdən
Yaş yerinə süzülür,
Qəhərimi boğduqca
Ürəyim də üzülür.
Hay sal qızım, harayla!
Dərd bölən elim gəlsin!
Qəriblikdir dözmürəm,
Bükülür belim, gəlsin!
Çağırmaqdan yoruldum,
Lal oldu dilim, gəlsin!

20 sentyabr 2000

## YATACAQ

Sevimli əmim aşıq-şair Qəmkeş Allahverdinin əziz xatirəsinə

Torpaq qucağında ey məzarıstan!
“Yatıbdı” şerini yazan yatacaq!
Toylar yaraşığı, məclis bəzəyi,
Bir el sənətkarı, ozan yatacaq!
Kəlbəcərsiz bir gün üzü gülməyən,
Qəlbinə axan göz yaşın silməyən,

Didərgin yükünü çəkə bilməyən,
Dağların yolunu azan yatacaq!
Qəmkeşi qoynunda əmanət saxla!
Olsa tufan, qopsa qiyamət, saxla!
Veririk torpağa zəmanət, saxla!
Fərqi yox, yad elə, az an, yatacaq.

25.01.2002

## QƏMKEŞ QƏM QOYDU GETDİ

"İdrisi çağırın!"-deyən Qəmkeşin son istəyi də gözündə qaldı.

Ürəyin ağrıdan sızıldayanda
Son anda qəlbindən dağlarmı keçdi?
Görüşə çıxdığın moruqlu dərə,
Unudulmaz anlar, çağlarmı keçdi?
Uda bilməyəndə acı həbləri,
Gur axan lilparlı bulaqmı andın?
Üz-gözün istidən qarsılananda,
Sərin dağ havalı yaylaqmı andın?
Sistem əvəzinə tibb bacısından
Yarana qoymağa gülmü istədin?
Başına yığılan həkimlərdənsə,
Bir Kəlbəcər adlı elmi istədin?
Ağrıyan sinənə sığal çəkməyə,
Düşdümü könlünə ana əlləri?
Məlhəm eyləyərdi hər inliltinə,
"Dərdin mənə gəlsin!"-deyən dilləri.
Əzablı Mikayıl, İmran, Kamandar,
Aşıq Əkbər kimi qonaq gözlədin?
Qəlbdə tüğyan edən duyğularını,
Köçürüb yazmağa varaq gözlədin?

Oğul tək sevdiyin şəyirdlərinin
“Ustad!” –kəlməsini arzuladınmı?
Xəbərsiz yatdığın xəstəxanada
“Can əmi!”- səsini arzuladınmı?
Yanında görməyə qohum-qonşunu
Qapıya dikilən gözünmü qaldı?
Perikib hərəsi bir elə düşən,
Qardaşa deməyə sözünmü qaldı?
İdris haraylayan imran dilində
Dolaşan hər kəlmə, sözmü inlədi?
Qara köynək geyib bir şah pərdədə
Sənsiz yetim qalan sazmı inlədi?
Ağır el dərdini çəkə bilməyən
Ömründən bir az da zaman istədin?
Kəlbəcərdə zəfər günün görməyə
Əzrail gələndə aman istədin?
Heyrətdə qalmışdı kardioloqlar
Dedilər: -Ürəyi para-paraydı,
Onu son mənzilə qəfil aparan
Vətən dedikləri dərin yaraydı.
Oymaq-oymaq gəzib Vətən dərdinə
Çarələr axtarıb sorağa düşdün.
Murovdan o üzün həsrətin çəkib,
Murovdan bu üzdə torpağa düşdün.
Dağda zəfər marşı çalınan günü
Dünya gözümüzdə cənnət görünər.
Azadlığa çıxar anam Kəlbəcər,
Qəbrin dağdan gələn gülə bürünər.
Rahat yat, yatdığın qara torpaqda!

Bura da Vətəndi, orada Qəmkeş!
Harda bir telli saz çalıb-oxusa,
Biləcəm yaşayır orada Qəmkeş!

5 mart 2002

## DÖNÜBDÜ

Aşiq Qəmkeşin məzarı üstə

Sənətkarı ziyarətə gəlmişəm,
Gördüm yoxdu, əfsanəyə dönübdü.
Övladların qamətini dərd əyib,
Yüz yaşında piranəyə dönübdü.
Ayrılıq sarsıdıb dostu, sirdaşı,
Bu itkiyə dözmür qohum-qardaşı,
Tez-tez fikri çaşan könül sirdaşı
Məcnun kimi divanəyə dönübdü.
Dərd yükünə gücüm çatmır götürəm,
Bu çiynimdən o çiynimə ötürəm.
Cansız daşı "Əmi"-deyib öpürəm,
Qara mərmər nişanəyə dönübdü.

5 mart 2002

## BOYAMIRAM

Şəhid qardaşının dərdini çəkə bilmir mənim anam.

Qıymazdım yatasan narahat yerdə,
Qara torpaqlara qıyarammı heç?
Tablaşmırdı qəlbim gec gəlməyinə,
Sonsuz ayrılığa qoyarammı heç?
Toy-bayram olardı gəlişin bizə,

Təbəssüm qonardı dodağa, üzə.
Həyatda doymadım səndən ay Mirzə!
Cansız şəkillərdən doyarammı heç?
Bacın qurban, sənsiz keçir hər ilim,
Diz taqətdən düşür, bükülür belim,
Öz təbii rəngin itirdi telim,
Ağarmış saçları boyarammı heç?

## OLMUR

Şaiqin:- "Ana, bacımız öləndə körpə imiş, heç yadına düşürmü?" - sualı qəlbimi göynətdi...

Bu sualı nahaq sordun, ay bala!
Tanrının  işinə əl qatmaq olmur.
Qəlb istəyi sonsuzdu göylər qədər,
Hər arzuya, diləyə çatmaq olmur.
Diləmədim ya qız, oğlan dilimdən,
Əvvəl verdi, sonra aldı əlimdən,
Xilas olmaq mümkün deyil ölümdən,
Qəm yük deyil, götürüb atmaq olmur.
Təbibim, ürəkdən gəl ala dərdi!
Saldı Mirvarini nə hala dərdi?
Unudarmı ana bir bala dərdi?!
Dərd əlindən gecələr yatmaq olmur.

25 yanvar 1998

## QALIBDI

8 sinif şagirdi olan yeganə övladını itirən bir ananın xahişi ilə

Bülbülüm bağçamdan uçub gedəndən
Gedər-gəlməz yolda gözüm qalıbdı.
Hər nazını çəkib boyun sevməyə,

Neçə deyilməmiş sözüm qalıbdı.
Nərgiz deyib, gecə-gündüz anıram,
Alışmıram, korun-korun yanıram.
Onunla ömrümü bitmiş sanıram,
Nə taqətim, nə də dözüm qalıbdı.
Anan qurban! Hər gün, hər ay dilimdə,
Yurd salıb bayatı, ah-vay dilimdə.
Dolaşır bir həzin lay-lay dilimdə,
Nəğməkar olmuşam özüm, qalıbdı.

## QALDI

Bağçalarda barımız,
Dövlətimiz, varımız,
Zirvəsində qarımız,
Dağlar yağıya qaldı.
Kəmər beldən üzüldü,
Şana teldən üzüldü,
Əlim eldən üzüldü,
Əlac ağıya qaldı.
Mirvari öcün aldımı?
Qisas yağıda qaldımı?
Ürəyimin sağaldımı
Şəhid dağı, ya qaldı?

## HEÇ YERİYDİMİ

Həkimlərin səhv müalicə etməsinə görə 25 yaşında ömrünə nöqtə qoyulan bibim oğlu Paşanın əziz xatirəsinə

Kəlbəcər inləyir yağı əlində,

Dünyadan köçməyin, heç yeriydimi?
Silah əvəzinə, ölüm şərbətin
Götürüb içməyin, heş yeriydimi?
Daşıya bilmədin didərgin köçün,
Çiyninə götürdün zamanın suçun,
Qəriblik yükündən qurtulmaq üçün,
Əcəli seçməyin, heç yeriydimi?
Paşa, bir gəlini sərgəndar qoyub,
Yirmi beş yaşında həyatdan doyub,
Bibimi bir yetim əlində qoyub,
Canından keçməyin, heç yeriydimi?

## DEYƏRLƏR

Qaçqın olduqlarına görə sevdikləri qızlara könül aça bilməyən oğlanlara ithaf...

Bir qız seçdim, elçi düşə bilmirəm,
Xam xəyaldır sevgin, eşqin deyərlər.
Qəlbimin saf, ülvi məhəbbətinə,
Duyğun həddin aşıb, daşqın deyərlər.
Yurdundan didərgin elimi görüb,
Həsrətdən ağaran telimi görüb,
Varından üzülən əlimi görüb,
Dərdindən divanə, çaşqın deyərlər.
Bilirəm, qələbə marşı çalmasam,
Torpağımı yad əllərdən almasam,
Ata ocağında məskən salmasam,
Mənə qız verməyib, qaçqın deyərlər.

6 noyabar 2003

## GÜLDÜ, QAYITDI

Murov dağ səmtindən əsən küləklər
Ardımca sorağa gəldi, qayıtdı.
Pərişan telləri yığıb üzümdən,
Axan göz yaşımı sildi, qayıtdı.
Baxdı ki, açılmır qaşım-qabağım,
Şaxta vurmuş gülə bənzər yanağım,
Cadarlanıb suya təşnə dodağım,
İztehzayla mənə güldü, qayıtdı.
Duymuşdu, dönmüşəm şilə-şikəstə,
Torpaq həsrətindən düşmüşəm xəstə,
Qərib əhvalımı sorub ahəstə,
Dərdimi, qüssəmi böldü, qayıtdı.
Ömrümün intizar çağını gördü,
Sinəmdəki şəhid dağını gördü,
Dilimdən süzülən ağını gördü,
Didərgin halımı bildi, qayıtdı.
“Mirvari, dağların yoldadı gözü,
Halal etməz sizə çörəyi-duzu,
Qaçqın eli geri dönməsə” –sözü,
Ox oldu, qəlbimi dəldi, qayıtdı. 8 fevral 2006

## A BƏXTƏVƏR DƏLİ DAĞ

Kəşfiyyatçı Dilqəmin gedib çəkdiyi vidio-lentdə Dəli dağ gül-çiçəyə bürünmüşdü...

Bəxtəvər başına, Dəli dağ sənin!
Sən gül bürünürsən, mənim gülüm yox.
Köksünün üstündən Tərtər çağlayır,
Söndürməyə qəlbin odun, selim yox.
Sən düşmənə əsir, mən dərdə əsir,

Sən yurdda bərqərar, mən burda yesir,
İldırım çaxırsan, fəryadım susur,
Xəbərçin küləkdir, mənim yelim yox.
Sökəyin dağlardı, mən arxasızam,
Qucağından ayrı düşdüm, yalqızam,
Sən öz torpağında, mən qərib qızam,
Həsrətindən ağarmamış telim yox.
Ağlar buludundu, mənim gözümdü,
Solan çiçəyindi, mənim üzümdü,
Bükülən qönçəndi, mənim dizimdi,
Hüzurunda günahkaram, dilim yox.
Elsevərə döndüm el həsrətindən,
Bülbülə çevrildim, gül həsrətindən,
Nəğmələr qoşuram bil həsrətindən,
Alagölün kimi ayna gölüm yox.
Səndəki əzəmət, vüqar gözümdə!
Geniş dünya olubdu dar gözümdə!
Bir qələbə arzusu var gözümdə!
Müjdələr gətirən ayım, ilim yox!...
Sən yağıyla savaşdasan, davan var!
Min bir dərdə dərman edən havan var!
Sənin bir Kəlbəcər adlı yuvan var!
Mənim bir Kəlbəcər adlı elim yox!...

3 avqust 2007

## XALAM OĞLU

Xəstəxanadan zəng edən xalam oğlu Teymura

Utandım səsini tanımayanda,
Bilmədim zəng edən öz xalam oğlu...
Söhbətindən qəmli gileyi duydum,

Qoydun ürəyimə köz, xalam oğlu!
Belə qismət verdi yaradan bizə,
Zirvədən düşürüb endirdi düzə...
Qəlb ansa da, həsrət qalıb göz-gözə,
Çıxış yolu axtar, çöz, xalam oğlu!
Dağ eli aranda azdı, bilirsən!
Qışdan sonra gələn yazdı, bilirsən!
Dünya fani, ömür azdı, bilirsən!
Dəyməsin qəlbinə söz, xalam oğlu!
Bağırxanda keçən çağın xətrinə,
Gül-çiçək ətirli bağın xətrinə,
Sən dağlar oğlusan, dağın xətrinə,
Dərdinə tablaşıb döz, xalam oğlu!
Mirvari üz tutub Haqqa əl açar,
Qaranlıq ötüşər, səhər nur saçar,
Sevinc, şadlıq gələr, dərd-qəmin qaçar...
Xoşbəxt görər səni göz, xalam oğlu! 2006

## AĞLARAM

"Oğlunun yaşamasına söz vermirəm, bəlkə möcüzə baş verə!"- həkimdən bu sözləri eşitmək bir ana üçün ağır dərddir...

Qürbət eldi, kimə deyim dərdimi?
Uçur əldən tərlan quşum, ağlaram.
Ay da batır, günəş sönür gözümdə,
Hara gedir sərdən huşum, ağlaram.
Gah çaşıram yolun azmış gəmi tək,
Qəlbim boşdu xəzan vurmuş zəmi tək,
Dərd əlində tale qoyur məni tək,
Bahar ötür, gəlir qışım, ağlaram.
Körpə quzum, mənim təzə nübarım!

Sənsiz nəyə lazım dövlətim, varım?
Dil bilmirəm həkimlərə yalvarım,
Çığır salır üzdən yaşım, ağlaram.

27 yanvar 1984, RF Kabardin-Balkar R, Tırnauz ş.

## GECƏLƏR

Atam İdris Verdiyevin 80 illik yubileyinə ithaf

Qayğıkeş, mehriban, qaçqın atamın
Qəlbini dərd, kədər əzir gecələr.
Özü bir ünvanda gecələsə də,
Fikri neçə ünvan gəzir gecələr.
Gah əsirlikdəki dağ yada düşür,
Gah əli üzülmüş bağ yada düşür,
Gah şəhidin anır, sağ yada düşür,
Qəm yükün çəkməkdən bezir gecələr.
Gah coşub –çağlayan bulaq xatırlar,
Gah qurban kəsdiyi qonaq xatırlar,
Gah ovçu yoldaşın, ovlaq xatırlar,
Dərdin sətirlərə düzür gecələr.
Gah yanır ağarmış telin dərdinə,
Dağda dərmədiyi gülün dərdinə,
Yurdundan perikən elin dərdinə
Dözməyir, ürəyin üzür gecələr.
Gah uzağa düşən qardaşın anır,
Dərdini bölməyə sirdaşın anır,
Gah həsrətli yarın-yoldaşın anır,
Evi dörd dolanıb, gəzir gecələr.
Gah qatır illəri həftəyə, günə,

Qurban deyir geri döndüyü günə.
Yaraları köz-köz olan köksünə
Qoymağa dərman nə gəzir gecələr?!
Həmdəmi telli saz əldən düşsə də,
Şaqraq nəğmələri dildən düşsə də,
Sığalı, tumarı teldən düşsə də,
Dağ dərdinə dağ tək dözür gecələr.
Atam yetirsə də səksənə yaşın,
İntizarındadı torpağın, daşın,
Anamın balışa axan göz yaşın,
Soluxmuş çöhrəsin süzür gecələr.
Əsgər paltarını geydi nəvələr,
Səbr et ata, gözlədiyin gün gələr!
Didərgin qəlblərə sevinc, nur ələr,
Şükr eyləyib söylə nəzir gecələr. 18 iyun 2008

## ÖLƏ BİLMİRƏM

Qardaşım Qismətə ithaf

Ağrın alım söyləyirəm,
Ağrını ala bilmirəm.
Uzadıram əllərimi,
Boynuna sala bilmirəm.
Gözlərim gözünə baxır,
Göz yaşım qəlbimə axır,
Durmuşam əlacsız, fağır,
Qayğına qala bilmirəm.
Dərd-qəmim başımdan aşır,
Düşündükcə ağlım çaşır,
Xəyalım ərşi dolaşır,

Düşdün nə hala bilmirəm.
Sən ey Yaradan!-deyirəm-
-Məni də bir an!- deyirəm.
Özümü qurban deyirəm,
Qurbanın ola bilmirəm.
Ölmə! Olar zülüm, qardaş!
Necə qədər bölüm qardaş?
Qucağında ölüm qardaş!
Yerinə ölə bilmirəm.

12 yanvar 2009

## AMANDI QARDAŞIM, ÖLMƏ

Qardaş deyib ağlayaram.
Könül, ürək dağlayaram,
Başa qara bağlayaram,
Amandı qardaşım, ölmə!
Alçalan dağım olarsan,
Gəlməz qonağım olarsan,
Köksümdə dağım olarsan,
Amandı qardaşım, ölmə!
Dilimə qonar ağılar,
Gözümdən qan-yaş sağılar,
Nizam cərgəmiz dağılar,
Amandı qardaşım, ölmə!
Notlarımız qəm köklənər,
Çiynimizə dərd yüklənər,
Hikmət qardaşın təklənər,
Amandı qardaşım, ölmə!
Dərdi bizə qardaş verib,
Qəm-kədəri sirdaş verib,

Ayrılığı yoldaş verib
Amandı qardaşım, ölmə!

12 yanvar 2009

## DE GƏLSİN

Aman oğlum, doğma eli harayla,
Qara tabut bağlıyıram, de gəlsin!
Ürəyimdə coşub-daşır fəryadım,
Qardaş deyib ağlıyıram, de gəlsin!
Komandir qardaşı ölmüş bacıyam,
Zəhər içmiş kimi ağzı acıyam,
Qəlb ovudan təsəlli möhtacıyam,
Dağı-daşı dağlıyıram, de gəlsin!
Əcəl gəldi, evimdən yol saldı de!
Ayrılığı boynuma qol saldı de!
Fələk dərdi könlümə bol saldı de!
Tərtər olub çağlıyıram, de gəlsin!

12 yanvar 2009

## DENƏN

Xalidəyə

İçin-için sızıldama sən Allah!
İtirmişəm yarı növcavan denən!
Qismətini səhfə-səhfə varaqla,
Heyifsilən, ötən günü an denən!
Cəsur bir oğlan de, igid komandir,
Gözəl yaraşırdı geydiyi mundir.
Cəbhə yoldaşların, əsgərin dindir,

Keçdiyi əzablı yola yan, denən!
Yol gözləyən həsrət gözündən danış!
Qəm-kədər süzülən sözündən danış!
Xəstə ürəyindən, özündən danış!
Talehsiz Qismətim haycan, can, denən!
Gülə-gülə bizi alda qoydu de!
Ata-ana gör nə halda qoydu, de!
Neçə ağlar gözlər dalda qoydu de!
Əcəl meyin içdi çox cavan denən!

19 fevral 2009

## BİR VƏRƏQDİ, BİR QƏLƏMDİ, BİR DƏ MƏN

Üç sirdaşıq, dərd bölürük arada,
Çulğalaşıb yurd salmışıq burada.
Ayrılmaz dərddaşıq, olsaq harada,
Söykənib bir-birə olmuşuq həmdəm,
Bir vərəqdi, bir qələmdi, bir də mən.
Dağları görməyən göz ağlıyanda,
El-oba həsrəti qəlb dağlıyanda,
İntizar ürəkdə qəm çağlıyanda,
Səfərbər orduya dönürük o dəm,
Bir vərəqdi, bir qələmdi, bir də mən.
Hər an Kəlbəcərli el haraylayıb,
"Sarıtel" oxuyan tel haraylayıb,
Saçı daraqlayan yel haraylayıb,
Hicranın oduna yanırıq müdəm,
Bir vərəqdi, bir qələmdi, bir də mən.
Duyğular çağlayıb həddin aşanda,
Dözüm, səbir silələnib daşanda,
Həmsöhbət tapmayıb dil dolaşanda,

Kədəri paylaşıb, bölürük dərd-qəm,
Bir vərəqdi, bir qələmdi, bir də mən.
Dərdi dağlamağa közmü gəzirsən?
Könül ovutmağa sazmı gəzirsən?
Qafiyə arayıb, sözmü gəzirsən?
Mirvari, qəm yemə, səninlə bahəm
Bir vərəqdi, bir qələmdi, bir də mən.

28 iyul 2010

## AĞLAMA

Qardaşım Qismətin dilindən valideynlərimə təsəlli üçün

Dərd əlindən çaylar kimi çağladım,
Köksüm üstə səf-səf düzüb bağladım.
Ömrüm boyu için-için ağladım,
Qismət deyib, yana-yana ağlama!
Qardaş-bacı, ata-ana, ağlama!
Hasilə yetmədi dilək, ağladı,
Həsrətdən qovruldu ürək, ağladı,
Göz yaşım islatdı, çörək ağladı,
Döyüş dostum, dərd sirdaşım ağlama!
Oğlum, qızım, can yoldaşım, ağlama!
Məni tərk etdi bəxt quşum, ağladı,
Sərimdən dağıldı huşum, ağladı,
Baharım yas tutdu, qışım ağladı,
Məni yad edəndə dostlar, ağlama!
Sağlığa söylənsə tostlar, ağlama!
Mizrab dəydi, telli sazım ağladı,
Nəğmə qoşdum, xoş avazım ağladı,
Qürbət eldə oğlum-qızım ağladı,
Siz əvəzdən ağlamışam, ağlama!

Ürək, könül dağlamışam ağlama!
Ağlamayın! Qoyun ruhum şad olsun!
Mərd dayanın, el içində ad olsun!
Dərd-kədər, qəm-qüssə sizdən yad olsun!
Ölüm Tanrı hikmətidir, ağlama!
Qismətinin qismətidir, ağlama!

20 fevral 2009

## YOX

Şair Xəqaniyə

Abşerona bahar lal-dinməz gəlir,
Burda Tərtərimin şırıltısı yox.
Səma sükut edir yağış yağanda,
Şimşək çaxan göyün gurultusu yox.
Neftlə zəngindir bu şanlı diyar,
Hara baxsan rəngin boz ahəngi var.
Neçə qış ötüşdü görmədik ki, qar.
Selin bağrı yaran uğultusu yox.
Söz qəhətdir təsvir etsəm dillərlə,
Ötüşür fəsillər yeknəsək belə.
Bülbül nəğməsini demirəm hələ,
Qara qarğanın da qarıltısı yox.
Kolun böynubükük qan bənövşəsi,
Arısız çiçəyin balı, nəşəsi,
Çəmənin kəpənək, böcək nəşəsi,
Göllərin qurbağa qurultusu yox.
Dərdim dağa döndü, dağ səndən ayrı!
Kəlbəcər ruhumdu, ruh məndən ayrı!
Güləm, soluxuram çəməndən ayrı!
Qəlbim yanan məşəl, parıltısı yox!

15 iyun 2011

## DAĞLAR

Bir xəbər göndər toxdayım,
Açılırmı yazın dağlar?
İllər keçir, həsrətinə
Dözmür oğlun, qızın, dağlar!
Təbiətin istedadlı,
Çiçəklərin baldan dadlı,
Nəğməkarın Tərtər adlı
Oxuyurmu sazın dağlar?
Mirvari bir gül, çəmənsiz,
Qəlbim aram tutmur sənsiz.
Başına dolanım, mənsiz
De, kim çəkir nazın, dağlar!

2 may 2011



**BİZ DÖNÜB O YURDA QAYIDACAĞIQ!...**

## GÖZLƏSİN ...

Biz dönüb o yurda qayıdacağıq!...
Dağlar cığır salsın, duman gözləsin!
Qıvrıla-qıvrıla çıxsın yollara,
Çay göz-qulaq olsun, ümman gözləsin!
İgid oğlu-qızı silahlanacaq,
Özünü müsəlləh əsgər sanacaq,
Yollarında məşəl olub yanacaq,
Qəlbinə gəlməsin güman, gözləsin!
Mirvari, qeydinə qalan gələcək!
Torpağın qisasın alan gələcək!
Kəlbəcərdə zəfər çalan gələcək!
Bizdən Vətən borcun uman gözləsin!

Avqust, 1996

## GÖZÜMDƏ...

Dikpilləkən, Sarıbulaq, Alagöl,
Adlanan bir nağıl qalıb sözümdə...
Kəhər atla yarışa çıxdığım çöl,
Çəkilməyir, heykəl olub gözümdə...
Adlandığım gündən qaçqın, didərgin,
Ürəyimdə tüğyan edir nalə, ün,

Elə tablaşıram dərdimə bu gün
Qəlbim sanki Dəlidağdı dözümdə...
Yaşayıram bağça-bağlardan ayrı,
Saz-söhbətli ötən çağlardan ayrı,
Mirvari, düşsəm də dağlardan ayrı,
Kəlbəcərim yaşar mənim özümdə!...

Dekabr, 1995

## ELLƏRƏ BAX, ELLƏRƏ!...

Aman Allah, ağaran
Tellərə bax, tellərə!...
Didərgin yükü əymiş
Bellərə bax, bellərə!...
Yalqız fəryad qoparan,
Duman geyib çən-boran.
Bəd xəbərin aparan,
Yellərə bax, yellərə!...
Ay Mirvari, danış, din!
Tək sən deyilsən qəmgin.
Öz yurdundan didərgin,
Ellərə bax, ellərə!...

20 yanvar, 1995

## XƏYAL YAŞADIR MƏNİ...

Uzaqlardan bir səs haraylar bizi...
Arxamızca fəryad edən dağlarmı?!
Dərd çözələndikcə sətirbəsətir,
Qafiyələr nalə çəkib ağlarmı?!
Yad çəkmələr altda qalıb sürünən,
Qəzəbindən duman, çiskin bürünən,

Cəfakeş əllərsiz yetim görünən
Sönən ocaq, viran qalan bağlarmı?!
Qaçqın düşüb ana yurdun yazında,
Yurd salıbdı kədər, qəm avazında,
Didərgin atamın telli sazında
Dil açıb "Kərəmi" könül dağlarmı?!
Dağların həsrəti bükür belimi,
Ağardır intizar, qüssə telimi,
Haraylasam uzaq düşən elimi,
Yara qəlbə məlhəm qoyub bağlarmı?!
Ürəyim açılmır, nədən gülmürəm?!
Leysana dönür göz yaşım silmirəm.
Mirvari, yaşadan məni bilmirəm
Əlçatmaz xəyala dönən çağlarmı?!...

Dekabr, 1995

## SALAMATDIMI?!...

"Salamat qal!"- deyə bilmədim, ya Rəbb!
Sevdiyim o dağlar salamatdımı?!
Qövr edib köksümdə Vətən həsrəti
Ürəyimi dağlar, salamatdımı?!
Bulaq üstə kölgə salan qovaqlar,
Saz məclisi, şeir sevən qonaqlar,
Könlüm o günləri yaman soraqlar,
Xəyalda bu çağlar, salamatdımı?!
Əkdikcə torpaqdan biz güc alardıq,
Fidanları cərgə-cərgə salardıq,
Qayğısına körpə kimi qalardıq,
O bağçalar, bağlar salamatdımı?!
Tanrımı göndərdi belə rüzgarı?!

Elin nə vaxt yurda dönər güzarı?!
Gözlər yer üzündən itən məzarı
Görüncə qan ağlar, salamatdımı?!
Mirvari, qəm yüklü cəfalı dağlar,
Cənnət misalıydı səfalı dağlar,
Haçan geri dönsək vəfalı dağlar
Güldən dəstə bağlar, salamatdımı?!

Avqust, 1998

## BİLƏYDİM

Qəm üstə köklənmiş sazım olaydı,
"Yanıq Kərəmi"ni çala biləydim.
Keçən günü anıb "Dilqəmi" üstə,
Sınıq könülləri ala biləydim.
Böləydim dərdini yarın-yoldaşın,
Həmdəmi olaydım dostun, sirdaşın,
Yurdundan didərgin qohum-qardaşın,
Gedim qol boynuna sala biləydim.
Mirvari, əsir tək qalan yurdumun,
Yağı nəfəsindən solan yurdumun,
Cənnətə bənzəri olan yurdumun,
Ölüb qucağında qala biləydim.

5 yanvar, 1995

## KƏLBƏCƏR

Füsünkar görkəmin gözüm önündə,
Ürəyim hey səni anır, Kəlbəcər!
Uzaqda olsa da, özün dağların
Hər an qucağında sanır, Kəlbəcər!
Kürsüyə Vətəni satan görənlər,

Şaşırıb fürsəti əldən verənlər,
Silaha sarılan igid ərənlər,
Səhvin yalnız indi qanır, Kəlbəcər!
Mirvariyə dözüm, düz ilqar göndər!
Qəlbinə dəyanət, etibar göndər!
Susamışıq, Dəli dağdan qar göndər!
Ciyərimiz yaman yanır, Kəlbəcər!

20 avqust, 1993

## YURDUMUZU TAMAM TALANMIŞ GÖRDÜM

İgid kəşfiyyatçı Dilqəm Əsgərovun dilindən...

Dil deyə bilməyir göz gördüyünü,
Kəlbəcəri tamam talanmış gördüm.
Hansı kəndə, hansı obaya girdim,
Atəşə, alova qalanmış gördüm.
Hay-haraylı yurdun izi qalmayıb,
Sönən ocaqların közü qalmayıb,
Viranədi bağlar özü qalmayıb,
Elə bil yoxuymuş, yalanmış, gördüm.
Dağlarda əzəmət gəz, yerindədi!
Vüqarı, təmkini öz yerindədi!
Dilqəm, dəyanəti düz yerindədi!
Düşməni nəzərə alanmış, gördüm.

Avqust 1998

## DAĞLAR OĞLU XOŞ GƏLİB

Diqəm deyir:- Minalı sahəni keçməyə yolu dağ keçisi göstərdi.

**Dağ keçisi –** Yol gözləyir düz beş ildir Kəlbəcər,
Dağlar oğlu doğma yurda xoş gəlib!

Viran qalmış yurdda azıb qalardı,
Nə yaxşı ki, burda bizə tuş gəlib.
**Dilqəm -** Qarşıma ilk çıxan a dağ keçisi,
Dağlar bələdçimi göndərib səni?
Minalı sahəni yarıb keçəndə,
Vecə almadınmı qarı düşməni?
**Dağ keçisi -** Şəhid olan, girov gedən çoxdumu?
“Qaçqın”- sözü kövrək qəlbə oxdumu?
Torpağının igid oğlu yoxdumu?
Ordusuz, silahsız, əliboş gəlib?
**Dilqəm -** Ayaq səslərimi torpaqmı duyur?
Nəfəsi elə bil cənnət qoxuyur.
Ətrafı bürüyüb bizi qoruyur,
Bir yandan dağların dumanı, çəni.
**Dağ keçisi** – Araya nahaq qan, qada düşübdü,
Gəlişinlə yurda səda düşübdü,
Qəriblik sıxıbdı, yada düşübdü?
Əhlət daşa dəyən başa huş gəlib?
**Dilqəm -** Dilqəmi tək-tənha görüb danladın,
Ordusuzam deyib çox yamanladın.
Hərbi sirdi, yəqin indi anladın!
Ellər kəşfiyyata göndərib məni.

## ƏSİR QADINA XİTABƏN

Dilqəm deyir:-Binokulla baxanda uzaqdan bulağa gedən bir qadını gördüm. Davranışından əsir olduğunu anladım...

Qızsan, gəlinmisən, ay el gözəli?!
Yağılar əlində əsirsənmi, de!
Bir gündə yüz kərə ölüb-dirilib,

Qorxudan titrəyib əsirsənmi, de!
Kəlbəcər gözəli, bu sənsənmi, de!
Ləkəsiz namusun təhqirmi olur?
Yad üzə toxunan yanağın solur?
Cəlladlar önündə gözlərin dolur,
İşgəncədən ləlik, yesirsənmi de!
Kəlbəcər gözəli, bu sənsənmi, de!
Döz bacım! Xilaskar ordun gələcək!
Səfərbər olub boz qurdun, gələcək!
Azadlığa çıxar yurdun, gələcək!
Bizdən ümidini kəsirsənmi, de!
Kəlbəcər gözəli, bu sənsənmi, de!

## TƏRTƏR ÇAYI İLƏ SÖHBƏT

Dilqəmin dilindən...

Talanmış yurdumda çaşıb azıram,
Səslənib yol göstər, ay ana Tərtər!
Suyundan bir ovuc içir, toxtayım,
Qoyma ki, ürəyim dayana, Tərtər!
Suların buz kimi, şəffaf, dupduru,
Göy qurşağı saldı günəşin nuru,
Elə bil çalınır İsrafil suru,
Döndükcə o yana, bu yana Tərtər!
Laylay çalan şirin dilinə qurban!
Dağlara səs salan selinə qurban!
Sərsəng adlı zərif gölünə qurban!
Həsrətəm sənin tək hayana, Tərtər!

## SADAĞA GƏLDİM

Dilqəmin dilindən...

İsti küləklərlə qoynuma dolan
Doğma ana nəfəsini duyuram.
Çırpınan qəlbini dinləmək üçün,
Başımı torpağın üstə qoyuram.
Bilirəm, döyünən yorğun ürəkdə
Didərgin bir elin dərdin gizləyir.
Görürəm otların titrəyişindən
İntizarla görüş günün gözləyir.
Məhəbbətin məni çöllərə salıb,
Məcnunam, dolanıb bu dağa gəldim.
Əl mənimdi, ətək sənin, qəbul et!
Əsir düşmüş yurda sadağa gəldim.

## DAĞ ÇAYININ QEYRƏTİ

Dilqəm deyir:-Tərtər çayında iki erməni balıq tuturdu. Allaha yalvardım ki, balıq tilova gəlməsin. Yarım saat əlləşsələr də ermənilər əliboş geri döndülər...

Barmağım tətikdə, düşmən hədəfdə...
Nişan aldım, atəş aça bilmirəm.
Yurddan xəbər aparmağa gəlmişəm,
Verdiyim sözümdən qaça bilmirəm.
Balığın gizlədir yad tilovundan,
Düşməni salıbdı heyrətə, bir bax!
Ləpələr yağıya meydan oxuyur,
Bu dağ çayındakı qeyrətə bir bax!
Savaşda tək qalan ay ana yurdum!
El dönənə qədər tablaş birtəhər.
Səndəki yenilməz qüdrəti gördüm,
Gözümə nur gəldi, dizimə təpər.

## YURD MƏHƏBBƏTİ

Dilqəmin dilindən...

Səsinə qulaq as, bulaq şeirdi,
Seyrinə daldığın yaylaq şeirdi,
Cüyürlü meşələr, ovlaq şeirdi,
Şairə dönməsən, günah edərsən.
Dəlidağdan əsən yel nəğmə deyir,
Tərtərə qovuşan sel nəğmə deyir,
Yerdən baş qaldıran gül nəğmə deyir,
Şairə dönməsən, günah edərsən.
Gül bürüyən çəmən-çöl pıçıldayır,
Sarıyerdən Alagöl pıçıldayır,
Mən bir söz demirəm, dil pıçıldayır:
- Şairə dönməsən, günah edərsən!

## DOĞRANAN MEŞƏNİN HARAYI

Dilqəm deyir:-Ermənilər Kəlbəcər meşələrini doğrayırdılar.

Doğrayır gövdəmi dəmir mişarlar,
Yüzillik kökümdən qoparır məni.
Sındırıb tökürlər qol-budağımı,
Qoymayın, yağılar aparır məni!
Cəlladlar meşəyə girdiyi gündən,
Quşlar yuvasından perik düşübdü,
Əlik gözə dəymir, cüyür itkindi,
Qəlbimlə qəm-kədər şərik düşübdü.
Yadlar alovuma qızınmaqdansa,
İldırım vuraydı, alışaydım kaş!
Düşmənin evini bəzəməkdənsə,

Çürüyüb torpağa qarışaydım kaş!...

## QONAĞIM OL

Dilqəmi qonaq edən Firuzə xanımım dilindən

Hər papaq geyənə kişi deyilməz!
Kişi mənəm igid, gəl qonağım ol!
Ər qeyrətli, qorxmaz, cəsur qadınam,
Şahidimdi oba, el, qonağım ol!
Buyur, alaçığa sərmişəm xalı,
Mehman görsə, xoşhal olar əhvalı,
Camışın qaymağı, beçənin balı,
Bir qismət bizimlə böl, qonağım ol!
Pənah gəlib kəsər qurbanlıq quzu,
Neçə nəfər olsa bozarmaz üzü,
Kişini tanıdar çörəyi-duzu,
Əsirgəməz sizdən əl, qonağım ol!

## TALANMIŞ KƏNDİ İLƏ DİLQƏMİN SÖHBƏTİ

**Dilqəm –** Qu desəm, qulağım tutulacaqmı?!
Ya kimsə səsimə hay verəcəkdir?!
Yoxsa hay-haraylı kəndin yerində
Xaraba evləri göz görəcəkdir?!
**Kəndimiz-** Səsinmi özünə xoş gəlir igid!
Asta danış, dağlar yaralanıbdı.
Ellərim arana köç edən gündən,
Sanki ruhum candan aralanıbdı.
**Dilqəm –** Saralıb tökülən ot biçilməyib,
Bulaq quruyubdu, su içilməyib,

Kəndə gələn yoldan iz keçilməyib,
Qəlb qübar bağlayıb, dərd hörəcəkdir.

**Kəndimiz-** Oğlum, qızım namərd əllərə düşdü,
Adım dastan olub dillərə düşdü,
Bir elim gör neçə ellərə düşdü,
Qəlbim neçə yerə paralanıbdı.

**Dilqəm –** Döyüşdə qələbə çalandan sonra,
Yağılardan qisas alandan sonra,
Dönüb öz yurdumda qalandan sonra,
Dilqəm qucağından gül dərəcəkdir.

**Kəndimiz-** Dağam, dərdimə də dağ tək dözürəm,
Elsiz günüm ötüb-keçmir, bezirəm.
Görüşməyə bir bəhanə gəzirəm,
Üzü dönən bəxtim qaralanıbdı.

## GƏLMİSƏN

**Kəndimiz-** Nəfəsimə doğma nəfəs toxundu,
İgid, söylə görüm nəyə gəlmisən?
Didərginlik dərdi sıxdımı, səni?
Qəribsəyib: -“Vətən!”-deyə, gəlmisən.

**Dilqəm –** Namərd yağıların səddini yardım,
Gəldim ki, dərdimi bölə kəndimiz.
Ürəyində şübhə, güman qalıbsa,
Həqiqəti dürüst bilə kəndimiz.

**Kəndimiz-** Gül-çiçək al qana bulanıb, gördün!
Kəndiniz, obanız talanıb, gördün!
Məhləniz atəşə qalanıb, gördün!
Ürəyini yeyə-yeyə gəlmisən.

**Dilqəm –** Başımıza geniş dünya darıymış,
Qana susayanlar bizə yarıymış,
Siyasət adlanan oyun varıymış,
Böldü bizi necə elə kəndimiz!
**Kəndimiz-** Qol çırma, düşmənin boynun vurmağa!
Yurdunda möhtəşəm qala qurmağa,
Yəqin bu dağlara arxa durmağa,
Ana torpağına yiyə gəlmisən.
**Dilqəm –** Torpağına bağlı ürək varımdı!
Qisas üçün arzu-dilək varımdı!
Silah tutan güclü bilək varımdı!
Dilqəminə uğur dilə, kəndimiz!

## ŞİRİN YUXU

Kənddə yatdığım gecənin,
Yuxusu necə şirindi!
Sübh quşların təranəsi,
Oxusu necə şirindi!
Çəmən dolu çiçəklərin,
Göz oxşayan göyçəklərin,
Şəkər dadan ləçəklərin
Qoxusu necə şirindi.
Daşa daya buxağını,
Bulaq yusun yanağını,
Dilqəm, əyil dodağını
Toxu, su necə şirindi.

## DÖZÜMƏ QURBAN

Təmkinlə durmusan düşmən əlində,
Kəlbəcər, səndəki dözümə qurban!
Görkəmindən qəddin əyilməyibdi,
Vüqarlı göründün gözümə, qurban!
Etibarsız oğul de, danla məni.
Qorxaq, fərsiz deyib yamanla məni.
Geri dönəcəyim gümanla məni
Yola salıb inan sözümə, qurban!
Gəlmişdi yurduna sorağa Dilqəm!
Eytiyac hiss etdi yarağa Dilqəm!
Yurdu bükmək üçün bayrağa Dilqəm,
Torpaqdan güc aldım özümə, qurban!

## KƏLBƏCƏR

Dilqəmin dilindən...

Əmin ol! Dağlardan vüqar almışam,
Sellərin qəzəbin, hökmün çalmışam,
Dəlisov Tərtərdən qüvvət almışam,
Bu torpağın balasıyam, Kəlbəcər!
Qayaların əzmi biləyimdədi,
Dağ yelinin nəbzi ürəyimdədi,
Yurduma sədaqət diləyimdədi,
Qol boynuna salasıyam, Kəlbəcər!
Boylanıb arxamca ümidsiz baxma!
Haqq-sayını anıb başıma qaxma!
Dilqəmin ürəyin odlara yaxma!
Qisasını alasıyam, Kəlbəcər!

## GÖRDÜM

Al papağı geyin yaylıq yerinə!
Səndə bacım, kişi qeyrəti gördüm!
Bizi alaçığa dəvət edəndə,
Səsində yenilməz cürəti gördüm.
Min qayğı, məlahət vardı dillərdə,
Qəddini əyməyib ötən illərdə.
Səxavətlə süfrə salan əllərdə
Çevik hərəkəti, sürəti gördüm.
Ardımca su səpən əlinə qurban!
Xeyir-dua verən dilinə qurban!
Mənə:-"Oğul!"-deyən gəlinə qurban!
Dilqəmin üzündə heyrəti gördüm!
Dilqəmin Kəlbəcərə ilk səfəri - Avqust 1998.

## ATAM

Hal soruşdum...Çaşıb qaldım, ay Allah!
Susub, hönkür-hönkür ağladı atam.
"Kişilər ağlamaz!"-deyib atalar.
Ağladı... Qəlbimi dağladı atam.
Çiynimə söykəyib ağarmış başın,
Sellərə döndərdi gözünün yaşın.
Gizlədərkən duyğularla savaşın,
Çoşqun çaya dönüb çağladı atam.
Sualıma cavab verə bilmədi,
Payını süfrədə qoydu, yemədi,
Kədərin bölmədi, dərdin demədi,
Sözünü ağzında saxladı atam.

Anlamadım... Fikrin aran, dağ çəkdi?!
Girov gedən, vaxtsız ölən, sağ çəkdi?!
Ürəyimə çalın-çarpaz dağ çəkdi,
Qəmi səf-səf düzüb bağladı atam.

Mirvari, nə yaman  həsrətlə baxdı?!
Baxışı könlümü yandırıb-yaxdı...
“Ah!”ları süzülüb köksümə axdı...
“Qoca çinar!”-dedim... Haxladı atam...

## UZAĞA SALDI

Bacarırsan, əziz ata, bağışla!
Çəkdiyin zəhmətlər özünə qaldı...
Oxudurdun qızın köməyin ola,
Lakin dincliyini əlindən aldı...
Səmum əsdi, yoxsa şimşək çaxdımı?!
Fələk mənə kəc baxışla baxdımı?!
Qönçə tutub çiçək açan baxtımı,
Yelkənsiz gəmi tək daşlara çaldı...
Bağlanmışdı doğma yurda dərindən,
Tərpətməzdi tufan qopsa yerindən.
Canından da əziz Kəlbəcərindən
Taleh Mirvarini uzağa saldı...
18 mart 1983, RF Kabarda-Balkar Resp. Tırnauz ş.

## DÜŞDÜ

Atam şair İdrisin "Bir tərlanım uçub"-şerinə cavab

Tərlan qanadlandı, qalxdı qayadan,
Uçdu, yuvasından irağa düşdü.
Taleh bəd gətirdi, zəmanə döndü,

Sevdiyi budaqdan qırağa düşdü.
Ayaq açdı, dayı tutdu əlindən,
Sığalladı dədə, nənə telindən,
“Ata!” –sözü heç düşmədi dilindən,
Yandı pərvanə tək, çırağa düşdü.
Dinməmiş tutuldu, qaşı-qabağı,
Güldülər, gülmədi qönçə dodağı.
Susamış torpaqdı sanki yanağı,
Soldu, lalə kimi qurağa düşdü.
Hara baxdı, vida dedi hər şeyə,
Telləri pərişan, qəm yeyə-yeyə,
Dəlidağdan endi, Tırnauz deyə,
Atasın axtardı, sorağa düşdü.
Əsmət xala işlə başın yozanda,
Nənə saxlayırmı payın qazanda?
Aqşin dədəsinə namə yazanda,
Axdı göz yaşları varağa düşdü.

May 1983, Tırnauz ş.

## DEYİMMİ ?...

BAM-a, qardaşım Qismətin “Danış” şerinə cavab:
- “...İndi o dağların kətə vaxtıdır,
Löpük, çiling-ağac, mətə vaxtıdır.
Ürəklərdən kədər itə, vaxtıdır,
Mənə o dağların yazından danış...”

A dağlardan əhval soran qardaşım!
Dağlar özgə büsat aldı, deyimmi?!
Vertalyotlar uçur qartal əvəzi,
Toplar, tanklar məskən saldı, deyimmi?!
Yaylaqlar yurd olub, kətə nə gəzir?
Löpük, çiling-ağac, mətə nə gəzir?

Quldurlar soxulub Vətənə, gəzir.
Qərar kağız üstə qaldı, deyimmi?!
Kim uduzdu, kimdi udan oyunu?!
Ermənilər çapdı malı, qoyunu,
Gəlin köçdü, təzə bəyin toyunu
Atılan mərmilər çaldı, deyimmi?!
Ordu qorumadı, köməksiz qoydu,
Namərd əli üzüm üstə iz qoydu.
Çarpayım önündə anam diz qoydu,
Atam min bir fikrə daldı, deyimmi?!
Qırğın saldı düşmən araya, qardaş!
Özünü tez yetir haraya, qardaş!
Məlhəm et, sarğı qoy yaraya, qardaş!
Həmdəm ol, yanımda qal di, deyimmi?!

May, 1990

## QALIBDI

Goranboya-Şahmalı əmiyə

Gəl, qurbaının olum, Şahmalı əmi!
Yolunda atamın gözü qalıbdı.
Ürək həmdəminə, qəlb sirdaşına,
Deməyə söhbəti, sözü qalıbdı.
Gəlişinə şənlik qurula bizdə,
Xəyalımız gəzir yollarda, izdə,
Məhəbbətlə dolu ürəyimizdə
Şahinin, Rövşənin özü qalıbdı.
Ənvər dayı yetsə haraya, ünə,
İnanın gələrik imana, dinə.
Anam qurban deyib siz gələn günə,
Kəsməyə qurbanlıq quzu qalıbdı.

Gələn Arzu, Sevda, Laura ola,
Təranə, Pərvanə yanımda qala.
Yandır çırağımı ay Zülfü xala!
Alovu səngiyib, közü qalıbdı.
Mirvari təzə-tər nübarı üzə,
Dağın naz-nemətin süfrəyə düzə,
Gülgəz xala ilə yenə üz-üzə
Dadmağa çörəyi, duzu qalıbdı. Avqust 1992

## ÇALIRSANMI HEÇ ?...

Sazı Kəlbəcərdə qalan qardaşım Qismət Naftalan şəhərində məskunlaşmışdı, eşitdim ki, bir saz alıb...

Deyirlər ay Qismət, bir saz almısan,
Əlinə götürüb çalrsanmı heç?
Kəlbəcərdə keçən günləri anıb,
Şirin xəyallara dalırsanmı heç?
Enərdik dərəyə moruq dərməyə,
Çıxardıq Qoçdaşa çələng hörməyə,
Tələsərdik Dəlidağı görməyə,
Bunları yadına salırsanmı heç?
Vəsf edib dağların qışın, yazın da,
Tərənnüm edirsən xoş avazında?
Dərdi çözələyib telli sazında,
Sınıq könülləri alırsanmı heç?
İllər ləng ötüşür, zaman darıxır,
Tarıma çəkilib kaman, darıxır,
İndi dağlar sazsız yaman darıxır,
Xəyalən qonağı olursanmı heç? May, 1994, Bakı ş.

## YOLU BİZİM ELDƏN SAL

"Karvan" verilişinə

"Karvan"ı döndərib dağlara sarı,
Sarvan qardaş, yolu bizim eldən sal!
Gəl dərdləşək, elə sözü-söhbəti
Həsrətdən ağarmış siyah teldən sal!
Didərginə dönən ellərimizdən,
Ağılar söyləyən dillərimizdən,
Torpaqdan üzülən əllərimizdən,
Əyilən qamətdən, kaman beldən sal!
Mirvari, yağılar alan yurdumun,
Varı ürəyim tək talan yurdumun,
İndi əsirlikdə qalan yurdumun
Qızları qərq olan daşqın seldən sal!

## AY KİFAYƏT

Jurnalist Kifayət Umudqızına

Çətindir tablaşmaq atasızlığa,
Bu dözülməz dərdə döz, ay Kifayət!
Bacın qurban dağdan ağır dərdinə,
Bir təhər başını yoz, ay Kifayət!
Umud dayı bağça-bağda olsaydı,
Qohum-qardaş solda-sağda olsaydı,
Yüz yaş yaşayardı dağda olsaydı,
Tapmıram təsəlli söz, ay Kifayət!
Dost-düşmən içində mərdanə dayan!
Seymur arxan olsun, Vilayət hayan,
Çırağı bir ata əvəzi say, an,
Xoşbəxt görsün səni göz, ay Kifayət!

Fevral 1998

## KİMDİR GÜNAHKAR...

Qardaşım Qismət 9 ildən sonra niçanlısına qovuşdu...

**Qismət:-** İndi ağ iz düşüb qara saçlara,
Sənmi günahkarsan, mənmi günahkar?!
Üz tutub talehdən qaçmışıq hara?
Sənmi günahkarsan, mənmi günahkar?!

**Mirvari: -** Ayrılıq iz salıb qara saçlara,
(Xalidənin dilindən) Nə sən günahkarsan, nə mən günahkar!
Zaman bəxtimizi çəkdirdi dara,
Nə sən günahkarsan, nə mən günahkar!

**Qismət: -** Arxamızca neçə yaman göz olub,
Hər sözümüz, hər kəlməmiz söz olub,
Bu ayrılıq qəlb qovuran köz olub,
Sənmi günahkarsan, mənmi günahkar?!

**Mirvari: -** Qanadlar kövrəkmiş uça bilmədik,
Həyat sınağından qaça bilmədik,
Yollar düyün düşdü, aça bilmədik.
Nə sən günahkarsan, nə mən günahkar!

**Qismət: -** Doqquz ilin günahına batan çox,
Doqquz ilin taleyinə dəydi ox,
Doqquz illik ömrümüzdən soraq yox,
Sənmi günahkarsan, mənmi günahkar?!

**Mirvari: -** Ömrümüzü talan etdi doqquz il,
Sevən ürək susdu, danışmadı dil,
Günahkar araya girənləri bil,
Nə sən günahkarsan, nə mən günahkar!

**Qismət: -** Gəzdiyimiz doğma yerlər göz dağı,
Sənli günlər xəyalların qonağı,
Közərmədi bəxtin arzu çırağı,
Sənmi günahkarsan, mənmi günahkar?!

**Mirvari: -** Göz dikib bir-birə dərdli, gileyli,
Birimiz Məcnunuq, birimiz Leyli,
Varsa könlümüzdə barışmaq meyli,
Nə sən günahkarsan, nə mən günahkar!
**Qismət: -** Qəlbimizdə neçə arzular uymuş,
Bizi nə yad duymuş, nə doğma duymuş,
Şükür, bu gün ayrılığın sonuymuş,
Sənmi günahkarsan, mənmi günahkar?!
**Mirvari: -** İztirablı anlar sona yetibdi,
İntizar, ayrılıq, hicran bitibdi.
Xallı Qismət sevincində itibdi,
Nə sən günahkarsan, nə mən günahkar!

Noyabr, 1992

## XALİDƏ, TOYUN MÜBARƏK

Qardaşım Qismətin gəlininə

Ağ paltarın xoş ağ günlər müjdəsi,
Paltara yaraşır boyun, mübarək!
Yığışıb məclisə qohum-qardaşın,
Deyirik ürəkdən: - “Toyun mübarək!”
Qara sürmə ala gözə yaraşır,
Ənlik-kirşan zərif üzə yaraşır,
Surətin tərif et, sözə yaraşır,
Əllərinə xına qoyun, mübarək!
Bəxt kəmərin bağla belə bu gündən,
Min zinət vurulur telə bu gündən,
Dəyişir ünvanın elə bu gündən,
Qız, yeni soyadın, soyun mübarək!

## İTİRDİM

Şair Mürvətin "Kəlbəcərli gəlin" şerinə oxuyarkən...

Mürvət qardaş, gəl dağ çəkmə sinəmə,
Elə bilmə təkcə bulaq itirdim...
Sorma niyə belə pərişan qalıb?
Telimdən açılıb daraq, itirdim...
Yerini bilmirəm dostun, sirdaşın,
Sorağı yox girov gedən yoldaşın,
Öz evində şəhid olan qardaşın,
Əlindən düşmüşdü yaraq, itirdim...
Hesaba gəlməyən dövləti, varı,
Güneydə laləzar, quzeydə qarı,
Keyti dağ, Bədirbəy axar-baxarı,
Üstü qız-gəlinli yaylaq itirdim...
Lilparlı bulaqlar çağlar qoynunda,
Min bir dərdə dərman bağlar qoynunda.
Bənzərsiz, füsunkar dağlar qoynunda
Ovçusun gözləyən ovlaq itirdim...
Yüz il ömr eyləyər, yaşar Mirvari,
Yığışıb köçsəydi dağlara sarı.
Ömür vəfa edə eşidəm barı,
Kəlbəcərdən xoş bir soraq, itirdim...

Mart 1995

## ƏMİM OĞLU

Şair Xəqaniyə

Bir zamanlar Dəli dağın qoynunda,
Biz də soltan idik, xan, əmim oğlu!
Ad-san qazanmışdıq eldə, obada,
Varımızdı şöhrət-şan, əmim oğlu!
Yeyib sümürtkənin şirin ləçəyin,

Yığardıq Tozluğun maralçiçəyin,
Çələngə hörərdik gülün göyçəyin,
Bunları xatırla, an, əmim oğlu!.
İntizarındayıq dağın, yaylağın,
Dadı ağzımızda balın, qaymağın,
Qonqurun, Qoçdaşın, Göylü bulağın
Həsrətindən alış, yan, əmim oğlu!
Bağ becərdim, qönçə tutmadı gülüm,
Taleh yatdı, ərşə ucaldı zülüm,
Qaçqınlıq, şəhidlik, vədəsiz ölüm
Ötüşmədi bizdən yan, əmim oğlu!
Doğma yurdumuzda qaçqına döndük,
Dərd elə çağladı, daşqına döndük,
Huşumuz dağıldı, çaşqına döndük,
Nadanlardan gizlət, dan, əmim oğlu!
Didərgin qohumu gəz, könlünü al,
Dərdli qəlbin ovut, həm qeydinə qal,
Əmin qızını da hərdən yada sal,
Arada bir yoxla, can əmim oğlu!
Mirvari, düşməndən geri alınsın,
Kəlbəcərə təzə yollar salınsın.
O dağlarda zəfər marşı çalınsın,
Müjdəylə sökülsün dan əmim oğlu!

10 iyul 1995

## AY BUTA

"Aşıq Pəri" məclisində Kəlbəcər şerini oxuyan şair Butaya...

Kəlbəcər adını gətirmə dilə,
Eşidəndə ürək keçir, ay Buta!
Ağsaqqal, ağbirçək tablaşa bilmir,
Bir-bir dünyamızdan köçür, ay Buta!

Susamışıq, dağda qarımız qalıb,
Sayıla dönmüşük, varımız qalıb,
Güllü bağçalarda barımız qalıb,
Əkən bizik, düşmən biçir, ay Buta!

Göz yaşıdı damcı-damcı üzülən,
Sal qayadan büllur kimi süzülən,
Ətrafına lalə, nərgiz düzülən
Ağ bulaqdan düşmən içir, ay Buta!

Vətəndə didərgin olduq özümüz,
Haqq deyirik, işə keçmir sözümüz,
Hər an qohum-qardaş gəzən gözümüz,
Nurun itirib, tor seçir, ay Buta!

Mirvari, başıma elim yığıla,
Ürəyimdən kədər, qüssə dağıla,
Olub-keçən hamı dönə nağıla...
Bir arzudur qəlbdən keçir, ay Buta!

27 avqust 1995

## GƏTİRƏRDİM

Şair M.Aslanın yubileyinə

Şair qardaş! Sizi təbrik etməyə
Qaçqın düşməsəydik, el gətirərdim.
Əlim yetişsəydi Çiçəkli dağa,
Dərib tər bənövşə, gül gətirərdim.

Çıxsaydı qarşıma zamanın atı,
Geri döndərərdim vaxtı, saatı.
Səadətlə çulğalanmış həyatı
Ömrünüzə yazan il gətirərdim.

Olsaydı dağların çağlayan vaxtı,
Anam kətələri yağlayan vaxtı,
Hərəyə bir sovqat bağlayan vaxtı

Kəndin nübar payın bil, gətirərdim.
Bahar fəsli alça çiçəkləyəndə,
Lalə, nərgiz, zambaq ləçəkləyəndə,
Çəmən üzə gülüb göyçəkləyəndə
Dəlidağ ətirli yel gətirərdim.
Cəm edə bilsəydim:-İdrisin özün,
Sücaətin şerin, Bəhmənin sözün,
Yusifin qoşmasın, Qəmkeşin sazın,
Dədə Şəmşirdən də dil gətirərdim.

Oktyabr 1998

## ŞAİR SÜCAƏTƏ

Kəlbəcər həsrətinə dözməyib ağır xəstə yatan şair Sücaətə.

Dərd çəkərsən, dərdə əsir düşərsən,
Sücaət, yaxanı dərdə tanıtma!
Yadındamı!...Ayrılanda dağlara
Söz vermişdin:- “Dönəcəyik!”-unutma!
“Ağlayıram, yatmıram ki, gecələr”,
Deyib, qəm etmə, ürəyə güc elər.
Dərdini dərd edib didərgin ellər,
Qaysaqlamış yara qəlbi qanatma!
Qardaş, şair olar xalqına öndər,
Al qələmi sən də yarağa döndər!
“Cəngi” üstə söz qoş, elinə göndər!
Baş yastığa qoymağa gəl can atma!

21 noyabr 2001

## KƏNDİMİZ

Şair Ə.Rzanın “Nə yaxşı görüşdük” şeir kitabını oxuyarkən...

İlhamın sirrimi, ay Ənvər dayı?

Nə gözəl tərənnüm olub kəndimiz!
Sanki heca-heca, sətirbəsətir
Uyuyub, xəyala dalıb kəndimiz.
Öz əksini burda tapıb çöl-çəmən,
Vüqarlı Şişqaya, nərgiz, yasəmən,
Bu da Məmməd kişi, özüdür həmən!
Necə yaddaşında qalıb kəndimiz.
Tanıtmısan doğma kəndi ellərə,
Nəğmə olub, adı düşüb dillərə.
Demə ki, borcluyam ötən illərə,
Atalıq borcunu alıb kəndimiz.

10 yanvar 1986 Rf Novosibirsk, Çerepanov ş.

## GƏTİRSİN

”Ay Aqşin, siz gedəndən sazı köynəyinə qoyub divardan asmışam” –İdris dədənin məktubundan...

Çal Dədə! Sazını qoyma köynəyə!
Səsini bu əsən yellər gətirsin!
Şeir yaz, tərif de Vətənə, elə,
Sözünü danışan dillər gətirsin!
“Dilqəmi” dil açsın xoş avazında,
Kərəmə qovuşsun Əsli sazında.
Gül qoxulu Dəli dağın yazında
Nəfəsin ətirli güllər gətirsin!
Hər payız fəslində nəvələr sayda,
Nübardan pay tutmaq sizdə bir qayda.
Nənəmin Aqşinə baharda, yayda,
Sovqatın obalar, ellər gətirsin!

25 dekabr 1985, RF Çerepanov ş.

## GÖNDƏR

Bəşir dədəyə məktub

Bəşir dədə, Sibir uzaq olsa da,
Bizim qeydimizə hərdən qal, göndər!
Kəndimizin bahar fəsli, bar vaxtı,
Dər nübardan, sovqat yola sal, göndər!
Göy çəmənin əvəliyi, zirəsi,
Qarağat, çiyələk, moruq şirəsi,
Dərman olar min bir dərdə hərəsi,
Alma, armud, nə istəsən al, göndər!
Nəvələrin düşdü sizdən irağa,
Köçəri quşları göndər sorağa!
Qəlbimizdən keçən sığmaz varağa,
Düşüb könlümüzə bir az bal, göndər!

8 iyul 1986, RF Çerepanov ş.

## ƏSMƏT

Aqşini Sibirə apardığıma görə ona analıq edən bacım Əsmət məndən küsüb, məktub yazmır...

Küsmə gəl bacıcan, hayla-harayla!
Gəlsin qürbət elə sorağın, Əsmət!
Kimdən öyrənmisən belə küsməyi?
Yoxsa qurtarıbdı varağın, Əsmət!
İsitsən qəlbimi şirin sözünlə,
Sibirin şaxtası kar etməz mənə.
Ürək buza dönsə, qəlb soyuq olsa,
Sinə gərmək olmaz borana, çənə.
Ağbirçəyim olsun İnci, Səhərgül,
Daş olan qəlbini muma döndərsin!
Aidəylə birgə Əsmət əksini,

Ətraflı məktubla bizə göndərsin!
15 noyabar 1985 RF Novosibirsk ş.

## QARDAŞIM

İmtahana başı qarışıb məktub yazmağı unudan qardaşım Hikmətə...

Qardaşla öyünər bacı əzəldən,
Saymırsan heç məni saya, qardaşım!
Nə əhval tutursan, nə hal sorursan,
Günlər ötür, dönür aya, qardaşım!
Azdırıbdı arğac yollar rəddimi,
Aramızda uca dağlar səddimi?
Qürbətdə qəriblik büksə qəddimi,
Çağırsam gələrsən haya, qardaşım?
Qardaş, bacın qurban uca boyuna!
Bir kələk qur, məni çağır toyuna!
Qol salım qoluna, girim oyuna,
El görsün arxamda qaya, qardaşım.

15 iyul 1986, Çerepanov ş.

## DƏDƏ

"Aqşin, yəqin atan-anan səni bizə etibar etmədilər deyə, göndərmədilər"-İdris dədənin məktubundan...

Məni etibarsız adlandırma gəl!
Həsrətin odlara qalaram, Dədə!
Yetirrəm özümü simurq quşu tək,
Qollarım boynuna salaram, Dədə!
Etibar söhbəti olmadı bizdə,
Saxtalıq yox idi verdiyim sözdə,
Dözmüsən iki il, üç ay da gözlə!

Bir gəlib könlünü alaram, Dədə!
Nənəm bəsləyirmi bağında barı?
Aqşin şərikidi yarıbayarı.
Köçhaköç başlasan dağlara sarı,
Balaca quzuçun olaram, Dədə!
Doyunca yanında qalaram, Dədə!

10 fevral 1987, Çerepanov ş.

## A QONŞU QIZI

Uşaqlıq dostum Mahruya – balaca Aqşinin dilindən...

Namı yazdım, nədən cavab gəlmədi?
Xətrinəmi dəydi, a qonşu qızı!
Yoxsa qardaşından qorxub-çəkindin?
Atan bildi, nəydi, a qonşu qızı!
Baxma ki, yollara boran, qar yağır,
Qəlbin istəyirsə məktub yaz, çağır!
Belə susmaq mənə dağlardan ağır
Küsüdü, gileydi, a qonşu qızı!
Verdiyim vədədən keçsə də zaman,
Yaman darıxmışam, səninçün, yaman.
Uzaq yol, qəriblik, sənsizlik inan,
Qamətimi əydi, a qonşu qızı!

28 yanvar 1988, Çerepanov ş.

## AŞIQ QƏMKEŞƏ

Aşıq Qəmkeşin: -“Əfsanəymişəm” lent yazısını dinləyərkən...

Yaşa Qənkeş! Sənət, söz dünyasının
Aşıq Valeh, Sarı nişanəsisən!
Saz Dədə Qorqudun yadigar şamı,

Sən o şamın sadiq pərvanəsisən!
Qıfılbənd, müxəmməs, təcnis dilində,
Ələsgər qüdrəti vardır əlində.
Aşıqlıq tacdırsa Odlar elində,
O tacın ən parlaq dür danəsisən!
Toya yaraşıqdır səsin, avazın,
İki gəncin nigah bəndidir sazın.
Atasından əvvəl oğlanın, qızın
Xeyir-dua verən piranəsisən!
Gəzirsən Vətəni səyyah misalı,
Tərənnüm edirsən eşqi, vüsalı,
Adın Qəmkeş, özün şənlik timsalı,
Sənətin vurğunu, divanəsisən!
Doymuram dinləsəm yüz kərə azı,
Səsini, sözünü, çaldığın sazı.
Sənə qurban olsun qardaşın qızı,
Sevimli əmisi, bir dənəsisən!

24 iyun 1988, RF Çerepanov ş.

## USTAD

Məktubuma cavab yazmayan aşıq Qəmkeşə

Namə yazdım, cavab yaman ləngidi,
Qəbul etmədimi salamı Ustad?
Zərrə pay ummuşdum söz xəznəsindən,
Bizdən əsirgədi kəlamı Ustad.
Tab gətirmir ürək, oda qalanıb,
Vətən uzaq düşüb, könül talanıb,
Aylar keçib, neçə illər dolanıb,
Yoxsa yaddan çıxıb balamı, Ustad?

Həsrətəm dağların yazına, Qəmkeş!
Şirin söhbətinə, sazına, Qəmkeş!
Götür bir namə yaz qızına, Qəmkeş!
Şam ol, işıqlandır qalamı, Ustad!

1 oktyabr 1988, RF, Çerepanov ş.

## ŞAİQİ

Qardaşı Aqşindən ötrü darıxan İdris dədə ilə Məleykə nənəyə

Elə hey:- Aqşinim gəl, gəl!-deyirsiz,
Yada da salmırsız hələ Şaiqi.
O siz görən dəcəl körpə deyiləm,
Heç vaxt görməmisiz belə Şaiqi.
Elə ovsunlaram şirin dilimlə,
Kədərin sevincə dönər mənimlə.
Sığal çəksəm dərdin itər əlimlə,
Mərdimazar salıb dilə Şaiqi.
Gəlimmi dağların cənnət vədəsi?
İştahamı açsın pencər kətəsi.
Nənə tamaşaçı, İdris dədəsi
Saz çala, rəqs edə, gülə Şaiqi.

12 fevral 1987, RF Çerepanıv ş.

## İNDİ

“Kəlbəcərdə nərgiz, bənövşə açıb, yəqin ki, Sibirdə hələ qışdı” –İdris dədənin məktubundan...

Atacan, nigaran qalma gəl belə,
Sibir mahalına yaz gəlib indi.
Nə boran var, nə də şimal küləyi,

Tayqaya qatarla qaz gəlib indi.
Quşlar cəh-cəh vurur, verib səs-səsə,
Şamlar küknar ilə giribdi bəhsə,
Torpaq bəhər üçün düşüb həvəsə,
Gözəl təbiətə naz gəlib indi.
Qürbətdə qalsa da yüz il Mirvari,
Ataya, anaya var etibarı.
Məktubla bildirim küsümü barı,
Namələrin yaman az gəlib indi.

İyun 1987, RF Çerepanov ş.

## QIZIM

"Mənim Mirvari anam"-deyə, xəstəxanadan məktub yazan şagirdim Füzulu qaçqını Günaya...

Günay qızım, yüngül olsun yastığın!
Yaman darıxmışam sənsiz, bil, qızım!
Üz tuturam gecə-günsüz göylərə,
Duaçıdır səndən ötrü dil, qızım!
Xəstəliyin yelə dönsün, ötüşsün,
Ulu Tanrım köməyinə yetişsin!
Sağlamalıqdan qismətinə pay düşsün,
Səadət gətirsin təzə il, qızım!
Qalıb sən gedəndən partanda gözüm,
Gəlmədin, yamanca darıxdım özüm.
Varımdı deməyə sənə bir sözüm,
Sevin ömrün boyu, deyib-gül, qızım!
Ürəyindən keçəni yaz göndərim,
Dağ qızı olsam da yüngüldür əlim.
İstəyirsən ardınca özüm gəlim,

Durub asta-asta dərsə gəl, qızım!
Mübarizə meydanıdır bu həyat,
Xəstəliyin pərdəsini çırıb, at!
Çarpayıdan qalx ayağa nəhayət!
Mənim Günay qızım, çiçək-gül qızım!

23 yanvar 1998 Bakı ş.

## KIBRIZ

Kıbrız Cümhuriyyətinin yaranmasının 10 illik yubileyi şərəfinə

Gül göndərdik ki, hər an
Kıbrız gülə bürünsün.
Yenilməz Denkdaşıyla
Ucalarda görünsün.

Alça gülü baharın,
Yazın sıcaq nəfəsi,
Öpsün Kıbrız torpağın,
Yüksəlsin şarkı səsi.

Çobanyastığı yanıb
Elə haray qoparsın,
Türk ellərin toplayıb
Özgürlüyə aparsın!

Qızılgül qəlbimizin
Sevgi, məhəbbət payı.
Xoş müjdələr gətirsin
Kıbrızın günü, ayı.

18 iyul 1999

## "AŞIQ PƏRİ" MƏCLİSİNƏ

Saz aşıqi olan pəri qızların
Məclisinə dəvət almaq olarmı?

Şeir aləmində, söz meydanında,
Əyləşməyə bir qaçqına yer varmı?
Baxdıqca xoş gəlir gözə, vurğunam,
Söylənən söhbətə, sözə vurğunam,
Qızların çaldığı saza vurğunam,
Ab-havası ürək açan baharmı?
Çevrilsə Mirvari bir an pəriyə,
Kəlbəcərli günlər dönər geriyə,
Bəlkə qəlb təsəlli tapa, kiriyə,
Saz könlümü dərd əlindən çalarmı?

20 mart 2001

## SONA MƏKTƏBİ

Bakı ş. 190 №-li orta məktəbin yubileyi şərəfinə

Ömrünün təzə tər , cavan yaşında
Etibar etdilər Ona məktəbi .
Elə çalışdı ki , dönüb yüz doxsan
Hər yerdə çağrıldı :-“ **Sona məktəbi**”.
Özüylə birlikdə ucalan məktəb
Özü ilə birgə yaşa da doldu .
Çox sadə görkəmli dərs otaqları
Çevrilib zəngin bir kabinet oldu .
**Sveta xanımın** ən çox sevdiyi
Məktəbdəki daxili intizamdı.
Dərs hissə müdiri işləyən gündən
Cədvəlimiz tədris boyu nizamdı .
Tutub əlimizdən **Hökumə xanım**
Yazmaq öyrədibdir “ ana” kəlməsin.
Sevmişik Səhhətin “Vətən “ şerini,
Elə şagird yoxdur onu bilməsin .

**Qənirə müəllim** zəhmət çəkib ki,
Səlis, aydın olsun danışıq dilim.
Cümləni sintaksis təhlil eləyib,
Şəkilçini kökdən ayıra bilim.

**Ətiqə xanımın** dərs otağında
Duyduq çiçəklərin, gülün ətrini,
Otu koldan seçdik, barsız söyüddən
Əzəmətli xan çinarın çətrini.

Sevdirdi fənnini **Şəfiqə xanım**...
Reaksiyaları elə ki, qandım,
Qələvi üstünə turşu gəlməklə
Mən də özümü bir kimyagər sandım.

**Sara müəllimdən** öyrəndim bu gün,
Öz-özünə günəş göydə yanırmış.
Sən demə tərpənməz zənn elədiyim
Yer kürəsi elə hey fırlanırmış.

**Sabir müəllim** təbaşirə batanda
Sevdiyim həndəsi fiqurlar oldu.
Zehnimə həkk oldu düstur,teorem,
Beşlər qazandığım uğurlar oldu.

**Zərifə xanımın** tarix dərsində
Babəkdən dönməzlik, qeyrət almışıq.
Səttarxandan, Cavad xandan iradə,
Xətai babamdan cürət almışıq.

**Afət xanım** Füzulinin diliylə
Qəzəl dünyasına bizi apardı.
Çölü sətir- sətir dolaşdıq o gün,
Məcnun Leyli deyib fəryad qopardı.

İnsan- cəmiyyətdən **Namiyə xanım**

Bizə gözəl ədəb- ərkan öyrətdi.
Davranışımızla ad- san qazandıq,
Yaxşı ki , vaxtında, erkən öyrətdi.
**Nüşabəylə Rizvaniyyə xanımın**
Çəkdiyi zəhmətlər getməyib hədər.
Dərsə gəldiyimiz elə ilk gündən
Sevirik onları anamız qədər.
Sehirli aləmdi **Fizzə xanımın**
Səylə öyrətdiyi fizika dərsi.
Göz necə cisimin formasın alır,
Anlatdı bizlərə "optika " bəhsi.
**Səriyyə xanımın** qapı dalından
Ayaq səsləri də tanışdı bizə.
Londonda Hamletin faciəsini
Bayronun dilində danışdı bizə.
Elə ki, cərgədən irəli çıxıb
Lövhənin önündə hərbi and içdim,
Sandım ki, müsəlləh əsgərəm mən də,
Xəyal qanadında cəbhələr keçdim.
Öyrənmişik idman meydançasında
Starta dayanıb top atmağı da,
Son gücü toplayıb rəqibdən öncə
Yüyürüb finişə tez çatmağı da.
Yorulanda **Nailə müəllimin**
Qəlbləri oxşayıb musiqi dərsi.
Rənglərin diliylə **Ulduz müıllim**
Bizdə oyadıbdı rəsmə həvəsi.
Qayğıkeş, mehriban bir ana kimi ,
Didərgin , qaçqın da aldı qoynuna.

Deyirlər :-”Ovudub bizi yüz doxsan,
Mənəvi dayaqçün borcluyuq ona.”
Şagirdlər çalışdı sizə bənzəsin ,
Cəsarət , dönməzlik sözlərə köçdü.
Elmin yollarında məşələ dönən
Gözünüzün nuru gözlərə köçdü.
Bir suala cavab arayıram mən...
Zəhmətiniz zehnə bilik nəqş edib.
Sizmi gətirmisiz məktəbə şöhrət ,
Yoxsa məktəb sizə şöhrət bəxş edib?!.

Fevral 2005

## ADPU-NUN TƏCRÜBƏÇİ TƏLƏBƏLƏRİNƏ

**Yasəmənə** haqdan ana təbiət,
Gözəllik bəxş edib əzəl binadan.
Bilik-bacarığı, intizamıyla
Müəllim doğulub sanki anadan.
Xəritə önündə səyyah misallı
**Şəlalənin** ala gözləri gülür.
Şagirdlər dərsini mənimsədikcə,
Üzündən təbəssüm, sevinc süzülür.
Həyalı, ismətli qız görkəmiylə,
Qəlbimdə əbədi qaldı **Əminə**.
Şərəflə keçdiyi sınaq dərsindən
Unudulmaz anlar bəxş etdi mənə.
İlk dəfə girdiyi dərs otağından
**Təranə** müəllim üzüağ çıxdı.
Ağlı, düşüncəsi, bacarığıyla,
Hayana üz tutsa yolu açıqdı.

Ciddi görünsə də hər an görkəmi,
**Laçının** çox həssas, kövrək qəlbi var.
İlk anda dil tapdı şagirdləriylə,
Yerində işləndi dərsdə metodlar.
Şux qamətli, şəvə saçlı, qaragöz
**Zəkiyyənin** dilimdə qaldı adı.
Dərs müzakirəsi yersizdi məncə,
Bircə qiyməti var:- o da "əla"dı.
Mirvari, zəhmətkeş gənclər görəndə
Hər an iftixarla vurur qəlbimiz.
İndi bu şərəfli tanışlıq üçün
**Məleykə xanıma** minnətdarıq biz.
18 aprel 1995, 190 №-li orta məktəb.

## YOXDU

Əmim oğlu şair Xəqaniyə

Aylar ötdü, il dolandı, darıxdım,
Əmim oğlu gələn sorağın yoxdu.
Əmin qızı yaddan çıxıbdı, yoxsa
Qələmin qurtarıb, varağın yoxdu?
Verlişdə hər kəlmən qəm yükülüydü,
Qəddin əyilmişdi, bel bükülüydü,
Üzünə pərişan tel tökülüydü,
Dəsən dağ yelindən darağın yoxdu.
Dərddaşınam, qəl qəmini bölməyə,
Səbəb tapaq qəlbdən deyib-gülməyə.
Yurda dönüb dərdə qalib gəlməyə
Arxasız igidsən, yarağın yoxdu? 5.01.2003

## OLAR

Şair Xəqaniyə

Əmim oğlu, xəlvət gəlib getmisən,
Demədin eşidib inciyən olar?!
Qürbətdə bir-birə dayaq olmasaq,
Bizdən nəzərlərin bil, əyən olar.

Arxam-dayağımsan, özün təsəllim,
Mehriban baxışın, gözün təsəllim,
Qəlb ovudan şirin sözün təsəllim,
Sormadın xətrimə bir dəyən olar?!

Qərib qızam, hərdən gəl yoxla məni,
Elsiz-günsüz dözüm yox, haxla məni.
Dərd seli aparır, çal, saxla məni,
Rişxəndlə: -"qəribə bax!"-deyən olar.

30 iyul 2003

## QARDAŞ

Şair Xəqaniyə

Gəl qəriblik daşın atıb,
Çəkilək dağlara qardaş!
Çevrilib bəyaz dumana
Bükülək dağlara qardaş!

Baxıb selin axışına,
İldırımın çaxışına,
Dönüb bir yaz yağışına
Tökülək dağlara qardaş!

Bala gəzən ahu kimi,
Gədiklərin mehi kimi,
Səhərin sübh şehi kimi
Səpilək dağlara qardaş!

Gah dərəyə, düzə dönək,
Gah cığıra, izə dönək,

Laləyə, nərgizə dönək,
Əkilək dağlara qardaş!
Mirvariyə yoldaş ol, gəl!
Xəqani tək sirdaş ol, gəl!
Qala qurmağa daş ol, gəl!
Tikilək dağlara qardaş! 13 iyun 2004

## DÜŞƏRDİMİ

"Kimi eşq deyir, kimi məhəbbət,
Məndəki bu hissin adı dəhşətdi.
Eşqin badəsindən ya mey, ya şərbət,
Mənim daddığımın dadı dəhşətdi..." - şerinə cavab.

Sevgi dəhşət olmasaydı,
Məcnun çölə düşərdimi?!
Leylisinə məhəbbəti
Dildən-dilə düşərdimi?!
Köç karvarı sıralanıb,
Sevən qəlbi yaralanıb,
Zöhrəsindən aralanıb,
Tahir gölə düşərdimi?!
Keşişin sınıb hiyləsi,
Açılsaydı yar düyməsi,
Xan Kərəmin yanıq səsi
Bəmdən zilə düşərdimi?!
Vurulmasa Yaxşı yara,
Tanrıdan istərmi çara?
Aşıq tərsinə məzara,
Bilə-bilə düşərdimi?!

Pərvanələr oda yanıb,
Şeyx Sənan dinin danıb.
Xan Çobandan aralanıb
Saram selə düşərdimi?!

Dağ çapılıb yar eşqinə,
Can qurbanı var eşqinə!
Koroğlu Nigar eşqinə
Eldən-elə düşərdimi?!

Nə sevdadır çəkir başım?
Mirvari, az qalır çaşım.
Qəlb yanmasa gözdən yaşım,
Gilə-gilə düşərdimi?!

13 iyun 2004

## DÖZÜRSƏNMİ

Qəflətən xəstələnən şair Xəqaniyə

Kəlbəcər adlı cənnətin
Həsrətinə dözürsənmi?
Qohum-qardaş görməyəndə,
Tənhalıqdan bezirsənmi?

Dərd əlindən könül dinə,
Çevrilə fəryada, ünə,
Yığıb kədər, qəm köksünə
Ürəyini əzirsənmi?

Qəlb başlasa çağlamağa,
Məlhəm varmı bağlamağa?
“Anam”-deyib, ağlamağa,
Bir bəhanə gəzirsənmi?

Hicran oduna qalanıb,
İçəri-çölə boylanıb,

Dar otağı dörd dolanıb,
Şirin canı üzürsənmi?

Çək aranda dağ dərdini,
Murov, Dəlidağ dərdini.
Mirvari tək dağ dərdini,
Sətirlərə düzürsənmi?

10 may 2005

## AŞIQ İMRANA

Ağır xəstə yatan Aşıq İmrana

Aşıq qardaş, xəstəyə baş çəkməyə,
Qaçqın düşüb, el gətirə bilmirəm.
Min bir dərdə dərman edən dağlara
Əlim çatmır, gül gətirə bilmirəm.

Dedilər təbiblər nar dərman deyib,
Ürəyi yanana qar dərman deyib.
Axtar Kəlbəcərdə var, dərman deyib
Dağ balını, bil gətirə bilmirəm.

Dərdinə şəfalar Tanrıdan istə!
Möcüzə göstərsin, sağalsın xəstə.
Bacın qurban kəssin bulağın üstə,
Arzulayır dil, gətirə bilmirəm.

Dekabr 2004

## QAYIT

Ürəyində cərrahiyyə əməliyyatı aparılması üçün Tehran şəhərinə gedən qardaşım Qismətə...

Yolun açıq olsun, ay bacın qurban!
“Nəzərdə saxlasın səni Yaradan!”-
Deyən duaçınam, hər saat, hər an,
Getdiyin diyarda kama çat, qayıt!

Qardaşım, sağ gedib, salamat qayıt
Üz tutub vardığın ellər şəfalı,
Əhvalını soran dillər şəfalı,
Ürəyinə dəyən əllər şəfalı,
Yuxuların şirin olsun, yat, qayıt!
Qardaşım, sağ gedib, salamat qayıt!
Yastığa baş qoysan üz yorulmasın!
Qəlbin sızıldasa döz, yorulmasın!
Yollara dikilən göz yorulmasın!
Həftəni aylara, günə qat, qayıt!
Qardaşım, sağ gedib, salamat qayıt!
Acı dərmanların şəkərə dönsün!
Gecələrin nurlu səhərə dönsün!
Tehran cənnət misal şəhərə dönsün!
Çiçəyə bələnib, gülə bat, qayıt!
Qardaşım, sağ gedib, salamat qayıt!
Haqq sənə yar olsun, təbib səbəbkar,
Gözü yolda qalan balaların var.
Atan namaz üstə, anan duakar,
Dərdi ürəyindən silib at, qayıt!
Qardaşım, sağ gedib, salamat qayıt!

2 aprel 2005

## YARDAN NƏ XƏBƏR?...

Nişanlısına olan sevgisi deyəsən əsgər oğlumu şairə döndərib...

Ana!...Aylı-ulduzlu gecədəyəm,
Mərd, igid oğullarla cəbhədəyəm,
Qorxulu, vahiməli səngərdəyəm,
O qoyub gəldiyim yardan nə xəbər?
Sıxılıb darıxdım bilsən nə qədər!..

Ağdamda üçüncü batalyondayam,
Gecə-gündüz durmuşam, postdayam.
Bu gün axşamacan “naryad”dayam,
O qoyub gəldiyim yardan nə xəbər?
Sıxılıb darıxdım bilsən nə qədər!..

İstəyirəm yarı gözümlə görüm,
Şəvə saçlarımı əlimlə hörüm,
Ay anacan, sən mənə bir de görüm,
O qoyub gəldiyim yardan nə xəbər?
Sıxılıb darıxdım bilsən nə qədər!..

Zəng edib əhvalın sorurmusan heç?
Hərdən gedib yarı görürmüsən heç?
“Qızım” – deyib, boynun sarırmısan heç?
O qoyub gəldiyim yardan nə xəbər?
Sıxılıb darıxdım bilsən nə qədər!..

Mən bir qız sevmişəm, adı Günaydı!
Gözü nurlu, üzü bədirli aydı.
Allahımın mənə verdiyi paydı.
O qoyub gəldiyim yardan nə xəbər?
Sıxılıb darıxdım bilsən nə qədər!..

Oğlun Şaiq yamanca darıxıbdı,
Həsrətindən gül kimi saralıbdı,
Bu gün yüz otuz səkkiz gün sayıbdı,
O qoyub gəldiyim yardan nə xəbər?
Sıxılıb darıxdım bilsən nə qədər!..

Əsgər Şaiq Fərəcov, 11 fevral 2007, Ağdamın Mahrızlı kəndi

## YAXŞI XƏBƏRİM VAR

Əsgər oğlum Şaiqə bir təsəlli məktubu…

Əsgər oğlum, anan qurban boyuna,
Sən yar sevdin, məni saldın oyuna.
Allah qoysa elim gələr toyuna,
Nə yaman darıxıb sorursan xəbər?
Deyiləsi söz var bilsən nə qədər!...
Üçüncü batalyon ərlər məskəni,
Vahiməyə salır qarı düşməni.
Ayrılıq, intizar sıxmasın səni,
Düşməsin qəlbinə qəm, qüssə, kədər,
Qarşında xoş gün var bilsən nə qədər!…
Ömrün vaxt ölçüsü saat, gün, aydı.
Sayma oğlum, keçən neçə gün, aydı.
Sən əvəzdən bizə həmdəm Günaydı,
Çəkdiyimiz zəhmət getməyib hədər,
Yaxşı xəbərim var bilsən nə qədər!...
İki evin vardır gözəl bir qızı,
Çəkiləsi deyil işvəsi, nazı,
Zəngləşirik gündə üç dəfə azı,
“Darıxar, Şaiqə şikayət eylər”,
Deyə, təşvişdəyik bilsən nə qədər!...
Müntəzir durmuşuq yar qulluğunda,
Atan, anan, qardaş var qulluğunda.
Tufan qopsa, yağsa qar, qulluğunda
Hazırıq, hər kimi çağırsa gedər.
Biz onu sevirik bilsən nə qədər!...
Vaxt gələr, ayrılıq intizar bitər,
Az şikayət eylə: -“darıxdım!”- yetər!
Qovuşarsız, qəlbin sevincdə itər,
Haqqa duaçındır yar səndən betər,

Həsrətini çəkir bilsən nə qədər!...
Təlimdə tər tökər əsgər, darıxmaz!
Meydanda göstərər hünər, darıxmaz!
Yurd qoruyar axşam-səhər, darıxmaz!
Doqquz ay ötüşdü, üç ay da ötər,
Xoşbəxt anların var bilsən nə qədər!...

Bakı ş, 20 mart 2007

## ZÜLFİYYƏ

Aşiq Zülfiyyəyə

Can bacım, bir "Yanıq Kərəmi" üstə
Söyləyim, dərdimi say, ay Zülfiyyə.
Əsir-yesir olub düşmən əlində,
Qaldı Kəlbəcərim vay, ay Zülfiyyə!
Neçə aylar, illər oduna yandıq,
Gecələr gec yatıb, sübhdən oyandıq,
Keşiyində ayıq-sayıq dayandıq,
Oldu zəhmətimiz zay, ay Zülfiyyə!
Gözüm gəzir qohum-qardaş səhərdən,
Mirvari boğulur dərddən, qəhərdən.
Səsləsə hərə bir kənddən, şəhərdən
Verər harayıma hay, ay Zülfiyyə!

## QIZIM, HƏYAT MÜBARİZƏDİR…

Qəflətən xəstələnən gəlinim Günaya

**Günay-** Bu geniş dünyanın dar cığırında
Kiçilir gözümdə vaxt da, zaman da.
Bilmirəm, bəlkə də ömrüm qısalır,
Yox olur hər cizgi xəyallarımda.
**Mirvari-** Bədbin fikirləri çıxar başından!

Tər qönçəsən, çiçək açan vaxtındı.
Naz eyləyib bulbul kimi aşiqə,
Qızılgülsən, ətir saçan vaxtındı.

**Günay-** Hər an gileyliyəm fani həyatdan,
Yalqızdır ürəyim çətin anlarda.
Elə hey çırpınıb qalan zamanda
Yox olur hər cizgi xəyallarımda.

**Mirvari-** Bu həyatdan istəyini alınca,
Çarpış, vuruş, gəl baş qoyma balınca.
Saf diləklər, gözəl arzu dalınca
Pərvazlanıb quş tək uçan vaxtındı.

**Günay-** "Gələcək" sözünü hər an duyanda,
Keçmiş bir yandadır, bu gün bir yanda,
Qoymur, irəliyə gedən zamanda
Yox olur hər cizgi xəyallarımda.

**Mirvari-** Unut keçmişini, gələcəyə bax!
Sıyrıl çətinlikdən, ildırım ol, çax!
Ümidsizliyini od ol, yandır, yax!
Günəş olub şəfəq saçan vaxtındı.

8.11. 2009. Bakı ş.

## OLAYDIM

Kəndimizin igid oğlu Dilqəmə...

Dilqəm, səni doğma yurda aparan,
Dağları dolanan izin olaydım.
Həsrət baxışların öpüb, oxşayıb,
Kəlbəcəri görən gözün olaydım.

Meyvəsin dərməyə göyəm kolların,
Turşsudan keçibdir kəsə yolların.
Qucmağa açdığın qulac qolların,
Torpağa qoyduğun dizin olaydım.

Yorulub getmisən çölünə sarı,
Susayıb enmisən gölünə sarı,
Əlin uzananda gülünə sarı
Sübh şehə bələnən üzün olaydım.

Xəzəl xalın olub, duman bürüncək,
Kəndimiz sevinib çöhrəni görcək.
Yuxusu çin çıxıb, xəyalı gerçək,
Dərdini böləndə sözün olaydım.

Qardaş, ana yurdu görüb gəlmisən!
Köksünü sevgiylə hörüb gəlmisən!
Könlünü dağlara verib gəlmisən!
Eşqi bəyan edən sazın olaydım.

20 sentyabr 2010

## SƏNİ

Oğlum Aqşinə zarafatla...

Otuz illik məhəbbəti unutdun?!
Yolundan azdırdı Sonalar səni?!
Zəngləşərdik gündə bir dəfə azı,
Qıyma etibarsız sanalar səni!

Bir Muğan gözəli qəlbini çalıb,
Deməsin ki, səni əlimdən alıb.
Çalış qoy sevgiylə yadına salıb,
Gözəl xatırlayıb, analar səni!

Bu zarafat könül açan söz olar,
Oxuyanda  çöhrəyə gülüş qonar.
Nə vaxt gəlsən göz üstündə yerin var,
Bakıda gözləyir analar səni!

10 aprel 2011

## SEGAH

**Gunel Laçın-** Habil kamanında imdad dilərək ,
Gör necə ah çəkib ağladı segah.
Sanki dərd əlindən fəryad edərək,
Bir dəli çay kimi çağladı segah.

**Mirvari-** Görüb Dəlidağdan ağır dərdimi
Dəli bir ah çəkib, ağladı segah.
Dözmədi görəndə qaçqın halımı,
Qoşulub könlümə çağladı segah.

**Gunel Laçın-** Közmü götürübdür Kərəm odundan?
Yoxsa alışıbdır Məcnun ahından?
Bəlkə nakamların belə adından,
Dağları,daşlari dağladı segah?

**Mirvari-** Qəlbimin odundan köz düşdü, yandı.
Sığındı köksümə, qəmə boyandı.
Fəryadı yüksəlib zildə dayandı,
Neçə ürəkləri dağladı segah.

**Gunel Laçın-**Ona həmdəm olub kaman da,tar da,
Bəs mən ürəyimi ovudum harda?
Eşidib səsimi qoymadı darda,
Mənim də dilimdən ağladı segah.

**Mirvari-** Yanına tar, kaman, telli saz aldı,
Mirvari sehirli aləmə daldı.
Kədərin əlindən könlümü çaldı,
Məlhəm, sarğı qoyub bağladı segah.

**NƏ DƏRDİ VARDI**

"Ozan" verilişində çıxış edən Aşıq Mehdiyə...

Nə yaman sızladın, a Mehdi qardaş!
"Kəlbəcər" söylədin gözün yaşardı.

"Dağa qalxan elat, yurd yeri"-deyib,
Danışırdın...Fikir məni apardı...
Titrəyən səsinin nə dərdi vardı?!
Xəyala baş vurdun, sözün inlədi,
Xatirəyə daldın özün, inlədi,
Tellərdə gəzişən sazın inlədi,
Yara qəlbin qaysağını qopardı.
İnləyən sazının nə dərdi vardı?!
Avazında bu nə fəryad, nə ündü?
Səsin, sədan ahla dolu hüzündü.
Üzündə kədərli kölgə gəzindi,
Dağ olsaydı, dərdə dərman tapardı,
O kövrək qəlbinin nə dərdi vardı?!
Yaylaqlar, yurd yeri yadamı düşdü?
Dərd çəkməkdən könlün odamı düşdü?
Zilə çəkdin, dağa sədamı düşdü?
El aşığı xoş müjdəçi, çapardı,
Qəmli baxışların nə dərdi vardı?!
Qardaş, buz bulaqdan içənlərim var!
Məcbur olub yurddan köçənlərim var!
Demirsən ürəyi keçənlərim var?
Həsrət, hicran dağlar qızına yardı.
Qəlbində Kəlbəcər, el dərdi vardı.

29 iyul 2011

## DÖZÜMLÜ OL

**Şakir -** Üz tutub qürbətə ay şair qardaş,
Düşmüşəm elimdən gen, neynəmişəm?!
Vermişəm yaxamı qəmlər əlinə,
Ömrü keçirməyib şən, neynəmişəm?!

**Mirvar -** Qürbətdə yaşayan ay Şair qardaş!
Elindən düşsən də gen, dözümlü ol!
Yaxanı qəmlərə, dərdə tanıtma,
Ömrünüz ötüşsün şən, dözümlü ol!

**Şakir -** Könül pərvaz edər dağlara sarı,
Gələndə yurdumun güllü baharı,
Uzun ayrılığın iztirabları
Salıb saçlarıma dən, neynəmişəm?!

**Mirvar -** Bahar gəlib sellər aşıb-daşanda,
Duyğuların coşub həddin aşanda,
Yad dildə danışan dil dolaşanda,
Düşsə qara telə dən, dözümlü ol!

**Şakir -** Dar gündə gərəyi olmamışamsa,
Bir güllə yarası almamışamsa,
Ölüb torpağında qalmamışamsa,
De, Vətən! Yolunda mən neynəmişəm?

**Mirvar -** Vətənə igidi, əri gərəkdir!
Torpağa tökülən təri gərəkdir!
Savaşmağa şiri-nəri gərəkdir!
O zaman gələrsən sən, dözümlü ol!

Yanvar 2012

## NƏVƏLƏRİMƏ

Siz gəldiniz, mənə nənə dedilər,
Mənə ad verənin adına qurban!
Deyirlər övladda şirindir nəvə,
Nəvələrin şirin dadına qurban.

Tanrının verdiyi pay bizim evdə,
Qohum-qardaş səsi, hay bizim evdə,
Şadlıq, şadyanalıq, toy bizim evdə,

Bunları bəxş edən qadına qurban!
Mirvari tutandan bir nəvə əlin,
Dönüb nənə oldu dünənki gəlin.
Dost-tanış, el-oba təbrikə gəlin!
Oğul! Oğul-qız övladına qurban!

7 fevral 2012

## QAYIT GƏL

Elə sən gedəli sərgəndar qalıb,
Dikilib yollara gözüm, qayıt gəl!
Dincliyin itirib qəlbim o vaxtdan,
Qalmayıbdı məndə dözüm, qayıt gəl!
Ayrılıqmış payım gənclik vaxtımdan,
Elə bil enmişəm şahlıq taxtımdan,
Əzəlindən qara gəlmiş baxtımdan
Varımdı gileyim, sözüm, qayıt gəl!
Mirvari üzünün həsrətindədi,
Bir şirin sözünün həsrətindədi,
Gözlərim gözünün həsrətindədi,
Özünə də qurban özüm, qayıt gəl!

20 oktyaba 1996

## QURBAN OLUM

Bəhanə axtarır həsrət gözlərim,
Axıtmağa leysan, sel, qurban olum.
Qabarlı əlinin tumarı üçün

Yaman darıxıbdı tel, qurban olum.
Məhəbbətlə mənə bir yol baxmağın,
Bəsimdi qəlbimi oda yaxmağın.
Güclü qollarından kəmər taxmağın
İntizarın çəkir bel, qurban olum.
Geri dön, qoy bayram etsin Mirvarı!
Arxalansın, qəlbdən sevinsin barı.
Üz tutub yol başla Vətənə sarı,
Yolunu gözləyir el, qurban olum.

## YORĞUN DÜŞÜB

Zərif çiyinlərim tablaşmır daha,
Dərd yükün çəkməkdən bil, yorğun düşüb.
Baxmaqdan yolları bezikdirmişəm,
"Qayıt gəl!" - deməkdən dil yorğun düşüb.
Dolaşıb açılmır bəxtin düyünü,
Gəlib sənə çatmır qəlbimin ünü.
Təqvimdə saymaqdan hər keçən günü,
Aylar təngə gəlib, il yorğun düşüb.
Mirvari, gözlərin doldu- deyirlər,
Yanağın saralıb-soldu- deyirlər,
Tel ayrılsa, dönən yoldu- deyirlər,
Saçımdan ayrılan tel yorğun düşüb.

## TƏLƏS

Deyirsən: - "Nigaran qalma geciksəm!"
Səninçün nigaran necə olmayım?!
Getsən ya yaxına, ya da uzağa

Tələs, bircə an da sənsiz qalmayım...
Gedirsən, ürəyim səninlə gedir...
Gözüm yolda qalır, qulağım səsdə...
Əlim işə yatmır, qəlbim ovunmur,
Elə bil mənimlə giribdi qəsdə...
Səninlə Mirvarin xoşbəxt, bəxtiyar,
Baharda çağlayan bulaqlar kimi...
Gəl, qoşa dayanıb əl-ələ verək,
Göylərə ucalan qovaqlar kimi...

## NİŞAN VERDİN

Demə burdaymışsan, bilməmişəm mən,
Necə də yerini tez nişan verdin...
Demirsən məclisdə bədnəzər çoxdur,
Qorxmursanmı dəyər göz, nişan verdin?!
Həyatımda sevgi adlı naxışlar,
Mənə sevinc dolu dünya bağışlar.
Üzümə zillənən odlu baxışlar,
Salar aralığıa söz, nişan verdin.
Mirvari, məqamın seç, yeri deyil,
Hər şeyin vaxtı var, keç, yeri deyil.
Söz deməyin indi heç yeri deyil,
Çox belə tələsmə, döz, nişan verdin.

## NEYNƏSİN

Deyirlər:- Xoşbəxtlik öz əlindədir!
Bəxtim dönük çıxıb, əllər neynəsin?!
Bülbül tək ötürsə, heyrətli nə var?

Dərddi dilləndirir, dillər neynəsin?!
Gen dünya dar gəlir yarsız-yoldaşsız,
Könül viranədir, ürək sirdaşsız,
Atasız- anasız, qohum-qardaşsız,
Vaxtsız ağarmasın tellər, neynəsin?!
Yük əydi, daş düşdü qürbət ellərə,
Ömrün gənclik çağı düşdü sellərə,
Mirvari, yalvarma ötən illərə,
Hökmü zaman verib, illər neynəsin?!

1987, RF Novosibirski vil, Çerepanov ş.

## NƏĞMƏ

Deyirəm sevirəm, oğlan inanmır,
İşarə edirəm, birini qanmır,
Mən onun dərdindən dəliyəm, dəli,
O isə heç məni bircə yol anmır.
Sən kəhər at üstə yola çıxanda,
Hicranın qəlbimi oda yaxanda,
Fikrindən nə keçir, bilə-bilmirəm.
Şübhəni qəlbimdən silə bilmirəm.
Atını yanımda yavaşca əylə,
Şirin sözlərinlə:- "sevirəm"- söylə,
Bu tərəddüdləri ay oğlan, boşla,
Göndər elçiləri, toy-düyün başla...
Sevirəm, sevirəm, səni mən oğlan,
Sevirəm, sevirəm, eşqimə inan!...

1979, Kəlbəcər ş.

## NUR ƏLƏNDİ

Məni yalqız qoyub getdin,

Gözümdə yaş gilələndi...
Bulud ağladı dərdimə,
Çaylar daşdı, liləndi...

Sənsiz dərdim nə yaman çox!
Tablaşmaq da çətindir, ox!
Həsrətinə dözümüm yox,
Səbr kasam siləndi...

Gəl! Dil açsın könül neyim...
Bir al-əlvan libas geyim...
-Mirvari, xoş gündür! – deyim,
Qəlb evimə nur ələndi...

28 iyul 1982, Kəlbəcər ş.

## MƏKTUB

Ay insafsız, demirsən
İntizarda qalan var?!
Sənsiz könlü darıxıb,
Gözü yaşla dolan var?!

Qızılgülü dərib tək,
Eyvanına sərib tək,
Sənsiz bizi qərib tək
Nəzərindən salan var?!

Qəm iz salıb üzündə,
Dərd gizlənib sözündə,
Arzuları gözündə,
Könül mülkü talan var?!

Uzaq düşən elində,
Gül qoxusu telində,
“Ata!”-sözü dilində,
Yol gözləyən balan var?!

Şərbət içdim ağıdan,
Yoxdur məni ovudan,
Nə dərdimi dağıdan,
Nə könlümü alan var!...

10 avqust 1981

## HƏSRƏT

Yenə yollar uzaqlara,
Hey, aparıb getdi səni...
Gözləyimmi, unudummu
Ümüdümü tam kəsəni?!...

Göz yaşlarım süzüldükcə
Al yanağım soldu mənim.
Hey baxmaqdan yollarına,
Səbr kasam doldu mənim.

Ay Mivari, nə vaxt sona
Yetəcəkdir ahım, ünüm?!
Haçan geri dönəcəkdir,
O qayğısız, xoşbəxt günüm?!

Dekabr 1984, RF Perm vil, Osa ş.

## QİSMƏTİM BELƏMİ OLMALIYDI

Yenə hədəf seçib məni zəmanə,
Araya ayrılıq salmalıydımı?!
Qəmi qucaq-qucaq, dərdi bol verib,
Sevinci əlimdən almalıydımı?!

Öz-özümə heyran qaldım özüm də,
Mənim kimi kimsə varmı dözümdə?!
Ulu Tanrım, dilək, istək gözümdə,
Arzum ürəyimdə qalmalıydımı?!

Mirvari, qovuşub sən də muraza,
Ömrünün qışından çıxdınmı yaza?!
Gəlib dərd əlindən qəlb etizaza,
Bir "Yanıq Kərəmi" çalmalıydımı?!

## HÖRMÜŞƏM

İşləmək üçün Sibirə gedən həyat yoldaşıma

Sənə göndərdiyim isti köynəyə
Sevən qəlbin məhəbbətin hörmüşəm.
Şaxtada vücudun donmasın deyə,
Ürəyimin hərarətin hörmüşəm.
Düz ilmələr düz ilqarın timsalı,
Mavi rəngi bəyan etsin vüsalı,
Çeşni əvəzinə Leyli misalı,
İntizara dəyanətin hörmüşəm.
Hasil olar, Haqqdan dilək diləsən!
Könlümdə, gözümdə sənsən, elə sən...
Naxışın yerinə yazdım biləsən,
Mirvarinin sədaqətin hörmüşəm.

Yanvar 1985

## QOYMA

Sənsiz kədər, qüssə, möhnət
Qəlbimə yol sala, qoyma!
Dilədiyim arzu, dilək
Ürəyimdə qala, qoyma!
Əlindən üzülüb əlim,
Dolaşıbdı imran dilim.
Ağarıbdı qara telim,

Gör düşüb nə hala, qoyma!
Mirvari, ol yara yazın,
Gəl, dilləndir könül sazın!
Səni sevən Dağlar qızın
Çəkməyə ah-nala, qoyma!

## ƏYLƏMİR

Bir zalımın əsiriyəm haçandır,
Nə vaxt azad edəcəkdir, söyləmir.
Baxışı yandırıb-yaxdı qəlbimi,
İnsafa da gəlib məlhəm eyləmir.
Küllü ixtiyarı alıb əlimdən,
Əzbər olub, adı düşmür dilimdən.
Nə öldürür, nə qurtarır zülümdən,
Təbib olub yara qəlbi teyləmir.
Mirvari, mən Məcnun nişanəsiyəm,
Qara gözlərinin divanəsiyəm,
O şamdı, mən onun pərvanəsiyəm,
Hey dolanıram başına, əyləmir.

## ƏLİN BƏYDİMİ

Gözləyirsən yirmi ildi yolumu,
Tanrım indi məndən nəzər əydimi?!
Üç saatı yazıb üzə vurursan,
Gecikməyim xatirinə dəydimi?!
Daha ev işləri başını qatmır?
Dözümmü tükənib, səbrinmi çatmır?

Gündüzlər yol çəkir, gecələr yatmır,
Gözündən oxunan bu gileydimi?
Eytiyaca dözmür ata ürəyim,
Uşaqları oxutmaqdır diləyim,
Bilmirsənmi daşdan çıxır çörəyim?!
Yoxsa elə bildin, Əlin bəydimi?!...

## GERİ DÖN

Gəzirəm ardınca payi-piyada,
Sənsə atlı çaparmısan, geri dön!
Hər dəfə araya salıb ayrılıq,
Ürəyimi qoparmısan, geri dön!
Söndürdün işığı, nuru gözümdən,
Sildin təbəssümü güləş üzümdən,
İxtiyarımı da alıb özümdən,
Özün ilə aparmısan, geri dön!
Bütün varlığıyla sevib Əlini,
Mirvarin əl açıb, uzat əlini!
Gəl ovundur Məcnun kimi dəlini,
Belə sevən taparmısan, geri dön!

25 sentyabr 1997

## GETMİSƏN

Şirin söz, təsəlli, ümid yerinə,
Ürəyimi yaralayıb getmisən...
Kədəri, möhnəti, dərdi sinəmdə,
Düzüm-düzüm sıralayıb getmisən...
Harda görsən ağlayan göz, o mənəm!

Saralmış çöhrə, solmuş üz, o mənəm!
Eşitsən qəlb dağlayan söz, o mənəm!
Taleyimi qaralayıb getmisən.
Mirvarini qəm sarıb, ələmdədi,
Qüssə, qəhər notları naləmdədi.
Cismim evdə, ruh başqa aləmdədi,
Məni məndən aralayıb getmisən.

22 oktyabar 1997

## GƏL

Ayrılıqdan təngə gəlib
Qəm neyini çalıram, gəl!
Unudub gerçək həyatı,
Xəyallara dalıram, gəl!
Perikdirib göz yuxusun,
Yatmır gecənin çoxusun,
Nəfəsinin gül qoxusun,
Yastığından alıram, gəl!
Gah paltarı tərs geyirəm,
Aqşinə Şaiq deyirəm,
Çörək yox, dərd-qəm yeyirəm,
Tellərə dən salıram, gəl!
Qulağım nə səsdi çalıb?!
Gözlərim qapıda qalıb...
Qənd yerinə duzu alıb
Şirin çaya salıram, gəl!
Gəl əzizim, yetiş dada!
Məni möhtac qoyma yada.
Mirvari, bu gen dünyada,
Sənsiz yalqız qalıram, gəl!

26 iyun 1998

## TƏBRİKƏ GƏLSİN

Ad günündür, əlim çatmır Sibirə,
Yalvarıram yellər təbrikə gəlsin!
Nur çiləsin Günəş ömür yoluna,
Yağan yağış, sellər təbrikə gəlsin!
Ay keşikçin olsun gözüm əvəzdən,
Meh öpsün üzündən özüm əvəzdən,
Qol salıb boynuna bizim əvəzdən,
Əzizləsin güllər, təbrikə gəlsin!
Əlisin bəladan, dərddən ötürən,
Sağ-salamat qürbət eldən gətirən,
Mirvariyə müjdə kimi yetirən,
Qovuşduran illər təbrikə gəlsin!

10 avqust 1998

## GÖRƏN

Həsrətlə, hicranla döyüşdüyüm an,
Səsim qulağına çatırmı görən?!
Arxalanıb ümid yeri sandığım,
Gecələr yuxusun qatırmı görən?!
Üz çevirib qürbət elə varalı,
Yalqız necə gəlir səbri-qərarı?!
İsti ocağından, bizdən aralı,
Arxayın uyuyub yatırmı görən?!
Mirvari, əhdini, andını danıb,
Yəqin subaylığı soltanlıq sanıb.
Gözləri yollarda qalanı anıb,
Qəriblik daşını atırmı görən?!

2 oktyabr 1998

## DEMİŞƏM

Zəng etməyə vaxtına qıymamısan,
Mən ömür sərf edib azdı, demişəm.
Uğrunda düşmüşəm qara, çovğuna
Donmuşam, sənunlə yazdı, demişəm.

Qohumdan, qonşudan kədəri danıb,
İçimdə çəkməkdən ürəyim yanıb.
Hər gecikməyini şıltaqlıq sanıb,
Yarın elədiyi nazdı, demişəm.

Ağac olub yolun üstə bitmişəm,
Bülbül çevrilib dil-dil ötmüşəm.
Dərd əlindən ilim-ilim itmişəm,
Sorana:- Mirvari azdı, demişəm.

3 oktyabr 1998

## MƏHƏBBƏT DƏLİSİYƏM

Yaxşi tanımamısan
İndiyəcən məni sən...
Gah tutmalı çağırıb,
Gah da dəli deyirsən...

Əzəldən aramıza
Elə girib ayrılıq,
Nəçiyəm, nəkarəyəm
Yadında qalmayıbdı,
Mənim dəliliyimdən
Xəbərin olmayıbdı.

Sönübdü nəzərimdə
Sənsiz doğan günəşim,

Acığımdan, hirsimdən
Dünyamdan üz döndərib,
Nəzərimi əymişəm.
Mən onda dəliymişəm...

İntizarla, həsrətlə
Hey çarpışa-çarpışa,
Dayanıb yolun üstə
Yol gözlərkən səbrimlə,
Dözümümlə nəymişəm?!
Mən onda dəliymişəm...

Qırpmadan gözlərimi
Cansız şəklə zilləyib,
Təsəlli uma-uma
Sübhəcən oyaq qalıb,
Şəklə gileylənmişəm.
Mən onda dəliymişəm...

-Uzaq, qərib ellərdə
Qapısını açanı,
Xörək bişirəni yox...
Beləcə fikirləşib,
Ürəyimi yemişəm.
Mən onda dəliymişəm...

Yayın qızmar günündə
Yanan ayaqlarımın
Ağrısını unudub
Arxanca Kəlbəcərdən
Bakıyacan gəlmişəm.
Mən onda dəliymişəm...

Dalınca Tırnauza-

Qürbətə getməyimlə
Sözlərinə baxmayıb
Atamın, anamın da
Xatirinə dəymişəm.
Mən onda dəliymişəm...

Könüllü sürgünlüyü
Qəbul edib ürəkdən
Sənin xatirin üçün
Sibirin şaxtasında
Valenka da geymişəm.
Mən onda dəliymişəm...

Yağıların əlindən
Aldığım yaraların
Ağrısından qıvrılıb,
Təbibim, məlhəmim də
Elə səni bilmişəm.
Mən onda dəliymişəm...

"Dəli" sözü qoy səni
Qorxutmasın əzizim!
Dəlixana dəlisi
Deyiləm, arxayın ol!
Təbiblər təsdiqləyib,
Möhür vurub, çəkib qol.

Neyləyim, başqa cürə
Olmağı bacarmıram.
Ürəkdən vurulduğum
Əlinin Leylisiyəm.
Mirvari, eşq aşiqi,
Məhəbbət dəlisiyəm!

10 sentyabr 1998

## İNTİZAR

Yarım tənha, yalqız gəzib dolaşır,
Mən qalmışam baxa-baxa dalınca.
Nə zəng edir, nə bir namə göndərir,
Canım çıxır bircə soraq alınca.
Dərdimi kimsəyə qandırmasamda,
Eytiyacı dosta andırmasamda,
Gündüzlər özümü sındırmasamda,
Gecələr göz yaşım axır balınca.
Dönsə, gözüm yoldan yığılacaqdır,
Mirvari, dərd-qəmim dağılacaqdır.
Dost-tanış başıma yığılacaqdır,
Əlləri qapımın zəngin çalınca.

## KÜSMÜRƏM

Adi mənim, özü yad olan yarım,
Talehdən küsürəm, səndən küsmürəm.
Aramıza elə girib ayrılıq,
Dolanırsan bizdən gendən, küsmürəm.
Bilməmişəm, qara bəxt mənə yarmış,
Gör necə uğursuz qismətim varmış.
Həsrətdən, hicrandan vaxtsız ağarmış
Tellərimə düşən dəndən küsmürəm.
Mirvarin nə çəkir bil ucbatından,
Yaman söz danışan dil ucbatından,
Ömrümü talayan il ucbatından

Səadət gen düşüb məndən, küsmürəm.

Dekabr 1998

## HAY SALMIŞAM

Ağarmazdı ömrüm boyu,
Ayrılıq dən saldı telə.
Həsrət, hicran tökməsəydi,
Dönməzdi göz yaşım selə.
Qəm qapımı döyməsəydi,
Dərd qəlbimə dəyməsəydi,
Kədər məni əyməsəydi,
Etməzdim ah-nalə belə.
Mirvari, dərd çəkənmişəm,
Son ümidə söykənmişəm,
Dözüm bitdi, tükənmişəm,
Hay salmışam doğma elə.

## YORĞUN DÜŞÜB

Zərif çiyinlərim tablaşmır daha,
Dərd yükün çəkməkdən bil, yorğun düşüb.
Baxmaqdan yolları bezikdirmişəm,
Qayıt gəl deməkdən dil yorğun düşüb.
Dolaşıb açılmır bəxtin düyünü,
Gəlib sənə çatmır qəlbimin ünü,
Təqvimdə saymaqdan hər keçən günü
Aylar təngə gəlib, il yorğun düşüb.
Mirvari, gözlərin doldu deyillər,
Yanağın saralıb-soldu deyillər,
Tel ayrılsa dönən yoldu deyillər,

Saçımdan ayrılan tel yorğun düşüb.
24 noyabr 1999

## GƏL

Gücüm çatmadığı ailə yükün
Tək-tənha çiynimə götürmüşəm, gəl!
Səadət, bəxt quşum uçub əlimdən,
Yamanca fürsəti ötürmüşəm, gəl!
Səliqəm pozulub, əl işə yatmır,
Dost-tanış gəlişi başımı qatmır,
Əsəblər gərilib, hövsələm çatmır,
Dözümü, səbrimi bitirmişəm, gəl!
Tanrıdan qisməti alammıram ki,
Ömrümü düzənə salammıram ki,
Mirvari, bəxtimnən dolammıram ki,
Çaşmışam, başımı itirmişəm, gəl!

## NƏ GÜNAHI VAR

Ayrılıq, həsrət ağladır,
Gözümün nə günahı var?
Yaş qarsıdıb, saraldıbdı,
Üzümün nə günahı var?
Dərdim dağlardan ağırdı,
Könlüm həmdəmin çağırdı,
Harayımdan qəm yağırdı,
Sözümün nə günahı var?
İtib əzmim, dəyanətim,
Sarsılıbdı mətanətim,
Bitib, tükənib taqətim,

Dözümün nə günahı var?
Ömür mülkümdü sökülür,
Xəzələ dönüb tökülür,
Artıq qəddim də bükülür,
Dizimin nə günahı var?
Mirvari, nə qiyamətdi?
Ömür ki, var əmənətdi.
Tanrı verdiyi qismətdi,
Özümün nə günahı var?

## QALMADI

Min cürə dil tökdüm illər uzunu,
Daha deyiləsi sözüm qalmadı.
Səmtin dəyişəndən ayaq izlərin,
Kəsildi yolundan gözüm, qalmadı.
Gecəli-gündüzlü yol gözləmişəm,
Qolumdan tutacaq qol gözləmişəm.
Deyirdim:-həmdəmim ol!– gözləmişəm,
Tükəndi taqətim, dözüm qalmadı.
Mirvarinin yalqız qalanmı vaxtı,
Suçlu zənn etmişdim puç olan baxtı,
Küsməyim vəfasız yardan nahaqdı,
Dəsən günahkaram özüm, qalmadı.

## QOYMAYAQ

Yavaş-yavaş yollar dəsən ayrılır,

Gəl biz ayrılmağa yolu qoymayaq.
Dərdləşək, yüklənən dərdi boşalsın,
Ürəkləri belə dolu qoymayaq.
Şeytan qəlbimizə girə bilməsin,
Halımıza qohum-qonşu gülməsin,
Unutmayaq əhdi-peyman kəlməsin,
İntizarda sağı-solu qoymayaq.
Çalış məhəbbətlə doldur köksünü,
Qismətin olmasın ayrılıq günü,
"Sevmirəm"-deyə, dil versə hökmünü,
Altında imzanı, qolu qoymayaq.

## SALAMAT QAL

İndi ki, araya düşdü ayrılıq,
Övlad salamat qal, yar salamat qal!
Qazana bilmədim illər uzunu,
Miras qoyam dövlət, var, salamat qal!
Çəksə qılıncını sizə eytiyac,
Bir kimsə bilməsin qalsanız da ac!
Olsanız dayağa, köməyə möhtac,
Sanmayın dünyanı dar, salamat qal!
Boyun əydik, olduq qulu Tanrının,
Qismət imiş belə yolu Tanrının,
Suçlunu seçməyə Ulu Tanrının
Ədalət divanı var, salamat qal!

17 mart 2001

## APAR

Oğlum Şaiqin nişan günü

Sevgilinə xonça ilə bərabər,
Çıx dağlara, dər bir dəstə gül apar!

Məhəbbəti aşıb-daşan ürəklə,
Kəlmələri şəkər dadan dil apar!
Bu gündə gərəkdir ürək sirdaşı,
Papaq eylə çağır dostu, yoldaşı,
Adətimiz budur: - qohum-qardaşı
Yığ başına, elçi getsin el, apar!
Aranızda sönməz məhəbbət olsun!
Pozulmaz əhd-peyman, sədaqət olsun!
Haqq versin bol səbr, dəyanət olsun!
Sizin üçün xoşbəxt gəlsin il, apar!
25 iyun 2006

## QALACAQ BU GÜN

Oğlum Aqşinin nişan günündə

Oğul, yar tapmısan, gözlərim aydın!
Xoş xatirə kimi qalacaq bu gün.
Ehtizaza gəlib könül rübabım
Şaqraq nəğmələrin çalacaq bu gün.
Sevda yollarından keçən talehin,
Gülün qönçəsini seçən talehin,
Səadət şərbətin içən talehin
Tanrıdan qismətin alacaq bu gün.
Butan verilibdi, al vədəsində!
Məhəbbət təbilin çal vədəsində!
Ömrün şirin çağı, bal vədəsində
Eşqin ümmanına dalacaq bu gün.
Gözaydınlığına gəlib qohumlar,
Evimdə, könlümdə gör nə büsat var!
Xeyir-dua vermək üçün qonaqlar
Gəldi, qol boynuna salacaq bu gün.

Ay evimin ilk nübarı, xoşbəxt ol!
Sevgilinlə qoşa qarı, xoşbəxt ol!
Qohum-qardaş: - deyin barı, xoşbəxt ol!
Anan özü xoşbəxt olacaq bu gün!

29 aprel 2010

## MÜBARƏK

Gəncə sahilində yalqız gəzən yar!
Subaylığın, soltanlığın mübarək!
Baharın yaz ayı, çiçək vədəsi,
Getdiyin aranın, dağın mübarək!
Ay cüt olub, yalqız gəzən bəxtəvər!
Tər gülləri şehli üzən bəxtəvər!
"Bir yarım var"-denən bəzən, bəxtəvər!
Dolaşdığın baxça-bağın mübarək!
Tərk etmisən yarımsəhrada məni!
De, nədən salmırsan heç yada məni?
Atlanıb qoymusan piyada məni!
Gec yetişən xoş sorağın mübarək!

11 aprel 2011

## BU GÜN QURAN OXUDUM

Bir olan Tanrıya verdim könlümü,

Sevgi, məhəbbətlə hördüm könlümü,
Səadət içində gördüm könlümü
Elə ki, götürüb Quran oxudum,
Cənnətə büründü hər yan, oxudum.

Keçib ərşdən gələn yolu göylərdən,
Hikmətlə, sirr ilə dolu göylərdən,
Cəbrayıl endirib ulu göylərdən,
Peyğəmbərim edib bəyan, oxudum.
Ümmətinə olsun əyan, oxudum.

Allahına şərik qoşmaq günahdı,
Hər bir işdə həddi aşmaq günahdı,
Halalı-haramı çaşmaq günahdı,
Namaz qılıb sübhdən oyan, oxudum.
Üzü qibləsinə dayan, oxudum.

Düz yol ilə getsən Haqqın yoludu,
Əyri yollar iblislərlə doludu,
Nə ki, məxluqat var Rəbbin quludu,
Odur hər an bizə hayan, oxudum.
Mələklər var əməl sayan, oxudum.

Mömin, kafir olmaq öz əlindədi!
İşıqlı yol salmaq öz əlindədi!
Behişti də almaq öz əlindədi!
Hökm edibdi qanun qoyan, oxudum.
Mirvari, zikr elə hər an, oxudum.

24 avqust 2005

## DÜNYA

Dünyanı pisləyən şairlərə

Yaradan qüdrətli, gözəgörünməz,

Möcüzə yaradar, fəxr edib dinməz.
Hikməti dərk olmaz, sirri bilinməz,
Bir - “OL!” - kəlməsiylə düzəldi dünya,
Gözəl gözlə baxsan, gözəldi dünya.

Əzəmətlə duran dağlar bir aləm!
Naz-nemət bitirən bağlar bir aləm!
Bulud gözün sıxıb ağlar, bir aləm!
Təməli bəşərdən əzəldi dünya.
Gözəl gözlə baxsan, gözəldi dünya.

Çayların ümmana axışı heyrət!
Şimşəyin səmada çaxışı heyrət!
Ulduzların bizə baxışı heyrət!
Ay aman! Nə qədər gözəldi dünya!
Gözəl gözlə baxsan, gözəldi dünya.

Seyrinə çıx bülbül, gül həvəsiylə,
Sallan qayalardan şəlaləsiylə,
Dolaş kainatı Yer kürəsiylə,
Nağıldı, nəğmədi, qəzəldi dünya.
Gözəl gözlə baxsan, gözəldi dünya.

Mirvari - “Bismillah!” – deyən, dilə bax!
Ötüşən fəsilə, aya, ilə bax!
Haqq önündə müti duran qula bax!
Səcdəyə qapanan üz, əldi dünya!
Gözəl gözlə baxsan, gözəldi dünya.

13 iyun 2004

## DUA

İstər xöşbəxt yaşat, istər əzab ver,
Ya Rəbbim ! Kərəm qıl, özümə dəymə!

Lütf eyləyib namazımı qəbul et,
Qibləyə çevrilən üzümə dəymə!
Köç karvanım qürbət elə varsa da,
Vücudumu xəstəliklər sarsa da,
Ömür yolum tufan, boran, qarsa da,
Ağlıma, səbrimə, dözümə dəymə!
İtaət, ibadət etdim, Bismillah!
Məni bir sevimli bəndən et, Allah!
Nə vaxt desəm: -"Lailahəilləllah!"
Dilim dolaşmasın, sözümə dəymə!
Tək Yaradan bildim, müqəddəs, uca,
Varlığını duydum ömrün boyunca.
Dərgahına aparıram, ardımca,
Övladlarım gələn izimə dəymə!
Şeytan hiyləsindən keçməyim üçün,
Haqq işi batildən seçməyim üçün,
Təsnim çeşməsindən içməyim üçün,
Doğru yolu görən gözümə dəymə!
Verdiyin hər sevinc, kədər, qəbulum.
Var-dövlətim getsə hədər, qəbulum.
Alnıma yazdığın qədər, qəbulum.
Səcdəyə gəlməyə dizimə dəymə!
Mirvari, arzumdu şərəfli ölüm,
Mələklərdən dəftər alsın sağ əlim.
Öndə olanlarla Məhşərə gəlim,
Tövbəm qəbul olsun, düzümə dəymə!

14 mart 2004

## MÜNDƏRİCAT

1. Dərd bizi şairə döndərdi.........................................1

2. Ayağa qalx, millətim..............................................8
3. Nə gözəl yaraşır əsgər paltarı..............................64
4. Aman karvan əylən, yolda yağı var......................87
5. Orda, uzaqlarda bir diyar qaldı...........................100
6. Biz dönüb o yurda qayıdacağıq..........................151
7. Namə yazdım, cavab yaman ləngidi....................168
8. Belə sevən taparmısan........................................211
9. Yaradan qüdrətli, gözəgörünməz.......................238